Hüseynbala Miraləmov

# Son səfər

Nəşriyyat - Mətbəə
APOSTROF-A
Publishing & Printing
BAKI – 2019

**Redaktor**
**Bəxtiyar SADIQOV,**
*Milli Məclisin deputatı, əməkdar jurnalst*

**Ön sözün müəllifi**
**Nizami CƏFƏROV,**
*Milli Məclisin deputatı, akademik*

**Mirələmov Hüseynbala**

M65 **SON SƏFƏR.** Bakı, **"Apostrof-A"**, 2019, – səh. 160

**ISBN 978-9952-527-11-7**

Yazıçı Hüseynbala Mirələmovun "Son səfər" povesti Azərbaycan bədii və fəlsəfi fikrində müstəsna yeri olan şair, mütəfəkkir İmadəddin Nəsimiyə həsr olunub. Əsərdə Nəsiminin həyatının Şamaxı ilə bağlı son dövrü ərzində baş verən hadisələrdən söz açılsa da, şairin kimliyi, həyatının səciyyəvi cizgiləri, obrazı olduqca əhatəli və bədii şəkildə oxucuya çatdırılır. Yazıçı bu kontekstdə eyni zamanda dövrün siyasi-ictimai proseslərinə də bədii formada nəzər yetirir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan povest Azərbaycan ədəbi mühitinə və «Nəsimi ili»nə mühüm töhfədir.

**Kitabın istifadəsiylə bağlı bütun müstəsna hüquqlar müəllifə məxsusdur.**

**© Mirələmov Hüseynbala, 2019**

## Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında
## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi

Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, eləcə də 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublika-

sının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq *qərara alıram:*

**2019-cu il Azərbaycan Respublikasında “Nəsimi ili” elan edilsin.**

İlham ƏLIYEV**,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 yanvar 2019-cu il*

**Redaktordan**

## Dərisini soysalar belə əqidəsindən dönmədi

*"Müdrik xalq" – hansı xalqa deyirlər?*

*" Xalqın müdrikliyi" nədir və onu necə müəyyənləşdirmək olar?*

*Maraqlı suallardır, deyilmi?*

*Xalq özü abstrakt anlayışdır, mahiyyətcə bir yerdə yaşayan, müəyyən əlamət və prinsiplərlə birləşən toplum mənasındadır.*

*Əvvəla, ağlı, müdrikliyi ölçmək üçün hələ ki, xüsusi cihaz icad edilməyib!*

*İkincisi, belə cihaz olsa belə, konkret olmayan şeyi, onun təsəvvürə gətirilməyən ağlını həmin cihazla necə ölçmək mümkündür?!*

*Amma həyatda "ağıllı xalq", "müdrik xalq" olub və yenə də var!*

*Əslində, hər bir xalqın ağlı, müdrikliyi onun mütəfəkkir övladlarının, görkəmli yazıçı və şairlərinin, məşhur dövlət və siyasi xadimlərinin simasında öz təcəssümünü tapır!*

*Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Mirzə Fətəli Axundov, Üzeyir bəy Hacıbəyli təkcə şair, yazıçı, dramaturq, bəstəkar deyil, həm də xalqımızın düşüncə, istedad, yaradıcılıq və müdrikliyini təzahür etdirənlərdir.*

*Heydər Əliyev kimi siyasət nəhəngini yetişdirən xalqa necə ağıllı, müdrik deməyəsən?!*

*Azərbaycan xalqı dünyada belə şəxsiyyətləri ilə tanınır, sevilir!*

*Nizami Gəncəvi müdriklik simvoludur!*

*Məhəmməd Füzuli Şərqin ən böyük aşiqi, məcnunudur!*

*Mirzə Fətəli Axundov görkəmli dramaturq, filosofdur!*

*Üzeyir bəy Hacıbəyli dahi bəstəkardır!*

*İmadəddinn Nəsimi isə filosof-şair olmaqla bahəm, həm də dünyada dönməz əqidə sahibi kimi də tanınır!*

*Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,*

*Gör bu miskin aşiqi sərpa soyarlar, ağrımaz – özü öz dönməzliyinə belə qiymət verib!*

*Dövlət başçısı cənab İlham Əliyev 2019-cu ili "Nəsimi ili" elan etdi.*

*Hamının ürəyindən olan bir qərardır!*

*Dünyaca məşhur olan mütəfəkkir şairlərimizi daim özümüz də öyrənməli, əsərlərini dönə-dönə oxumalı, yorulmadan təbliğ etməliyik.*

*Çünki onlar həm də xalqımızın ağlının və müdrikliyinin, yüksək amal və ideallara sadiqliyinin göstəriciləridirlər.*

*Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə çoxsaylı şair, yazıçı, bəstəkar və siyasi xadimlərimizin yubileyləri (keçmiş Sovetlər İttifaqı və dünya miqyasında) keçirildi, əsərləri təkrar-təkrar nəşr edildi, abidələri ucaldıldı.*

*Nəsiminin də təntənəli yubileyi keçirildi, heykəli qoyuldu, həyatından bəhs edən iki seriyalı "Nəsimi" filmi çəkildi.*

*Xalq Ulu Öndərin bu sahədəki xidmətlərini də minnətdarlıqla xatırlayır.*

*"Nəsimi ili"ndə çoxsaylı, rəngarəng və bir-birindən maraqlı tədbirlərin keçiriləcəyi, görkəmli şairimizin əsərlərinin yenidən çap olunacağı şübhə doğurmur.*

*Yeni bədii filmin çəkiləcəyi isə gözlənilmir...*

*Sevimli yazıçımız, millət vəkili Hüseynbala Mirələmov bu sahədəki boşluğu doldurmaq üçün cəsarətli addım atmışdır...*

*Nəsiminin həyatından bəhs edən “Sonuncu səfər” adlı povestini tamamlayaraq redaksiyamıza təqdim etmişdir.*

*Çox yerinə düşən bu gözəl əsərin oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliklə onu kiçik parçalarla “Azərbaycan”ın səhifələrində dərc edirik.*

*Bunun həm də “Nəsimi ili”ndə bizim oxucularımıza birgə sürpriz hədiyyəmiz olacağını güman edirik.*

*...Əsəri oxuyub qurtardıqdan sonra onun gözəl bir filmin ilkin ssenarisi olduğu qənaəti də yaranır...*

***Bəxtiyar SADIQOV***

## "SON SƏFƏR"İN TƏƏSSÜRATLARI

Azərbaycan ədəbi-ictimai fikri tarixində çox mühüm yer tutan, təsəvvüf dünyagörüşünün ən böyük fəlsəfi-estetik interpretatorlarından biri olmaqla öz əqidəsi yolunda təsəvvürə çətin gələn məhrumiyyətlərə məruz qalmış İmadəddin Nəsiminin şəxsiyyəti, həyatı, yaradıcılığı barədə onu yetirən xalq çox gec – təxminən beş yüz il sonra geniş məlumat əldə etsə də, dahi Mücahid (və Şəhidin) ümumi (mücərrəd) obrazı nəinki xalqın yaddaşından çıxmamış, zaman-zaman sxolastik ehkamlara qarşı çıxan həqiqət axtarıcılarına sözün böyük (və üsyankar!) mənasında ilham vermişdir.

Salman Mümtazın "Azərbaycan şairlərindən Nəsimi" məqaləsi ilə Azərbaycana qaytarılan şair-mütəfəkkir haqqında Həmid Araslı, Cahangir Qəhrəmanov, Mirzağa Quluzadə, Həmid Məmmədzadə, Zümrüd Quluzadə, Qəzənfər Paşayev... kimi görkəmli tədqiqatçıların əsərləri meydana çıxdıqca xalq öz dahi oğlunu daha yaxından tanımağa başlamış, 1973-cü ildə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyilə keçirilən 600 illik yubileyi isə İmadəd-

din Nəsimi barədəki milli təsəvvürə fundamental miqyas vermiş, xalq şairi Qabilin “Nəsimi” poeması, xalq yazıçısı İsa Hüseynovun (Muğannanın) “Məhşər” romanı, eləcə də “Nəsimi” filmi bu miqyası bədii təfəkkürün qüdrətilə zənginləşdirmişdir.

Lakin çoxdandı ki, Nəsimi haqqında diqqəti cəlb edən bir əsər yazılmırdı. Və görkəmli yazıçı Hüseynbala Mirələmovun “Son səfər” povesti, fikrimizcə, həmin boşluğu müəyyən qədər aradan qaldırmış oldu. Yalnız ona görə yox ki, dahi şəxsiyyət ədəbiyyatda bir daha “yad edildi”, daha çox ona görə ki, Nəsimiyə tamamilə yeni ideya– estetik mövqedən baxmaq təşəbbüsü özünü göstərdi.

Hüseynbala Mirələmovun Nəsimisi nə Qabilin, nə də İsa Hüseynovun (Muğannanın) Nəsimisi deyil. “Son səfər” müəllifi geniş panoramlı təsvirlərə, yaxud dövrün Nəsimidə təcəssüm edən mürəkkəb fəlsəfi-ideoloji özünüifadə (və özünütəsdiq) mükalimələrinə (bu xüsusiyyətlər həm “Nəsimi”, həm də xüsusilə “Məhşər” üçün səciyyəvi idi) varmadan şair-mütəfəkkirin taleyinə, əgər belə demək mümkünsə, adi bir insan olaraq nəzər salmağın təcrübəsini təqdim edir... Uzaq yolların yolçuluğundan “yorulub” vətəni Şirvana – Şamaxıya qayıdan şairlər şairi burada cəmi-cümlətanı bir neçə ay qala bilir. İdeya (və sənət!) düşmənləri onu elə ikrahedici bir paxıllıqla qarşılayırlar ki, hətta Şirvanşah İbrahimin xoş münasibəti, himayəsi də şairlər şairinin

Şirvanda, ümumən Azərbaycanda yaşama arzusunu gerçəkləşdirməyə imkan vermir. Lakin şair öz ilk məhəbbətinə – Hüsniyyəyə qovuşmaqla təsəlli tapmış olur...

“1409-cu ilin yazı idi. Şairlər şairi Seyid Əli İmaddin Nəsimi ölkə-ölkə dolaşmaqdan – məscid, karvansara və xanəgahlarda gecələməkdən, dərviş, abid, imam, şair və səyyahlarla söhbət eləməkdən yorulub, doğma Şamaxıya qayıdırdı. O, artıq belə qərara gəlmişdi ki, ömrünün yerdə qalanını ata yurdunda – kiçik qardaşı Şahxəndanla bir yerdə keçirsin...”

Yazıçı hadisələri bir nağıl təhkiyəsi sürətilə təsvir etsə də, hərdən müxtəsər təfsilatlara da diqqət yetirib şairlər şairinin tərcümeyi-halının zəruri detallarına varır:

“Seyid Əli hələ mədrəsədə oxuyarkən Hüsniyyə adında bir qıza aşiq olmuşdu, amma uzaqdan-uzağa, gizlin. Qəlbini aça, eşqini dilə gətirə bilməyən şair öz şeirlərində sevgilisini vəsf edir, ah çəkir, fəryad qoparır, hicr odunda alışıb yanır. Amma çox çəkmir ki, onun eşqlə süslənən könül bağçasını xəzan vurur...

Seyid Əlinin məhəbbətindən bixəbər olan Hüsniyyə on altı yaşında ikən valideynləri tərəfindən mədrəsədən uzaqlaşdırılır, qəti istəməsə də, zorla bir müsəllimə ərə verilir. Amma o, Seyid Əlinin qəlbində elə kök salır, elə fəsli-yaz yaradır ki, daha

orada bir başqası üçün yer qalmır. Şairin bütün fikri-zikri, xəyalı və xoşbəxtliyi məhz bu sevgi ilə pərvəriş tapır".

Nəsimini Şirvana qaytarıb gətirən qüvvələrin biri də bu eşq olur. Və onu "göylər"dən "yer"ə endirən həmin eşq gerçəkliyi povestdə, çox önəmlidir ki, şair-mütəfəkkirin haqqındakı ülvi təsəvvürləri zədələmədən, məişət münasibətləri prozaikliyinə endirmədən təsvir olunmuşdur. Müəllif bütün əsər boyu zərif eyhamlarla hiss etdirir (və nəticə etibarilə, əsərin əsas motivlərindən birinə çevirə bilir) ki, şair-mütəfəkkirin ən adi hərəkətlərində də qeyri–adi dünyagörüşünün (və istedadının) hikməti var...

Nəsimi Şamaxıya gəldiyi ilk gecə kiçik qardaşı Şahxəndanın yiyə durduğu evlərini daşa basırlar...

"Evlərinin daşa basılması təzə hadisə deyildi. Artıq neçə müddət idi ki, məhəllə uşaqları, nəinki gecələr, hətta gündüzlər də onu rahat buraxmır, "kafir", "kafirin qardaşı" deyib sataşır, hətta təklikdə yaxalayanda döymək də istəyirdilər. Səbəb isə, əlbəttə, qardaşının yazdığı şeirlər idi. Qəribədir, bu qəzəllər, qəsidələr, qitələr onların həm çörəyi, həm də qınaq yeri idi".

Şahxəndanla Nəsiminin söhbətləri, bir tərəfdən, iki qardaşın adi məişət əhvalpürsanlığıdırsa, digər tərəfdən, kifayət qədər ciddi mətləblərin mahiyyətini aşan mükalimələrdir...

“Şahxəndan dedi:

– Dadaş, mən sənə görə qorxuram, özümə görə yox... Əslində mənimlə heç işi olan da yoxdur. Məhəllə uşaqlarıdı, hərdən sataşırlar, onları da dayı oğlunun adı ilə qorxudub qaçırdıram. Mənim bütün narahatlığım sənə görədir. Çünki məni yox – mən kiməm ki – səni kafir hesab edirlər. Mən bilirəm sən kafir deyilsən, camaat isə bilmir. Nə vaxtsa, kimsə orda-burda ağzından qaçırıb ki, sən kafirsən, odur-budur düşmüsən ağızlara. Qəzəllərin, qəsidələrin də o qədər qəliz, fikirlərin o qədər qarmaqarışıqdı ki, avam camaat oxuyub heç nə başa düşmür. Başa düşməyəndə də, deyir ki, bu elə kafirdi ki, kafir!

Onlar astadan söhbət eləyə-eləyə evlərinin yolunu tutmuşdular. Şairlər şairi gülümsəyib dedi:

– Balası, sən lap böyük adamlar kimi danışırsan.

Şahxəndan güldü.

– Məni sənin yazdıqların, bir də dönə-dönə üzünü köçürdüyüm Qurani-Kərim belə vaxtından əvvəl böyütdü”.

Vətənə döndükdən sonra şairin rastlaşdığı qaragüruh mühiti onu real təhlükələr qarşısında qoymaqla daha dərindən düşünməyə vadar edir...

“Seyid Əli İmadəddin Nəsimi nahardan sonra eyvanda – taxta çarpayıda uzanıb xəyallara daldı.

Fikirləşdi ki, bugünkü hadisəyə necə əncam çəksin. O, həmişəlik gözəl vətəninə – Şirvana qayıdıb, evlənəcəyinə və ömrünün qalanını dost– aşna arasında keçirəcəyinə, yazıb-yaradacağına qərar vermişdi. Fəqət şirvanlıların, lap elə bakılıların da onun əleyhinə olduqlarını – düşməninə çevrildiklərini görüb sarsılmışdı. Sadəcə, qardaşı qorxmasın deyə özünü saymazlığa vurmuşdu – guya ki, onlar fikir verməli şey deyilmiş. Əslində isə, məsələ çətin və qəliz idi. Zarafat deyil, birdən-birə sənə “kafir” damğası vururlar, deməli, burada qala bilməzsən. Qara camaatın fikrini dəyişmək isə, elə də asan deyil”.

Nəsiminin Şirvanşah İbrahimlə görüşləri, həm zamanın gərdişi, həm şeir-sənət, həm də şairin gələcək taleyi barəsindəki həsbi-halları povestdə istər tarixi həqiqətə sadiqlik, istərsə də ədəbi-bədii təxəyyülün inandırıcılığı baxımından maraq doğurur. Və Hüseynbala Mirələmovun müasir mövzularda yazan yazıçı olmaqla yanaşı,  tarixi mövzularda qələm işlətmək təcrübəsi də  “Son səfər”in yaradıcılıq-sənətkarlıq uğurunun təmin olunmasına  az yardım etmir... Nəsimi  öz dünyagörüşünün təbliğatçısı kimi nə qədər səmimidirsə, Şirvanşah İbrahim də sosial-siyasi şəraitin bütün ziddiyyətlərinə baxmayaraq, o qədər qərarlarında qəti, mövqeyində ardıcıldır. Lakin şair-mütəfəkkirlə müdrik dövlət xadiminin bir-birini anlaması belə hələ çıxış yolu deyil...

“Gözləri həmişə qıpqırmızı olan girdəsifət Bəhlulinin təklifi ilə Rəbiyyə xatun Qurani-Kərimi gətirib ortalığa qoydu və əlini kitaba basıb dedi:

– Bu Qurani-Kərimə and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafərin ya sürgün, ya də qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Rəbiyyə xatundan sonra şair Bəhluli, şair Qulaməli, şair Qaim Şirvani, şair Əhməd Kəsirəddin, şair Tacəddin Şirvani, şair Mail Fədai, molla Ruxnəddin Xəlili, molla Seyid Məhəmməd, dəllək Nəsrəddin Zəbani, falçı Yusif Səbayi, lotu İsfəndiyar Qutluq növbə ilə bir-bir əllərini Qurani-Kərimə basıb, onun dediklərini təkrar etdilər”.

Povestdə Nəsiminin “rəqib”ləri, tamamilə doğru olaraq, Şirvanşah İbrahimin də düşmənləri kimi təqdim olunur. Və sui-qəsdin qarşısı alınsa da, Şirvan (ümumən Azərbaycan) məhz qaragüruhun mənhus maraqları ucbatından öz dahi övladına sahib çıxa bilmir...

“Şamaxı narahat və həyəcanlı günlər yaşayırdı. Artıq neçə vaxt idi ki, Şamaxı  və Bakı şairlərinin müraciətinə əsasən buraya Təbrizdən, Ərdəbildən, Zəncandan dəstə-dəstə adamlar gəlirdi. Həmin müraciətdə yazırdılar ki, əziz bəradərlərimiz, böyük yurdumuzun şair, qəzəlxan, mərsiyəxan və meyxa-

naçıları, neçə illərdi ki, Şamaxıda üzdəniraq bir şair peyda olub, öz kafir əşarı ilə nəinki müqəddəs dinimizə, hətta Allah və peyğəmbərimizə hədyanlar yazıb, hər yerdə xalqın ruhuna rəxnə salır...”

Öz tərəfdarlarını – özlərinə bənzəyənləri səfərbər edən qaragüruh şairi məhv edə bilməsə də, onun Azərbaycan hüdudlarını tərk eləməsinə nail olur.

Və konkret tarixlə başlayan əsər konkret tarixlə də başa çatır.

“1409-cu ilin avqust ayının onunda sübh çağı, o vaxt ki, hələ yol-iz aydın görünmür və yalnız məşriq səmasında üfüqin kiçik bir hissəsini ağ bir halə bürüyür, Şamaxının Seyidlər məhəlləsindən uzanan yolda iki dəvə kölgə kimi ağır-ağır uzaqlaşırdı...

Seyid Əli İmadəddin Nəsimi bu qədər dərdi, nisgili olmasına rəğmən xoşbəxt idi. Çünki ata ocağından, qardaşından ayrı düşsə də, xoşbəxtliyi insana bəxş edən dörd ünsürün dördü də onunla bir yerdə idi: sevgi, şöhrət, hörmət və nəhayət, Vətən!

Bəli, doğma Azərbaycan dilinin timsalında Vətən daim onunla idi...”

“Son səfər” povestində bir neçə ayın hadisələri barədə söhbət getsə də, şairlər şairinin obrazı kifayət qədər səciyyəvi cizgilərilə (və sənətkarlıqla) təsvir edilmiş, şair– mütəfəkkirin şəxsi həyatı ilə ictimai idealları arasındakı sarsılmaz əlaqə çox

munis, səmimi, təbii münasibətlər kontekstində təqdim edilmişdir. Və nəticə etibarilə əminliklə demək olar ki, Hüseynbala Mirələmovun istedadlı qələmi Nəsimi haqqındakı təsəvvürlərimizi xeyli genişləndirən yeni bir ədəbi abidə yaratmaqla dahi şəxsiyyəti mənsub olduğu xalqa daha da yaxınlaşdırır, doğmalaşdırır.

***Nizami CƏFƏROV,***
***akademik***

# İKİ CAHAN GÜNƏŞİ

*Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,*
*Gövhərü-laməkan mənəm, kövnü-məkana sığmazam...*

Onun bu beytlə başlanan məşhur qəzəlini ilk dəfə oxuyanda orta məktəb şagirdi idim. Olardı ya 13, ya 14 yaşım...

Dilimə çətin yatan bəzi kəlmələrin qəlizliyinə rəğmən, ahəngi, sözlərin çəkisi, düzümü könlümü necə ovsunlamışdısa, bir neçə saatlıq əziyyətdən sonra bütün qəzəli əzbər bilirdim...

Sonralar yadımdan çıxan beyt və misraları oldu, amma bu giriş beyt yaddaşımda diri qaldı...

Şairin yüz minlərlə heyranının hafizəsində dolaşdığı kimi...

Ömrün müxtəlif məqamlarında – həmin qəzəli təkrar-təkrar oxudum, bu dəfə məqsədim əzbərləmək yox, misraların ruhunu duymaq, onları anlamaq idi.

Bilmirəm, tam mahiyyətində, Onun özünün qavradığı mənada anlaya bildimmi?!.

Bir neçә gün әvvәl “Sığmazam” qәzәlini bir daha tapdım, hәr misranın üzәrindәn az qala zәrrәbinlә keçdim...

Onu kәlmә-kәlmә, misra-misra, beyt-beyt yaşamağa çalışdım...

Vә ilk dәfә başa düşdüm ki, bu qәzәli 14 yaşında oxuyan Hüseynbala ilә bugünkü Hüseynbala arasında çox böyük tәfavüt var...

Onu bu әrәfәdә oxuyub hiss etmәyә çalışan da tamam özgә bir Hüseynbala imiş...

Әminәm ki, bu başqa oxucuların da qәnaәtidir. Bu qәzәlin şәrhi-bәyan etdiyi mәtlәblәr yaşa, insan ömrünün müxtәlif dönәmlәrinә görә dәyişir. Yaş artdıqca, hәyat tәcrübәsi genişlәndikcә, dünyaya baxış dәyişdikcә onun dürlü-dürlü hikmәtlәri üzә çıxır.

Sözün qüdrәti dә elә bu deyilmi?!.

Vә bu il belә bir qüdrәti yaradan söz adamının anadan olmasının 650-ci ildönümü tamamlanır. Bu münasibәtlә, Prezident İlham Әliyev 2019-cu ili ölkәmizdә “Nәsimi ili” elan edib.

Bu il Azәrbaycanda söz ilidir, düşüncә bayramıdır!..

Bu xәbәri ilk dәfә mәtbuatdan oxuyanda fәrәhimdәn yerә-göyә sığmadım desәm, mübaliğәyә

varmaram. Bundan bir neçə ay əvvəl də ölkə rəhbərimiz Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi barədə sərəncam imzalamışdı. Eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə ötən ildən Azərbaycanda və dünyanın ayrı-ayrı ölkələrində Nəsimi festivallarının keçirilməsinə başlanıb və bu tədbirlər davam etdirilir.

2019-cu ilin bütünlüklə böyük şairə həsr olunması isə bu istiqamətdə atılan addımların davamı olmaqla çox möhtəşəm tarixi hadisədir. Nəsimi sözünə, onun öz poetik inciləri ilə inkişaf etdirdiyi ana dilimizə, bu iki cahan günəşinin təlqin etdiyi bəşəri ideyalara verilən yüksək dəyərdir.

2019-cu il – "Nəsimi ili" ictimai fikir tariximizin daha iki möhtəşəm faktı ilə də əlamətdardır. Bu il Azərbaycanın ən böyük maarifçilərindən sayılan Cəlil Məmmədquluzadənin anadan olmasının 150 ili tamam olur. 2019-cu il həm də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50-ci ildönümüdür.

Ötən il böyük sevgi və coşqu ilə qeyd etdiyimiz "Cümhuriyyət ili"nin məzmununu tamamlayan bu faktların hər biri milli mədəniyyət və dövlətçilik tariximizdə müstəsna əhəmiyyət daşıyır.

Bir-biri ilə rəmzi şəkildə bağlıdır...

Cəlil Məmmədquluzadə maarifçiliyi Nəsimidən üzü bəri yol gələn məşəlin gur alovudur...

Azərbaycan Xalq Cümhuriyyəti bu işıqdan şöləlænən istiqlal çırağıdır...

Heydər Əliyev şəxsiyyəti bu çırağı zirvələrə ucaldıb, həm də bütün dünya azərbaycanlılarını onun sönməz nuru ətrafında bir araya gətirən öndərdir...

1973-cü ildə İmadəddin Nəsiminin anadan olmasının 600-cü ildönümü münasibətilə keçirilən tədbirləri çox yaxşı xatırlayıram. Yubileyin böyük şairin şanına layiq keçirilməsini ölkənin yeni rəhbəri Heydər Əliyev xüsusi diqqətdə saxlayırdı.

Həmin dövrdə Bakıda yeni təşkil edilmiş inzibati rayonlardan birinə şairin adı verildi. Ulu öndərin səyləri nəticəsində Nəsiminin adını YUNESKO görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil etdi. Beləcə şairin 600 illiyi təkcə ölkə hüdudları daxilində deyil, beynəlxalq miqyasda da qeyd olundu.

Nəsimi ilə bağlı həyata keçirilən tədbirlər təkcə yubiley dövrü ilə məhdudlaşıb qalmadı. Bu tədbirlər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə növbəti illərdə də davam etdirildi. Unudulmaz rejissorumuz

Həsən Seyidbəyli Azərbaycanın xalq yazıçısı İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında "Nəsimi" filmini ərsəyə gətirdi. Film qısa müddətdə dünyanın bir çox ölkələrində böyük əks-səda doğurub qəlbləri fəth etdi, nüfuzlu mükafatlar qazandı. Bu kino İmadəddin Nəsiminin şəxsində türk dünyasının böyük bir mütəfəkkirini müasir dünyaya tanıtdı.

Üstəlik, tamaşaçılar baş rolun ifaçısı, o zaman hələ çox gənc olan dəyərli aktyorumuz Rasim Balayevin şəxsində parlaq bir istedadı kəşf etdilər.

Orasını da xatırladım ki, bu film "Kodak" kinolentinə çəkilən ilk Azərbaycan kinosudur. Məhz Heydər Əliyevin istəyi və köməyi sayəsində lent xaricdən, o vaxtın dili ilə desək, "qızıl pulla", yəni xarici valyuta ilə alınmışdı ki, film keyfiyyətli olsun, Nəsiminin özünə və sözünə layiq çəkilsin.

1979-cu ildə xalq rəssamları İbrahim Zeynalov və Tokay Məmmədovun müəllifliyi ilə paytaxtın mərkəzində böyük şairin möhtəşəm abidəsi ucaldıldı. Nəsimi irsinin ölkəmizdə sistemli tədqiqi və təbliğinə başlandı. Şairin yaradıcılığı alimlərimizin üzə çıxardıqları yeni əlyazma nüsxələri əsasında öyrənildi. Ölkədə nəsimişünaslıq elmi məktəbi formalaşdı. Bu tədqiqatlar Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açdı.

Heydər Əliyevin Nəsimi şəxsiyyətinə yüksək sevgi və ehtiramı ondan irəli gəlirdi ki, onun ictimai fikir tariximizdəki əzəməti bu böyük dövlət adamına əyan idi.

Ulu öndər Nəsimi sözünün qüdrətini aydın dərk edirdi...

Millətin, dövlətin, bir qədər də geniş götürsək, ümumən külli-bəşəriyyətin belə şəxsiyyətlərlə ucaldığının, dünyanın, insanın kamilliyə doğru ancaq belə mütəfəkkirlərin kəlmələri izində rəvan addımlaya biləcəyinin fərqində idi...

Bu gün İlham Əliyevin Nəsimi şəxsiyyətinə yanaşması da eyni münasibətin davamıdır...

Xatırlayırsınızmı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2013-cü ilin avqustunda Qəbələdə keçirilən sammitindəki çıxışı zamanı Azərbaycan Prezidenti nə söyləmişdi?!

"XXI əsr türk dünyası əsri olmalıdır"...

Ölkə rəhbərimizin bu çağırışı bir çox müsəlman ölkələrində yaşanan xoşagəlməz hallara, qarışıqlıqlara, vətəndaş müharibələrinə rəğmən türkdilli coğrafiyada özünü göstərən inkişaf proseslərinə əsaslanır. Bunu böyük sərvət kimi dəyərləndirən İlham Əliyev hesab edir ki, belə bir inkişaf qorunmalıdır, türk dünyasında izlənən müsbət meyillər daha da gücləndirilməlidir. Başqaları üçün bir nümunəyə çevrilməlidir.

Azərbaycan bu çağırışa qədər də, ondan sonra da bununla bağlı bütün işlərin zəhmətini çəkib, çəkir və yəqin ki, bundan sonra da üzərinə düşən tarixi-mənəvi missiyanı şərəflə yerinə yetirəcək.

İmadəddin Nəsimi kimi mütəfəkkirlərimiz isə bizim üçün həm də ona görə dəyərlidirlər ki, türk dünyasının mənəvi nailiyyətləri, bu coğrafiyanın müsəlman aləmində yaratdığı mütərəqqi fərq belə dühaların yaradıcılığından başlanır, bu irsin işığından yola çıxır...

2007-ci ildə türk dünyasının daha bir fikir adamı – Mövlana Cəlaləddin Ruminin 800 illik yubileyi də böyük təntənə ilə qeyd edilmiş və mükəmməl bir düşüncə xəzinəsinin qapılarını dünyanın üzünə açmışdı.

Rumi də, onun ruhunun əkiz tayı Şəms Təbrizi də, Nəsimi də, mürşidi Fəzlullah Nəimi və başqa sufilər də eyni bir günəşin zərrələridir...

Müasir türk və o cümlədən Azərbaycan mədəniyyəti bu gün sivilizasiyaların toqquşması mühitində o qədər də birmənalı qəbul olunmayan ortodoksal islama yox, bu cür zərrələrin nuru sayəsində milliləşmiş, daha modern tərzli dini baxışa əsaslanır...

Ona görə bu mədəniyyətin özülü möhkəmdir,

sağlamdır, həyata, dünyaya, insana baxışı aydındır, qəlbə nur kimi hopur...

Tarixi bəlgələri vərəqləyək... Türk mifologiyasının tədqiqatçıları da təsdiqləyərlər ki, ərəblər islamı gətirənə qədər bu torpaqlarda etnik təfəkkürdə meydana çıxan bütün sualların izahını verəcək gücə malik mükəmməl bir epos mədəniyyəti formalaşmışdı. Elə Ana Kitabımız olan "Kitabi-Dədə Qorqud" dastanlarını götürək. Vətənə, həyata, insana, valideynə, qadına, övlada, təbiətə, yurdun düşmənlərinə münasibətin bundan da parlaq örnəyi olarmı?!

Məhz elə bu mükəmməlliyə görə də təxminən XI əsrə qədər türklər islam dinini, demək olar ki, mənimsəməmişdilər.

Çünki islam ideologiyası bu torpaqlarda düşüncə boşluğu ilə üzləşmirdi...

Türk təfəkkürü onun qarşısına çox parlaq idrak sistemi ilə çıxırdı...

Sonrakı tarixi mərhələlərdə isə bu təfəkkür islamı özləşdirərək qəbul etdi...

İslami dəyərləri min illərdən süzülüb gələn mifoloji dünyagörüşü işığında mənimsədi, bu dəyərləri daha da mükəmməlləşdirdi, insaniləşdirdi, əxlaq, irfan mənziləsinə yetirdi...

İmadəddin Nəsiminin də təmsil etdiyi sufi ideyaları, baxın, bunun təcəssümüdür...

Digər böyük sufilər kimi, Nəsimiyə görə də Allahla insan arasındakı ünsiyyət birbaşadır. İnsan bu yolu, bir qayda olaraq, intuisiyasının gücü ilə keçir. Bu baxımdan ortodoksal islamla sufilik arasında ziddiyyət var. Sufilər həqiqətin dərkində heç bir vasitəni qəbul etmirlər.

Onun və digər hürufilərin yaradıcılığında ərəb hərflərinin simvollaşdırılmasına gəlincə, xüsusi qeyd etmək lazımdır ki, hürufizm sırf türk-oğuz təfəkkürünün bəhrəsi kimi meydana çıxmışdı. Bu, öz dövründə sufizmin ən geniş yayılmış qollarından sayılırdı.

Nəsimi isə hürufi sufizminin əsas ideoloqu və təbliğatçılarından olaraq sufizmi təkcə özünün deyil, ümumilikdə cəmiyyətin xilası üçün qəbul edirdi, hər yerdə yaymağa çalışırdı.

Sufizm Nəsimi üçün haqq-ədalətdir, vicdandır, elmdir, insanın cəhalətdən qurtuluşudur...

Ona görə ictimai-siyasi motivlər, insan azadlığı ideyaları, zülmə, zorakılığa, nadanlığa etiraz Nəsimi poeziyasında bu qədər aktualdır.

Nəsiminin yaydığı hürufizm xüsusi təriqət olmaqdan çox universal ideyalar sistemidir. Heç bir sufi məktəb nə ona qədər, nə də ondan sonra insanı

hürufilərdə olduğu qədər Allaha yaxın hesab etməmişdi. İnsanın kamillik məqamına yetişərək Allaha qovuşa biləcəyinə bu qədər inanmamışdı.

*Ərşlə fərşü kafi nun məndə bulundu cümlə çün*
*Kəs sözünüvü əbsəm ol, şərhü bəyanə sığmazam...*

Bütün bu məqamları xatırlamaqda məqsədim Nəsimi sözünün axıb gəldiyi iki böyük mənəvi ümmana nəzər salmaqdır. Bunlardan biri türk mifologiyasıdır. Digəri isə islam fəlsəfəsidir. Nəsimi bu iki fikir dəryası arasında bir körpüdür, bağlantıdır...

Ona görə Nəsimi sözü bu qədər qüdrətlidir, durudur, cəlbedicidir...

Məhz bu cür mütəfəkkirlərimizin yaratdıqları ənənələrin gücüdür, verdiyi imkanlardır, formalaşdırdığı enerjidir ki, Azərbaycan bu gün mədəniyyətlərin dialoqu meydanına mükəmməl bir düşüncə sistemi ilə əlidolu çıxa bilir...

Belə bir düşüncənin parlaqlığı ilə bütün dünyanın diqqətini çəkir. Yer üzündə mədəniyyətlərarası dialoq məkanı kimi tanınır. Qloballaşan dünyamızda multikulturalizm, fərqli mədəniyyətlərə hörmət, sülh və tolerantlıq kimi bəşəri ideyaların yayılmasına çalışır.

İslam dünyasının çeşidli təhdidlərlə üz-üzə qaldığı indiki çağlarımızda əsl islami dəyərlərə sahib çıxır. İslam həmrəyliyi ideyalarını aktuallaşdırır. Bütün müsəlman ölkələrini bu ideya ətrafında bir araya gətirir. Amma bunu da digər mədəniyyətlərə qarşı kor-koranə birləşməkdən, onları qaralamaqdan ötrü deyil, dini inancımızın düşüncə işığını yaymaq üçün edir. İslam fəlsəfəsinin ilahi hikmətini dünyaya təqdim etməyə can atır.

İslamın, əfsuslar ki, bir çox bədxahların düşüncələrə yeritmək istədikləri sayaq ancaq terror, zorakılıq, xurafat, ətalət deyil, sülh, barış, kitab, elm, təhsil, kamillik dini olmasını sübuta yetirməyə yönəlir...

Və bu, Azərbaycanda ona görə uğurlu alınır ki, Nəsimi kimi örnəklərimiz var...

Dövlətimizin bu istiqamətlərdə həyata keçirdiyi fəaliyyət belə mütəfəkkirlərimizin zəngin irsinə əsaslanır. Zamanın qədim qatlarına doğru uzanan fikir rişələrindən qidalanır.

Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünü qeyd etdik. İndi bir anlıq diqqət yetirək. Müsəlman Şərqinin ilk demokratik, azad respublikasını da bu qədər xalq arasında məhz bizim qurub-yaratmağımız, bir əsrdə ikinci dəfə yüzlərlə şəhidimizin müqəddəs qanı bahasına yenidən istiqlalımıza qovuşmağımız da elə Nəsimi

kimi dühalarımızın təlqin etdikləri azadlıq ideyalarının təntənəsi deyilmi?!.

Və Azərbaycan bu cür ənənələrin gücü ilə, dövlət rəhbərimizin də bəyan etdiyi kimi, XXI əsrin həqiqətən türk əsrinə çevrilməsinə töhfələrini verir. Qədim türk təfəkkürü və əsl islami dəyərlərin ruhunu gələcək nəsillər üçün daha gözəl bir dünyanın qurulmasına, sülhə, insanların vəhdətinə, inkişafa, tərəqqiyə yönəldir.

"Nəsimi ili" də bunun bir nümunəsidir...

Əmir Teymurun törəmələrindən Hüseyin Bayqaranın vəziri Kəmaləddin Hüseyin vaxtilə "Məcalisül-üşşaq" ("Aşiqlər məclisi") əsərində yazırdı ki, "Nəsiminin könül dənizi dalğalananda onun kəlmə və hərfləri incilər kimi kənara dağıldı". Nəsiminin izhar etdiyi mətləblərin bəzən yanlış anlaşılması, görünür, bununla bağlıdır. Zatən özü də bunu irəlicədən duyurdu və söyləyirdi ki:

*Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,*

*Bu, quş dilidir, bunu Süleyman bilir ancaq...*

Əfsuslar olsun ki, orta məktəb illərində və sonralar elə bizə də Nəsimini daha çox gözəllik və məhəbbət şairi kimi təqdim edirdilər. Əlbəttə, onun

yaradıcılığında bu motivlər çox güclüdür, amma əsas deyil...

Bütün şeirləri ilə təsəvvüf şairi olan bu böyük sufinin dinsiz şair kimi qələmə verilməsi, islami dəyərlərə qarşı qoyulması meyilləri də ortada idi. Amma irfan elmi ilə Nəsimi yaradıcılığı arasında az-çox paralellik aparanda görürsən ki, bu iki mənəvi dəyər nəinki qarşı-qarşıya dayanır, əksinə, iki nur seli kimi qovuşaraq insanı kamilliyə doğru aparan yola işıq saçır...

Nəsimi sözü indiyə qədər yer üzünə gəlib-keçmiş ən böyük həqiqətlərdən biridir...

Zəmanəsinin digər böyük sufi alimləri kimi, Nəsimi də bəndəni daima Allaha yaxınlaşdırır...

Məqama – kamillik mərtəbəsinə qaldıraraq Haqqa qovuşdurur...

Nəsiminin dinə yanaşması bütün böyük maarifpərvərlərin münasibətinin eynisidir. O, dinə, inanca qadağalar sistemi, qorxu kabusu kimi yanaşmır. Dini insanın mənəvi dünyasını saflaşdıran, onu fani istəklərdən, azğın ehtiraslardan, pis əməllərdən çəkindirən əxlaq-tərbiyə məktəbi kimi dəyərləndirir.

İnsana Allahdan qorxmağı deyil, bu müqəddəs məbudu sevməyi, belə bir ilahi eşqi itirmək qorxusu ilə yaşamağı təlqin edir. Allahın ən gözəl sifətlərini

insanın nəcib əməllərində arayır, Rəbbin əlamətlərini insan əlinin yer üzündə yaratdığı gözəlliklərdə axtarır.

Nəsimi fəlsəfəsinə görə, insan öz simasındakı gözəlliklərdə onu yaratmış Rəbbin nişanələrini daşıyır. Şair bu nişanəni sevgilisinin simasında görür, ona bu eşqlə bir könüldən min könülə elə dəlicəsinə aşiq olur ki, pərvanə kimi bu sevginin oduna yanıb-yaxılmaq istəyir.

*Şəmi-ənvarı təcəllidir cəmali-dilbərin*
*Ey könül, pərvanətək gəl, yan, bu şəmin narına...*

Nəsimi hikməti dərk tələb edir...

Hansısa ideyanın ardınca getmək istəyirsənsə, onu birinci tamam-kamal dərk etməlisən. Dünya və insanlar üçün faydasını anlamalısan. Kor-koranəlik, cahillik, nadanlıq bu fəlsəfəyə yaddır. Nəsimi hikməti öyrədir ki, inanc da Allah ideyasının düzgün dərkindən başlanır. Əgər biri əzəldən, mənadan, irfandan uzaqdırsa, Allahı yanlış dərk edirsə, ona Quran ayətlərindən, təfsirdən, kəlamlardan xəbər verməyin də heç bir mənası yoxdur. Çünki Allahı düzgün dərk etməyən insan Onun kəlamlarını da yanlış anlayacaq, mənadan, mahiyyətdən iraq düşəcək.

Günümüz üçün də nə qədər tanış mənzərədir, deyilmi?!.

Bir neçə hədis, rəvayət əzbərləyəndən sonra özünü din bilicisi sanıb başqalarına ağıl öyrədənləri, dini təlqinlərin, hökmlərin əsl məramını, tərbiyəvi gücünü bir kənara qoyub mənasız təfərrüatlarla, zahiri göstərilərlə yanlış istiqamətlərə yönələnləri azmı görmüşük?!

Nəsimi belələrinə qarşıdır. Onun əsas hədəfi cəhalətdir...

O, insan kimi ülvi varlığın kamilliyə doğru aparan aydın bir yol varkən cəhalət girdabında batdıqca batmağı özünə rəva görməsini qəbul edə bilmir. İnsanı pisi yaxşıdan ayırmağa, xalis altun olan mərifəti özündə ali bir dəyər kimi aşılamağa və örnəyi mərifət sahiblərinin hünərindən götürməyə səsləyir. Çünki zoğaldan saf dinar gözləmək mümkün deyil. İnsanın qızıl zinəti yalnız onun mərifətidir.

*Mərifətdir xalis altun, sikkəsi fəzü hünər,*

*Altunu tanı, zəğəldən ari dinar istəmə!*

Nəsimi özü zəmanəsinin mükəmməl savada malik kəslərindən idi. Doğma ana dilimizlə yanaşı, fars və ərəb dillərini də yaxşı mənimsəmişdi. Dövrünün hikmət, məntiq, əruz, qafiyə, tarix, nücum,

fiqh, təbiətşünaslıq kimi elm sahələrini yaxşı bilirdi. Çox gənc yaşlarından Yaxın və Orta Şərqin elm və fəlsəfi irsinə aşina idi. Bu biliklərin köməyi ilə kamala yetmiş Nəsimi elə elmi-fəlsəfi sistem axtarırdı ki, onun köməyi ilə başqalarını da tərbiyələndirə bilsin. Onlara özlərini yeni məzmunda dərk etməyi öyrətsin.

Və arzuladığı sistemi formalaşdırmaqdan ötrü Nəsimi ən çox gənclərə üz tuturdu. Cavanları oxumağı, təhsil almağı özlərinin həyat amalına çevirməyə səsləyirdi. Əski təlimlərdən əl çəkib onun kimi mütəfəkkirlərdən dərs almağa dəvət edirdi.

Şair insanda gözəl əxlaqın tərbiyəsi üçün, hər şeydən əvvəl, mənəvi, maddi və fiziki çətinliklərə dözmək qabiliyyətini mühüm sayırdı. Hesab edirdi ki, şəxsiyyət bu yolla özündəki bütün mənfi sifətləri aradan qaldıra və layiq olduğu məqama yüksələ bilər.

Nəsimi insanı belə ülviləşdirir, ucaldır. Böyük şairə görə, "insan həm inci, həm sədəf, həm yaradıcı, həm qızılgül, həm də yasəməndir. Bütün gözəlliklər, varlıq, yer və göy ona xidmət üçün yaranıb".

Nəsimi sənəti bütövlükdə insan gözəlliyinə, insan qüdrətinə heyranlıqla doludur...

Onun şeirləri insan kamilliyinin himni kimi səslənir, bu məqama can atan insanı tərənnüm edir...

Bu misraların gözəlliyi, qüdrəti Yer üzündəki bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil kəslərə xasdır. Məhz buna görə şair kamil insanı “canımın cananəsi” adlandırır, ona səcdə etməyin vacibliyini göstərir. Kamil insanın gözəlliyinə səcdə etməyənlər, onun qarşısında heyranlıq hissi keçirməyənlər isə, şairin fikrincə, haqq yolundan azmışlardır. Ancaq şair onların da islahına çalışır, təlqinlərinin gücü ilə belələrini haqq yoluna gətirmək istəyir.

Bir qədər də Nəsiminin dili haqqında...

Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu İmadəddin Nəsiminin adını daşıyır. Bu, onun Azərbaycan ədəbi dil tarixinin inkişafındakı müstəsna rolu ilə bağlıdır.

Günü bu gün də istifadə etdiyimiz ədəbi dilimizin əsas lüğət fondunun Nəsimi yaradıcılığından başlandığını müxtəlif şəxslərdən eşitmişdim, ayrı-ayrı mənbələrdə də belə bir məqam rastıma çıxmışdı. İxtisasca dilçi olmadığımdan nələrdəsə yanıla bilərəm, amma bildiyim qədər rus dilçiliyində oxşar başlanğıc nöqtəsi Nəsimidən bir neçə əsr sonra yaşamış A.S.Puşkin hesab olunur.

Maraq güc gəldi, bu qeydləri qələmə alarkən ana dilimizin tarixi ilə bağlı bəzi mənbələrə baxdım.

İmadəddin Nəsimiyə qədər Azərbaycan dilində əsərlər yazan klassiklərimiz də, onların bizə gəlib çatan ədəbi əsərləri də, ana dilimizdə formalaşıb əsrlər boyu yaqut kimi cilalanmış şifahi xalq ədəbiyyatı nümunələrimiz də, bəli, xeyli çoxdur...

Amma iş orasındadır ki, Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrünün XIII-XIV əsrləri əhatə edən ilk mərhələsini məhz Nəsimi yaradıcılığı yekunlaşdırır. Məhz onun fəaliyyəti ilə Azərbaycan dili özünün tarixi gücünü, yaradıcılıq enerjisini bütünlüklə nümayiş etdirə bilir.

Bu həm də onunla bağlıdır ki, Nəsiminin yaradıcılığı müasirləri ilə müqayisədə bizə yetərincə geniş həcmdə gəlib çatıb. Şairin qəzəl, qəsidə, tuyuq və tərcibəndləri toplanmış divanlarının üzü dəfələrlə köçürülüb. Əsərlərinin əlyazma nüsxələri dünyanın müxtəlif kitabxanalarında yayılıb.

Beləliklə, şairin irsinin görkəmli tədqiqatçılarından olan Cahangir Qəhrəmanovun da qeyd etdiyi kimi, Nəsimi şeiriyyətdə bədii üslubda, fəlsəfi təfəkkürdə bir ənənə yaratdığı tək, dildə də ənənə yaradaraq özündən sonra gələn bütün sənətkarlara təsir göstərib.

O, ana dilimizin sabitləşməsində və inkişafında çox böyük rol oynayıb. Yaradıcılığında ədəbi dilə xas keyfiyyətlər formalaşdırıb. Xalq dili ilə özündən əvvəlki yazılı dil arasında mükəmməl bir vəhdət

yaradıb. Onların vahid ədəbi dil normasında birləşdirilməsinə nail olub. Ona görə Nəsiminin dili belə diridir, oynaqdır, ahəngdarlığı ilə canayatandır.

Əziz oxucu, hələ bu nümunəyə diqqət yetirək:

*Düşdü yenə dəli könül gözlərinin xəyalinə,*
*Kim nə bilür bu könlümün fikri nədir, xəyali nə.*
*Al ilə ala gözlərin aldadı aldı könlümü,*
*Alını gör nə al edər, kimsə irişməz alinə.*
*Gözlərinə əsir olan – halını oldu anlayan,*
*Kim ki bu halə düşmədi, qoy vara kəndü halinə...*

Fikir verin, nə qədər safdır, axıcıdır, sözlər inci-mirvari kimi bir-birinin ardınca qatarlanıb gedir. İstifadə etdiyi kəlmələr, deyimlər necə həyatidir, xalq dili zəmininə söykənir, xalq danışıq dilindən gəlir...

Belə nümunələri oxuyandan sonra xarici dilləri alayarımçıq öyrənib öz ana dilinə kəm baxanları, yeri gəldi-gəlmədi yad dillərdə qırıldadanları görəndə məzəmmət etmək istəyirsən ki, ay insafsız, XIV əsrdə bu cür dili olan, bu dildə anamızın laylası kimi gözəl, baldan şirin belə şeirlər yazmış şairə, şairlərə malik xalqın təmsilçisi də heç yad mədəniyyətlərə əl açarmı?!.

Bu mənada "Nəsimi ili" həm də Azərbaycan dilinin ilidir...

Bu dilin istisinə qızınan milyonlarla soydaşımızın ilidir...

Ulu öndər Heydər Əliyevin qədim tarixi təməl üzərində formalaşdırdığı və İlham Əliyevin daha da inkişaf etdirdiyi azərbaycançılıq ideyasının, multikultural dəyərlərin, tolerantlığın, mədəniyyətlərarası dialoqun ilidir...

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bütün dünyada təbliğ etdiyi milli-mənəvi dəyərlərimizin ilidir...

Və "Nəsimi ili" söz mülkünün bu qüdrətli sultanını dərindən anlamaq, anlayıb təlqinlərinə əməl etmək, əməl edib onun bələdçiliyi ilə kamilliyə doğru yola çıxmaq üçün bir fürsət ilidir...

İnsanın, dünyanın, kainatın qurtuluşu isə məhz belə fürsət anlarından başlanır...

İllər boyu beynimdən keçən bir fikir ötən il qəlbimə də iz saldı.

Nəsimidən yazmaq istədim...

Nəsiminin timsalında cahilliyə qarşı dirənişini azaltmayan kamilliyi, nadanlıq önündə çox vaxt sus-

durulan əsl insanlığı, mübarizliyi, dəyanəti qələmə almağa çalışdım...

Uzun dövrlər ərzində qalaqlanaraq yığılmış qeydlərimi ötən ilin oktyabrında bir masanın üstünə toplayaraq, onlardan bir povest ərsəyə gətirməyə anidən qərar verdim...

Bu ilin ilk günlərində bitirdim son əsərimi...

Və bir neçə gün sonra 2019-cu ilin Prezident tərəfindən "Nəsimi ili" elan edilməsini eşidəndə sevindim, çox sevindim...

Deməк, fəhmim imiş məni tələsdirən...

Yenə də anidən qələm dostum, ruh qardaşım Bəxtiyar Sadıqova telefon açdım. Mətləbi bildi, povesti dərhal istədi, bir neçə saata oxuyub bitirdi və qərarını da verdi: "Hüseynbala müəllim, bu povesti rəsmi dövlət qəzetində dərc edəcəyik. Qoy bu, sizinlə bizim "Nəsimi ili"nə töhfəmiz olsun"...

Çox məsud oldum. Və beləliklə əziz oxucularım hamımızın qəzetində – "Azərbaycan"da "Sonuncu səfər" povestimi hissə-hissə mütaliə imkanı əldə etdilər...

Əslində, qəhrəmanım şairlər şairi Seyid Əli İmadəddin Nəsimi deyil...

Onun iztirablarıdır, ağrılarıdır, öz vətənində təklənməsidir...

48 illik ömrün bitməyən məşəqqətlərini qısa bir dövr üçün – Nəsiminin Azərbaycana, Şamaxıya son səfəri müddətində rəmzləşdirdim...

Binəva Nəsimi, bədbəxt Nəsimi nə vaxt xoş gün gördü ki?!.

Amma ona qarşı ən böyük "cihadı" ilk olaraq özümüz başlatdıq, elə ən ağır zərbələri də özümüz vurduq...

Mən bundan yazdım, Nəsiminin şəxsində özümüzün özümüzə qənim kəsilməyimizdən və bu naqisliyin əsrlərdir davam etməsindən bəhs etdim...

Axı Hələbdə dərisi soyulan Nəsiminin hələ daha əvvəl burada – bu məmləkətdə ruhunu soymuşduq, qəlbini dilim-dilim etmişdik...

Bəlkə də bəlağətə varıram, amma düşüncəm budur ki, hər bir yazıçının, şairin qələmindəki mürəkkəbdə həm də Nəsiminin – onun sələflərinin və xələflərinin qanı axır...

Qoy bu qan daha ruhumuza, mənəviyyatımıza tökülüb çalın-çarpaz izlər buraxmasın, əksinə, vərəqlərə axıb ruhumuzu, mənəviyyatımızı saflaşdırsın, xəbislikdən arındırsın...

Nəsiminin istədiyi kimi insanlaşaq, kamilləşək, mənəvi vəhdətə çataq...


ARIf



# *Povest*

***Zülfünün sirri uzundur, halı çox,***
***Şol şəkər sözlü dodağın balı çox...***

***İmadəddin Nəsimi***

1409-cu ilin yazı idi. Şairlər şairi Seyid Əli İmadəddin Nəsimi ölkə-ölkə dolaşmaqdan – məscid, karvansara və xanəgahlarda gecələməkdən, dərviş, abid, imam, şair və səyyahlarla söhbət eləməkdən yorulub, doğma Şamaxıya qayıdırdı. O, artıq belə qərara gəlmişdi ki, ömrünün yerdə qalanını ata yurdunda – kiçik qardaşı Şahxəndanla bir yerdə keçirsin və Şahxəndan onun bu uzun illər ərzində yazdıqlarının üzünü köçürüb, səliqə-sahmana salsın.

Əvvəllər də qardaşının şeirlərinin üzünü köçürən, aparıb məscidlərə, mədrəsələrə paylayan, daha doğrusu, hədiyyə edən Şahxəndan hələ altı-yeddi yaşında ikən hüsnxətti və kitab cildləməyi öyrənmiş, bunun sayəsində də ruzi sahibi olmuşdu.

Şahxəndan Qurani-Kərimin üzünü tez-tez köçürdüyündən, altı min altı yüz altmış altı ayənin, yüz on dörd surənin tamamını əzbər bilirdi və buna görə də yaşının çox az olmasına baxmayaraq, imamlar, axundlar, mollalar arasında xüsusi hörmət-izzəti vardı. Hətta bəzən onu mötəbər dini məclislərə – mərasimlərə dəvət edirdilər.

Şairlər şairi Seyid Əli İmadəddin Nəsimi ilə Şahxəndanın ərdə olan iki bacısı da var idi. Bacılar növbə ilə ayda bir-iki dəfə gəlib, – həmişə də dolu boğça ilə – kiçik qardaşlarına – Şahxəndana baş çəkirdilər.

Şahxəndanın gündəlik qulluğunu isə qonşuları

Gülnaz xala görürdü və halallıq olsun deyə, bunun üçün ayda iki dinar əməkhaqqı alırdı – bayram hədiyyələri-filan buna daxil deyildi...

Günortaüstü Şamaxının moza-moza, dirədöymə, qaçdı-tutdu, gizlənqaç, çilingağac oynayan, yumurta döyüşdürən bütün uşaqları Şahxəndangilin evinin qabağına yığışdılar və başladılar bir ağızdan qışqırmağa:

– Muştuluğumuzu ver, qardaşın gəldi!

Təbii ki, Şahxəndan hədsiz dərəcədə fərəhləndi, sevincək oldu – açdı səxavət kisəsinin ağzını, kiminə kişmiş, kiminə nabat, kiminə tut qurusu, kiminə də ərik, alma, armud qaxı verdi.

İldə iki dəfə ata minib, gah məğribə, gah məşriqə üz tutan, üsyankar fikirləri ucbatından ruhu daim təlatümlər içində olan, getdiyi hər yerdə əqidəsini – hürufiliyi təbliğ edən şairlər şairi Seyid Əli İmaməddin Nəsiminin gözlənilmədən ata ocağına belə tez qayıtması Şahxəndanın qəlbində bir ümid qığılcımı yandırdı: “Kim bilir, bəlkə daşı ətəyindən töküb evlənəcək? Yaşı qırxı haqlayır – nə vaxta qədər subay qalacaq?”

Məsələ burasındadır ki, Seyid Əli hələ mədrəsədə oxuyarkən Hüsniyyə adında bir qıza aşiq olmuşdu, amma uzaqdan-uzağa, gizlin. Qəlbini aça, eşqini dilə gətirə bilməyən şair öz şeirlərində sevgilisini

vəsf edir, ah çəkir, fəryad qoparır, hicr odunda alışıb yanırdı. Amma çox çəkmir ki, onun ülvi eşqlə süslənən könül bağçasını xəzan vurur...

Seyid Əlinin məhəbbətindən bixəbər olan Hüsniyyə on altı yaşında ikən valideynləri tərəfindən mədrəsədən uzaqlaşdırılır, qəti istəməsə də, zorla bir müsəllimə ərə verilir. Amma o, Seyid Əlinin qəlbində elə kök salır, elə fəsli-yaz yaradır ki, daha orada bir başqası üçün yer qalmır. Şairin bütün fikri-zikri, xəyalı və xoşbəxtliyi məhz bu sevgi ilə pərvəriş tapır.

Seyid Əli fikirləşir ki, eşq də şairlik kimi bir xəstəlik, bir mərəzdir. Amma nə etmək olar, bir xəstəlik, bir mərəz olsa da, xoşdur.

Seyid Əliyə gəncliyindən üzü bəri çox qənirsiz gözəllər aşiq olmuşdu. Amma onların heç biri Hüsniyyənin gündən-günə güclənən həsrətini qəlbindən silə bilməmişdi...

Ölkələr fəth etmiş Əmir Teymurun 1405-ci ilin fevralında qəflətən vəfat etməsi ilə Yaxın Şərqə, eləcə də Ön Asiyaya qəribə bir sakitlik çökdü. Bunu taleyin lütfü və töhfəsi kimi qəbul edən ölkələr, səltənətlər yavaş-yavaş dirçəlməyə başladılar.

İlk özünə gələnlərdən biri Bahar tayfasından olan və uzun illərdən bəri Misirdə zindanda yatan Qara Yusif oldu.

Misir Sultanı, Əmir Teymurun ölüm xəbərini alan kimi Qara Yusifi zindandan azad edib, ona ənam kimi bir kisə qızıl, bir at və bir bələdçi verib dedi:

– Azadsan, get yurdunda öz taxt-tacına sahib ol!

Uzun illərdən bəri zindanda əli-qolu bağlı olan Qara Yusif atın belinə sıçrayıb, məmlük sultanına dedi:

– Sizi əmin edirəm ki, həyatımı bağışladığınıza görə heç vaxt peşman olmayacaqsınız. Çünki inanmıram Əmir Teymurdan və Toxtamışdan sonra kimsə mənim qolumu qatlaya bilsin.

Məmlük sultanı onun bu sözlərinə gülüb dedi:

– Bəs teymurilər, cəlairlər? Sən hələ ki, təksən, onların isə Təbrizdə hazır vəziyyətdə dayanmış böyük orduları var.

Qara Yusif əlini yuxarı qaldırıb dedi:

– Sultan həzrətləri, əgər başda ağıl, qolda güc, ürəkdə təpər varsa, ordu da olacaq, zəfər də. Sağ olun! Bir gün sizi qonaq çağırsam, yəqin ki, gələrsiniz.

Məmlük sultanı atını güclə ram edən Qara Yusifin bu sözlərinə də güldü:

– Çətin, ərəbləri bircə gün özbaşlarına qoysam, Allah bilir, nə hoqqalardan çıxarlar...

Qara Yusif həm cismən, həm də ruhən bərk yorulmuşdu. Odur ki, hələ bir müddət Misirdə qalmaq, dincəlmək istəyirdi. O, gündüzlər qızmar qum üstündə dəmlənmiş qəhvə içir, dəvə güləşlərinə baxır, günortalar dupduru suları gün işığında bərq vuran çarhovuzların kənarında, sərv ağaclarının kölgəsində mürgü döyür, axşamlar yarıçılpaq rəqqasələrin məclislərində eyş-işrətlə məşğul olur, bununla da havasız, qaranlıq zindanın daş döşəməsində sağ böyrü ağrıyanda sol böyrü, sol böyrü ağrıyanda sağ böyrü üstə yatdığı günlərin ağrı-acısını canından çıxarırdı...

Falçıların söylədikləri xoş sözlərə, rəmmalların vəd etdikləri qələbələrə baxmayaraq, Qara Yusif Təbrizə, elə-belə, tez-tələsik – hazırlıqsız getmək istəmirdi. Odur ki, Misir sultanının hədiyyə etdiyi qızıldan bir qədər verib, yeddi çapar tutdu və dedi:

– Hərəniz bir səmtdən Azərbaycana girəcək, kənd-kənd, şəhər-şəhər dolaşıb, əhaliyə çatdıracaqsınız ki, Qara Yusif zindandan çıxıb, artıq yoldadır, gəlir, pişvazına hazırlaşın!

Çaparların ardınca Qara Yusif özü də yola çıxdı. Hər yerdə macəra axtaranlar, igidlik eşqinə düşənlər, şan-şöhrət sahibi olmağı arzulayanlar ona qoşulur, sədaqətli olacaqlarına, son damla qanlarınadək vuruşacaqlarına and içirdilər. Qara Yusif Naxçıvan civarına gəlib çatanda, yanında ən azı, əlli min döyüşçü

vardı, hamısı da silahlı. Əmir Teymurun ölümündən sonra Təbrizdə özünü tam sərbəst hiss edən və əsl hakimiyyətin tamını dadan Əbu Səid Araz çayının qırağında Qara Yusifin qabağını kəsdi, amma nədənsə, dərhal döyüşə girməyə lüzum görmədi və qəfil, gözlənilmədən peyda olmuş "rəqibinə" belə bir namə göndərdi: "Hər dəfə sədaqət və etibardan dəm vuran Misir sultanı başından böyük bir qələt eləyib səni zindandan buraxıb, buna görə layiq olduğu cəzanı alacaqdır. Sən isə, təslim ol, nə fərqi, Qahirə, yaxud Təbriz zindanı?"

Əbu Səidin göndərdiyi namə Qara Yusifi qəzəbləndirdi, elçinin boynunu dərhal vurdurdu və qoşunun önünə gəlib, əlini düşmən tərəfə uzatdı:

– Bu sarsaq elə bilir ki, atasının -Əmir Teymurun ruhu və şücaəti də ona miras qalıb!

Qara Yusif bu sözləri deyəndən sonra atını elə dəhmərlədi ki, sanki yaydan ox çıxdı! Teymurilər üstlərinə şimşək kimi şığıyıb gələn  Qara Yusifin yenilməz döyüşçülərinin qarşısında tab gətirməyib, geri çəkildilər – sanki onların atdıqları oxlar ya boşa çıxır, ya da daşa dəyirdi. Nəticədə, Əmir Teymurun ölümündən sonra girdiyi ilk döyüşdəcə məğlub olan Əbu Səidin meyiti belə tapılmadı.

Amma Qara Yusif hətta bu ildırım  sürətli möhtəşəm qələbədən sonra da Təbrizə yürüş etmədi. Səbirli və təmkinli olmağa çalışdı. Çünki xəfiyyələ-

ri xəbər gətirmişdilər ki, Miranşaha məxsus ordu birlikləri şəhərin ətrafında bərqərar olublar, – indi ora quş quşluğu ilə səkə bilməz. Odur ki, Qara Yusif – Qaraqoyunlular sülaləsinin yeni doğan günəşi belə qərara gəldi ki, qələbə çalaçağına tam əmin olmayanacan yerindən tərpənməsin və həlledici döyüş üçün hərtərəfli hazırlıq görsün...

Bax, elə həmin dövrdə Azərbaycanın iftixarı – şairlər şairi Seyid Əli İmadəddin Nəsimi yüklü bir dəvənin belində Şamaxıya gəldi. Şahxəndan qardaşını şəhərin lap girəcəyində qarşıladı.

Şairlər şairi dəvədən enib, qardaşını qucaqladı, üzündən öpdü:

– Maşallah, – dedi, – böyümüsən. Boyun artdığı kimi, ağlın da artıbsa...

Şahxəndan güldü:

– Dadaş, vallah, boyumun da, ağlımın da artdığını özüm hiss eləmirəm. Bunu sən bilərsən.

Seyid Əli zəndlə qardaşının üzünə baxdı:

– Artıb, artıb, Şahxəndan, görürəm... -dedi və qəfildən soruşdu:

– Yaxşı, de görüm, indi Təbrizdə şah kimdir?

Sevindiyindən ağlamağı ilə gülməyi bir-birinə qarışmış Şahxəndan dedi:

– Dadaş, bir evimizə  çataq, ondan sonra soruş da. Nəyinə lazımdı kimdir şah?

– Balası, necə nəyimə lazımdı? Bax, şahın bığı aşağı sallanıbsa, bütün kişilərin bığı aşağı sallanacaq, yox, əgər şahın bığı şeş dayanıbsa, bütün kişilərin bığı şeş dayanacaq. Yəni, ölkədə hamının bığının necə olması bir adamın bığının necə olmasından aslıdır. Başa düşdün?

– Başa düşdüm.

– Lap yaxşı. İndi de görüm, Təbrizdə şah kimdir?

– Heç kim.

– Neçə yəni heç kim?

– Qara Yusiflə Miranşah neçə gündü öz aralarında müharibə eləyirlər. Hansı qalib gələcək, bilinmir.

– Hə, demək, bığın vəziyyəti qeyri-müəyyəndir.

Hər ikisi güldü.

Seyid Əli bu dəfə qardaşını lap bərk qucaqladı, elə bərk qucaqladı ki, araqçını sürüşüb başından yerə düşdü və o, fərəhindən qəşş elədi.

Onlar darvazanı açıb içəri girəndə, it çoxdan ayrıldığı sahibini– Seyid Əlini görəndə, sevindiyindən atılıb-düşdü, quyruğunu  buladı və ilk dəfə gördüyü dəvəyə sarı bir-iki  ağız hürdü...

Seyid Əli üzünü Şahxəndana tutub dedi:

– Balası, sən dəvənin yükünü boşalt, mən də həyətimizə bir göz gəzdirim. Görüm ağaclarımızdan quruyanı yoxdu ki?

Şahxəndan dəvənin yükünü boşaltmağa başladı – rəngbərəng saplarla toxunmuş heybələrdə nələr yox idi... O, içi ləl-cəvahiratla dolu, ağır pul kisəsini Seyid Əliyə göstərib dedi:

– Çöl-biyaban, quldur-qacaqla, yol kəsənlə doludu, nə əcəb, heybəndə bu cür qiymətli şey-şüy ola-ola, sənə dəyib dolaşmırlar?

– Hə, balası, bax, bu sirdi. İstəyirsən açım?

Şahxəndan maraqla qardaşının üzünə baxdı və dedi:

– Aç.

– Deməli, gördüyün bu ləl-cəvahiratların hamısını mənə elə o quldur-qaçaqların, yolkəsənlərin özləri bağışlayıblar. Bəndəyi-həqirinizi...

Şahxəndan özünü itirdi:

– Əstəğfürullah, dadaş...

Seyid Əli sözünə davam etdi:

– Hə, bəndəyi-həqirinizi uzaqdan görən kimi ağız-ağıza verib qışqırırlar: Şairə ənam! Şairə ənam!

– Sən də o haram ənamları dədə malı kimi cibinə qoyub, sağa-sola xərcləyirsən...

– Səhvin var, balası. Mən o bəxşişləri əsl sahiblərinə – onları hardan və necə tapa bilərəm ki...– qaytara bilməsəm də, ehtiyacı olanlara – fəqir-füqəralara paylayaram. Bunları da birtəhər artırıb, Şamaxı kasıb-kusublarına gətirmişəm, pay-püş elə getsin, şahın gözündən iraq.

Hər ikisi qəşş eləyib güldü. Seyid Əli dedi:

– İstəyirsən, sənə bir sirr də açım.

Şahxəndan dərhal cavab verdi:

– Aç, dadaş, aç!

– Bu yolkəsənlər, quldur-qaçaqlar bilirsən şeiri necə xoşlayırlar?

– Boy? Zarafat eləyirsən?

– Yox, həqiqi sözümdü. Elə ki, yaxanı ələ verdin, əl çəkmirlər. “Şair, birini də oxu! Şair, birini də oxu! Şair, birini də oxu!”

– Sən də oxuyursan?

– Oxuyuram.

– Maraqlıdır, sənin oxuduğun şeirlər onlara neçə təsir eləyir?

– Vallah, hərəsinə bir cür, biri ağlayır, gözündən bıldır-bıldır yaş tökür, biri də elə hey gülür, gülür,

gülür, di gəl, baş aç... Bir dəfə, içlərində biri vardı, mənə dedi ki, təkcə sən həqiqəti yazırsan. Soruşdum ki, axı, nədən bilirsən? Dedi, bax, sən yazırsan ki:

*Məndə sığar iki cahan,*
*Mən bu cahana sığmazam.*

– Doğrudan da, belədir. Bu gün gündoğandasansa, sabah günbatandasan, bu gün güneydəsənsə, sabah quzeydəsən. Bir yerdə durmursan ki!

Hər ikisi yenə qəşş eləyib güldü. Seyid Əli dedi:

– Eh, balası, onların yolkəsənliklərinə baxma, qəlblərinin dərinliyində o qədər munis duyğular var ki! Şah olsam, onları bircə gündə haqq yoluna gətirərəm. Nə isə... Həyətimizə pis baxmamısan. Görürəm, təzə ağaclar da əkmisən. Qızılgüllər daha çox xoşuma gəldi. Bu il olmasa da, gələn il açacaqlar.

– Birinin üstündə düymə var.

– Gözümə dəymədi, axı...

– Yarpağın altında gizlənib...

– Nədi, naz eləyir?

– Bəlkə də...

– Yəqin, qəmzəli gül olacaq...

– Onu sən yaxşı bilərsən, dadaş.

Seyid Əli söhbəti dəyişdi:

– Balası, mən uzaq yoldan gəlmişəm. Acam, Şamaxının da ləziz xörəklərindən ötrü burnumun ucu göynəyir.

Şahxəndan dedi:

– Gülnaz xala bir az bundan qabaq turşu-kabab bişirib. Gətirimmi?

– Gətir balası, gətir.

Şahxəndan eyvanda süfrə açdı. Balaca qazançadakı turşu-kababı iki qaba çəkdi, nimçəyə göy-göyərti qoydu, piyalələrə şərbət süzdü. Sonra qardaşlar "bismillah" – deyib əllərini çörəyə uzatdılar.

Seyid Əli çoxdan yemədiyi turşu-kababın dadına baxa-baxa dedi:

– Hə, deyirsən Qara Yusiflə Miranşah -biri Təbrizdə, biri də Naxçıvanda şöngüyüb, bir-birlərinə mırıldayırlar?

Şahxəndan qaşlarını dartdı və elə bil gözləri də bir balaca böyüdü:

– Dadaş, bunu mən yox, sən deyirsən ha!

Seyid Əli yüngülcə qımışdı:

– Balası, qorxdun?

– Bəs necə?! Mən Seyid Əli İmaməddin Nəsimi

deyiləm ki, qorxmayıb, ağlıma gələn hər şeyi danışam. Şamaxıda divarların da qulağı var.

Seyid Əli ciddi görkəm alıb, dedi:

– Düz deyirsən, balası, dünya dəyişib, elə bil bu camaatın hamısı gözünü açandan Şirvanşahlara casusluq edir.

O, ağzını dəsmalla silib, dua etdikdən sonra şərbət dolu piyaləni başına çəkdi.

Şahxəndan, qardaşının turşu-kababı böyük iştaha ilə yeməsinə, üstündən də şərbət dolu iri piyaləni birnəfəsə başına çəkməsinə baxanda, nədənsə, möhkəm kövrəldi və qeyri-ixtiyari öz-özünə pıçıldadı: "Allah heç kəsə qürbət nəsib etməsin".

Seyid Əli ayağa qalxıb dedi:

– Hə, indi süfrəni yığışdır, dəvənin də hörüyünü dəyiş, qabağına da bir az su qoy, sonra gəl, danış görüm, mən burda olmayanda Şirvanda nələr baş verib?

Şahxəndan birdən:

– Vay-vay... Sənə qəhvə dəmləmişəm, yəqin daşdı – deyib, ocağa sarı qaçdı. Qəhvədanı götürüb, geri qayıtdı. Qəhvə qaynamamışdı, lap içməli idi.

Şahxəndan qəhvə dolu piyaləni pəncərənin önündəki taxçanın üstünə qoydu:

– Dadaş, sən bala-bala iç, mən də süfrəni yığışdırıb, dəvəni yerbəyer eləyib gəlim...

Seyid Əli köpüyü yavaş-yavaş yatan qəhvəyə baxa-baxa nədənsə, gözünün ilk ovunu – Hüsniyyəni, onun bulaqdan səhənglə necə su daşıdığını, uzun, incə hörüklərinə necə lalə taxdığını, oğrun-oğrun necə güldüyünü xatırladı və bağrının başında xoş bir sızıltı duydu...

Elə bu vaxt Şahxəndan içəri girdi:

– Hə, dadaş, dəvən yatıb, yəni, gözünü yumub, amma çənəsi dəyirman daşı kimi işləyir, görünür,-yoncanın dadı xoşuna gəlib...

Seyid Əli güldü:

-Şahxəndan, balası, mənim  dəvəmlə işin olmasın, sən Şirvandan danış, Şirvandan.

-Dadaş, Şirvandan nə danışım ey, bizim bu İbrahim şah başını lap itirib...Bir gözü Təbrizdədir, bir gözü də Naxçıvanda...

Seyid Əli sağına-soluna baxıb dedi:

– Balası, bax, bunu sən deyirsən ha!

Hər ikisi qəşş eləyib güldü.

– Balası, sən nə danışırsan? Eşidən-bilən olsa, gülər. Adamın da iki ağası olar?





– Canın haqqı düz deyirsən. Bunu cəmi Şamaxı bilir.

– Onda İbrahim şah hörmətdən düşər ki?

– Düşüb də...

– Belə şeyləri mənim dəvəm yaxşı bilir, yuxudan duranda soruşarıq. Amma deyim ki, İbrahim şah çox təhlükəli oyun oynayır, Miranşahın xəfiyyəsi gedib Təbrizdə deyəcək ki, İbrahim şah Qara Yusifə xərac göndərir, Qara Yusifin də xəfiyyəsi gedib Naxçıvanda deyəcək ki, bu həpənd oğlu həpənd Təbrizə xərac göndərir, yəni, İbrahim şah həm nala vurur, həm mıxa, axırda da öz əlinə. Səfeh işdi.

Nəhayət, bayaqdan bəri qardaşını səbirlə dinləyən Şahxəndan necə oldusa, hövsələdən çıxdı:

– Vallah, dadaş, məni nə Miranşah maraqlandırır, nə Qara Yusif, nə də İbrahim şah. De görüm ta bu dəfə evlənəcəksən, yoxsa elə özündən uydurduğun gözəllərə qəzəl yaza-yaza duracaqsan? Daha bəsdi – o, böyük adamlar kimi qardaşını məzəmmət etməyə başladı, – daşı ətəyindən tök, heç bilirsən camaat arxanca nə danışır?

Seyid Əli təəccüblə soruşdu:

– Nə danışır?

– Deyirlər ki, guya sən səfərlərdə türk, ərəb

qızları ilə o qədər eşqbazlıq edirsən ki, Şamaxıya qayıdanda evlənməyə gücün qalmır.

– Yəni, elə belə deyirlər?

– Bəli.

Seyid Əli ürəkdən güldü və dedi:

– Balası, necə ki, söz vermişəm, Hüsniyyədən başqa bir kimsə ilə evlənməyəcəyəm.

Şahxəndan, elə bil, bu sözə bənd idi, açdı sandığı, tökdü pambığı:

– Dadaş, heç bilirsən səndən sonra nələr olub?

Seyid Əli qorxdu, təşviş içində soruşdu:

– Nə olub? Yoxsa...

– Yox, deməyəcəyəm. Muştuluğumu ver, sonra...

Seyid Əli ciddi görkəm alıb, bir qədər sərt şəkildə dedi:

– Muştuluq... Nə muştuluq? – Sonra əlini cibinə salıb bir dinar çıxartdı və Şahxəndana dedi:

– Balası, tez ol, de görüm, Hüsniyyəyə nə olub?

Şahxəndan məzə üçün pulu dişi ilə yoxladı, sonra məmnun halda cibinə qoydu və başını yırğalaya-yırğalaya dedi:

– Uzun həngamədi, amma yenə də danışım: deməli, Hüsniyyənin əri – müsəllim Əbubəkr İsma-

iliyyə təriqətinə qulluq edən iki nəfərin ölümünə fətva vermişdi. Hökm həm Şirvanşah, həm də qazı tərəfdən təsdiq olundu. Həmin ismaililər də, təbii ki, bundan sonra dar ağacından asıldılar.

Seyid Əli möhkəm əsəbiləşdi:

– Şahxəndan, cəhənnəm olsun Şirvanşah da, qazı da, Əbubəkr də, ismaililər də, hələ desən, dar ağacı da. Sən mətləb üstünə gəl, de görüm, Hüsniyyəyə nə olub?

Şahxəndan olanları bütün təfərrüatı ilə, yəni yerli-yataqlı danışmaq istəyirdi. Odur ki, dedi:

– Darıxma, dadaş, bir az hövsələli ol, yoxsa karıxacağam. Deməli, qətldən bir ay sonra Dağıstandan bir dəstə atlı gəlib Dəvəçilərdə müsəllim Əbubəkrin evinə od vurur, özünü də, əvvəlki arvaddan olan uşaqlarını da yandırır.

– Bəs Hüsniyyə?!

– Hüsniyyə özündən gedir. Elə bilirlər ki, ölüb, toxunmurlar. Ara sakitləşəndə Səlminaz...

– Hansı Səlminaz?

– Hüsniyyənin dul rəfiqəsi... Hüsniyyəni götürüb evinə aparır. Hüsniyyə indi də elə onun yanında qalır.

– Belə de... Belə de... Kədərli hadisədir... Yaxşı, balaca hiyləgər, bu muştuluğu məndən niyə aldın?

– Necə niyə aldım? Hüsniyyə ki sağ qalıb... Bu şad xəbərə muştuluq düşmür?

– Bunu düz deyirsən, düşür, düşür, hələ bir dinar azdı...

– Onda bir dinar da ver! Xəsislik eləmə! Heç bilirsən, sənin muştuluq xəbərini gətirənlərə neçə dinarlıq ayın-oyun verdim?

– Bilirəm, balası, bilirəm.

Sonra Seyid Əli birdən nəyisə xatırlayıb ayağa qalxdı:

– Sabah cümə axşamıdı?

– Hə. Nədi ki?

– Qəbir üstə gedərik. Ata-anamıza, dünyadan cəmi köçənlərimizə Yasin oxutdurarıq.

– Gedərik, gedərik... Bir bura bax...

– Nə olub?

– Gör, küçədən kim keçir...

Seyid Əli pəncərəyə yaxınlaşan kimi küçədən keçən adamı tanıdı – bu, mədrəsədə onunla bir sinifdə oxuyan, hamıya qan udduran Kafiəddin idi. Belində yekə bir səhəng: "Ay ayran istəyən, ay sərin ayran istəyən" deyə çağırırdı. Allahın işinə bax, yeriyəndə yeri titrədən, tay-tuşları nədi, onlardan da

böyüklərə dov gələn Kafiəddin indi ayran səhəngi-nin altında ikiqat olmuşdu.

Seyid Əli Şahxəndana dedi:

– Amma səsi əvvəlki kimi qalıb ha...

– Cəsarəti, kişiliyi isə yox...

– Niyə elə deyirsən?

– Arvadından qorxur, özü də bilirsən necə? Nə qazanırsa, aparıb qoyur ovcuna. Bəlkə çağırım, ayran gətirsin?

– Lazım deyil, utanar.

– Əksinə, sevinər. Təki pul çıxsın.

– Yaxşı, sən də şişirtmə, utanar.

– Onda utanan sifət?

– Dedim ki, lazım deyil. Mən bir yenə həyətə düşüm. Bayaq bir az ayaqüstü oldu.

Seyid Əli itburnu kollarının arasından keçib hündür, qol-budaqlı bir ağacın yanında dayandı:

– Salam, mənim gilasım, maşallah, böyümüsən, budaqların göy üzünü bürüyüb. – Sonra o, bir başqa ağacın bilək yoğunluğunda saf gövdəsinə toxundu: – Bu badamı, yadıma gəlir, bir neçə il bundan əvvəl əkmişdim, uzanıb, mənim hesabıma görə, üzü payıza bar verməlidir, yaxşı da çiçəkləyib, külək lap yarısını töksün, yarısı ki qalacaq, bəsimizdir. Bu da

qoz ağacı. Şahxəndan kimi heç cür boy atmaq istəmir. Nəyin çatmır? Torpağın, suyun, havan, günəşin, üstəlik, qulluq eləyənin, nazınla oynayanın... Bəs dərdin nədi? Bəlkə əlavə nəsə istəyirsən? Pis başlamamışdın, niyə yolda ilişib qaldın? Yəqin, kökün gedib daşa dirənib, eybi yoxdur, yoxlayarıq...

Seyid Əli başını ağac-uğacla nə qədər qatmaq istəsə də, fikri-zikri, xəyalı dünya gözəli Hüsniyyənin yanında idi. Görəsən, o, indi nə edir? Bilirmi ki, bax, bu dəm onu düşünən, xəyalından keçirən və düşündükcə, xəyalından keçirdikcə yanıb-yaxılan, ürəyi şam kimi əriyən bir biçarə, bir binəva var və bu biçarə, bu binəva nə edəcəyini bilmir, qərarsızdı...

Şahxəndan eyvanda dayanıb, qardaşının ağaclara dediyi sözlərə qulaq asa-asa başını bulayırdı, çünki o da yaxşı bilirdi ki, ağac boş söhbətdi, qardaşının dərd-səri  Hüsniyyədir...

Yay günü uzandıqca elə hey  uzanırdı. Sanki günəş göy qübbəsini heç cür tərk etmək  istəmirdi. Dağlardan yaxınlaşmaqda olan axşamın ilk sərin mehi əsib gəlirdi.

Seyid Əli eyvanda, iri qədimi taxtın üstündə uzanmışdı. Gəzdiyi ölkələr, gecələdiyi məscid, karvansara və xanəgahlar, söhbət elədiyi dərviş, abid,

imam, şair və səyyahlar gözləri önündən çəkilmir, səslər, xüsusilə də dəvələrin boynundan asılmış zınqırovların ahəngdar səsləri qulaqlarından getmək bilmirdi. Pirdirəki dağlarının sərin küləyi, küçəni başına götürmüş mal-qara səsi, itlərin ağız-ağıza verib hürüşməsi, atların kişnərtisi necə də tanış və doğma idi. O, bu iki-üç illik ayrılıqdan sonra yenə Şamaxıda – böyüyüb boya-başa çatdığı doğma evlərində, qardaşının yanında idi. Bu iki-üç ildə qardaşı onun divanının üzünü bir neçə nüsxə köçürüb, möhkəm dəri ilə cildləmişdi, yəni, böyük iş görmüşdü – indi o cildləri saraylara və məscidlərə hədiyyə etmək olardı.

Seyid Əli yumşaq yorğan-döşəkdə xumarlandıqca yol yorğunluğu ayaqlarından süzülüb gedir, günlərlə at və yaxud dəvə üstündə oturmaqdan ağrıyan əzaları, sızım-sızım sızıldayan sümükləri rahatlıq tapırdı...

Şahxəndan qardaşı üçün sacda badam qovururdu – istəyirdi ki, isti-isti dadına baxsın. Lakin o, Seyid Əlinin yatdığını görüb, oyatmağa qıymadı.

Səs-küylü Şamaxı gecəsinin parlaq ulduzları səmada nəhəng bir ocaq çatmışdı və sanki bu ocağın qızmar közləri hərdən çırthaçırt yerə tökülürdü. İki qardaş – Seyid Əli və Şahxəndan açıq eyvanda

bir-birinin yanında dünyadan xəbərsiz halda yatırdılar. Həmişəki kimi, həyətin keşiyini çəkmək küçük vaxtından burada böyümüş Qaçalana etibar edilmişdi. O, qonşuluqdakı itlərlə ağız-ağıza verib fasiləsiz hürür, bununla da yatmadığını, işində ayıq-sayıq olduğunu göstərirdi.

Gecənin bir aləmində taqqıltı səsi eşidildi. Şahxəndan tez gözlərini açdı: “Yenə başladılar”... Sonra bir dəfə də taqqıltı səsi eşidildi... sonra bir dəfə də... sonra bir dəfə də...

Şahxəndan ah çəkib, başını buladı. Qonşu uşaqları, hər gecə olduğu kimi, yenə də evlərini daşa basırdılar. İncəvara, daşlar xırda idi, kirəmiti sındırmırdı, amma səsləri, az qala, adamı dəli edirdi.

Şahxəndan yerinin içində oturub, şirin-şirin yatan qardaşına baxırdı.

Evlərinin daşa basılması təzə hadisə deyildi. Artıq neçə müddət idi ki, məhəllə uşaqları nəinki gecələr, hətta gündüzlər də onu rahat buraxmır, “kafir”, “kafirin qardaşı” deyib şataşır, hətta təklikdə yaxalayanda döymək də istəyirdilər. Səbəb isə, əlbəttə, qardaşının yazdığı şeirlər idi. Qəribədir, bu qəzəllər, qəsidələr, qitələr onların həm çörəyi, həm də qınaq yeri idi. Əslində, Seyid Əli Şamaxıda Nəiminin şagirdi kimi tanınandan – “İmadəddin Nəsimi” olandan sonra bu düşməncilik başlamışdı və arxasında Qulam Əli, Rəşid Yaqubi, Bəhluli,

Qaim Şirvani, Əhməd Kəsirəddin kimi Şirvan şairləri dayanırdı. Onlar hər yerdə Seyid Əli haqqında cürbəcür şayiələr yayır, ona həcvlər yazır, şeirlərini təhrif edib, pis yerə yozurdular. Hətta İbrahim şaha, qazı Əbdülvahaba mənzum məktub yazıb "kafirlər kafiri"nin – Seyid Əli İmadəddin Nəsimini belə adlandırırdılar – cəzalandırılmasını tələb edirdilər. Xoşbəxtlikdən, nə İbrahim şah, nə də qazı Əbdülvahab onların bu qərəzli ittihamlarına məhəl qoyur, əksinə, dahi şairi hər yerdə tərifləyir, ən mötəbər məclislərinə dəvət edir və mükafatlandırırdılar.

Seyid Əli ilin çox vaxtını Bakıda, Təbrizdə, Hələb və Bağdadda olduğundan bu tənə və hədələrin ziyanı ən çox kiçik qardaşa – Şahxəndana dəyirdi. O isə dözür, dözür, dözürdü...

Doğrudur, "bu balaca müdrik"in şəhərin Abdallar, Xalçaçılar, Misgərlər məhəllələrində xeyli qohum-əqrəbası – simsarı vardı, amma onları bu mənasız münaqişəyə cəlb eləmək ağlının ucundan belə keçmirdi. Elə təkcə dəmbəgöz, hirsli, qəzəbli, heç vaxt at belindən düşməyən dayısı sərbaz Xeyrəddin bəs idi ki, hamını susdursun. Amma Şahxəndan heç vaxt ona ağız açmamışdı.

Bir azdan, axır ki, kirəmitləri döyəcləyən "daş yağışı" ara verdi və Şahxəndan da, Seyid Əli kimi,

dərin yuxuya getdi. Doğrudur, daş səsləri kəsiləndən sonra da Qaçalan yaramaz uşaqların qarasınca bir xeyli hürdü, lakin bu, div kimi yatmış qardaşların yuxusuna xələl gətirmədi...

Səhər Şahxəndan yuxudan oyananda Seyid Əlinin yerində olmadığını görüb xeyli təəccübləndi. O, elə düşünmüşdü ki, yol yorğunu olmuş qardaşı ən azı günortaya qədər yatacaq. Ancaq şairlər şairi, həmişəki kimi, sübh tezdən qalxmışdı. Hələ uşaqlığından onda belə bir xüsusiyyət vardı: başını yerə atan kimi yuxuya gedirdi, bir də, tez yatıb, tez dururdu. Ən rahat yatdığı yataq isə, əlbəttə, ana yadigarı doğma yorğan-döşək idi...

O, Şahxəndan hələ yuxuda ikən qalxıb yaxınlıqdakı "Bədəvilər bazarı"na getmiş, yaxşı bal, qaymaq, təzə isti çörək almış, qayıdanda isə dəvəni, toyuq-cücəni açıb həyətə buraxmışdı.

Şahxəndan qalxıb paltarını geyindi, sonra qardaşının özü ilə gətirdiyi şeir dəftərini götürüb həyətə düşdü və toxtaq səslə dedi:

– Dadaş, bəzi qəzəllərin heç xoşuma gəlmir. Odur ki, üzünü köçürməyəcəyəm.

Seyid Əli qaşlarını çatdı və sual dolu baxışlarla qardaşının üzünə baxdı.

Şahxəndan bu baxışlara cavab verirmiş kimi dedi:

– Bax, iki qəzəl yazmısan, ikisi də eynilə bir-birinə bənzəyir.

Seyid Əli soruşdu:

– Hanı? Göstər görüm...

Şairlər şairi suçiləyəni əlindən yerə qoyub, şeir yazılmış vərəqələri aldı:

– Hə, yaxşı tutmusan, oxşarlıqları var, amma fərqləri də çoxdur. Sən ikisinin də üzünü köçür.

– Yox ey, dadaş, bax bunun üzünü köçürəcəyəm, həm yığcamdır, həm də təmiz türkcədir. Elə ki misraları ərəb, fars sözləri ilə doldurursan, az qalıram şeiri hirsimdən cırıb atım. Axı camaatın başa düşmədiyi şeyi yazmağın nə  mənası var?

– Balası, – şairlər şairi çox ciddi tərzdə dedi. – Yaxşı ki, sən köçürdüyünü gözüyumulu köçürmürsən.  Çünki mənim xəttimdə də səhv çox olur. Vacibdir ki, mütləq düzəldəsən. Amma fikrə toxunma, qoy neçə varsa, elə qalsın, hətta  xoşuna gəlməsə də. Adamlar cürbəcür olduğu kimi, zövqlər də cürbəcürdür. Sənin xoşuna  gəlməyən bir başqasının xoşuna gələ bilər.

Böyük qardaşının dediklərinə baxmayaraq,

Şahxəndan bir-birinə bənzəyən şeirlərdən birinin üzünü köçürüb, o birini döşəkçənin altında gizlətdi.

Seyid Əli əl-üzünü yuyub quruladıqdan sonra pilləkənin üstündə oturdu:

– Yaxşı, balası, o bir-birinə bənzəyən şeirləri bir oxu görüm...

Şahxəndan evə girib xoşuna gəlməyən şeiri döşəkcənin altından çıxartdı, xoşuna gələn şeiri isə bir dəfə oxumaqla artıq əzbər bilirdi. O, əvvəlcə bəyənmədiyi şeiri oxudu:

*Vəslinə kim ki irmədi, dərdü əzab içindədir,*
*Ləlini kim ki sormadı, təşnə sərab içindədir.*

*Könlüm içində surətin can kimi qılmışam yerin,*
*Cövrəi-küntü nənzi gör kim nə xərab içindədir.*

*Şəmi rüxün hərarəti cuşa gətirdi aləmi,*
*Gör necə yanar od imiş kim, bu kəbab içindədir.*

*Qəndü nəbatü şəkərin ləzzətini unutmuşam,*
*Ta ki bənimlə ləblərin nazü itab içindədir.*

*Kim ki qaşınla olmadı sübhü əzəldə aşina,*
*Ta əbəd ol qaragünün bəxti səhab içindədir.*

*Sirri səqahüm rəbbihüm zahidə sorma anı,*
*Arifi-rəbbihüm bilir kim bu şərab içindədir.*

*Zöhdə dəlalət eylərəm, eşqə həris olur könül,*
*Mən nə şümarə düşmüşəm, ol nə hesab içindədir.*

*Düşdü cahanə gülqülə fitnəli nərgisində us,*
*Fitnələrin gör, ani sən sanma ki, xab içindədir.*

*Şəmsü qəmər əgər üzün tabinə düşmədi nədən,*
*Eşqə əsir olan kişi atəşü ab içindədir.*

*Surətini sifətinə valehü heyran olmuşam,*
*Gözdən əgərci surətin tərfi-niqab içindədir.*

*Zülfü qaşın Nəsimiyə vəchi-həsəndir, ey sənəm,*
*Cim ilə nun bu hüsn ilə qansı kitab içindədir?*

Seyid Əli soruşdu:

– Yaxşı, bunun nəyi xoşuna gəlmir?

– Dadaş, bu qəzəldə mətləb çox uzanıb, həm də, bayaq dediyim kimi, ərəb-fars sözlərindən çox istifadə olunub, qəlizdir, heç nə anlamaq olmur.

– Bəs o biri qəzəl necədir?

– Əzbərdən deyim?

– De.

Şahxəndan həmin qəzəli sinədən dedi:

*Qoyma üzünü niqab içində,*
*Rəf oldu əcəm hicab içində.*

*Dağıtma yanağın üzrə zülfün,*
*Neylər bu günəş səhab içində.*

*Gördüm səni həm fələkdə yıldız,*
*Buldum səni bu kitab içində.*

*Cadu gözün uyğudan oyandı,*
*Fitnə qılır ol bu xab içində.*

*Mən cəng kimi gah ikiqat olub,*
*Növbə qılıram rübab içində.*

*Gah eşqin ilə gözüm olacam,*
*Tərkik edərəm şərab içində.*

*Gah dəm kimi, dəm olur yanaram,*
*Bişər cigərim kəbab içində.*

*Hər kim sənə sünkir oldu, ey can,*
*Qaldı əbədi əzab içində.*

*Sanma ki, Nəsimi hüsiyandır,*
*Çoxdan dolaşıb hesab içində.*

Seyid Əli şəfqət dolu nəzərlərlə qardaşının üzünə baxdı, onun yaşı ilə o qədər də uyuşmayan sərt mühakimələrinə, ağlına heyran qaldı və gülə-gülə dedi:

– İstəyirsən sənə bir sirr də açım?

Şahxəndan dedi:

– Aç, dadaş.

– İkinci oxuduğun qəzəl qaçaq-quldurların, yolkəsənlərin də xoşuna gəlmişdi.

Hər ikisi güldü. Sonra Seyid Əli qardaşını bağrına basıb əlavə etdi:

– Amma sən birinci qəzələ də dəymə, qoy qalsın. İndisə gəl bir tikə çörək yeyib, qəbiristanlığa baş çəkək. Sonra qonaq-qara əlindən getməyə imkan olmayacaq...

Seyid Əli qəbiristanlığa gedən yolda qəfildən Şahxəndana sarı çönüb soruşdu:

– Yaxşı, gecə evimizi daşlayanlar kimlər idi?

Şahxəndan təəccüb etdi:

– Boy, mən elə bildim sənin xəbərin olmayıbdı.

– Yox, oldu... Sadəcə, səbirlə gözlədim ki, görüm bu işin axırı nə olacaq... Sən o daş atanları tanıyırsan?

– Tanıyıram... Məhəllə uşaqlarıdı...

– Niyə atırlar? Dəli olublar?

– Deyirlər, guya sən kafirsən.

– Yenə bu səfeh söhbət? Onlar uşaqdılar, nə bilirlər ki, kafir və yaxud müsəlman nədi? Deməli, bu fikri onların başına bir dolduran var.

– Əlbəttə var.

– Kimdi?

– Mədrəsə mollası.

– Hə, düz deyirsən. Onun işidir. Yaxşı ki, İbrahim şah var, yoxsa bu vəhşilərin əlindən Şamaxıya ayaq basmaq olmazdı...

Nəhayət, gəlib çatdılar. Bu da qəbiristanlıq, dünənə kimi bir-birilə düşmənçilik edən, didişən adamlar indi burada yan-yana sakitcə uyuyurdular. Seyid Əli anasının başdaşının yanında dayanıb Yasin


ARIf



oxuyurdu. Birdən bir az aralıda toplaşmış adamların ona tərs-tərs baxdıqlarını hiss etdi. Amma özünü o yerə qoymadı. Elə bu vaxt iki yaraqlı sərbaz atlarını qəbiristanlığın girəcəyində saxlayıb, molla Zülfüqara yaxınlaşdılar və ondan nəsə soruşdular. O da əli ilə Seyid Əli ilə Şahxəndanı göstərdi. Sərbazlar qəbirlərin arasından keçən əyri-üyrü cığırlarla gəlib qardaşlara yaxınlaşdılar, sonra Seyid Əlinin Yasini oxuyub qurtarmasını gözlədilər. Qəbiristanlıqda olanlar maraqla onlara baxırdılar. Seyid Əli Yasini oxuyub qurtardıqdan sonra sərbazlarla görüşdü və onlar öz aralarında astadan nəsə danışdılar. Sonra sərbazlar bir az əvvəl gəldikləri əyri-üyrü cığırlarla qəbiristanlıqdan çıxdılar və atlarına minib gözdən itdilər...

Seyid Əli Şahxəndana sarı dönüb dedi:

– Hə, balası, hazırlaş, şah bizi axşama qonaq çağırır.

Şahxəndanın rəngi yüngülcə qızardı və bunu sezən Seyid Əli gülümsündü:

– Balası, qorxma, şah arxamızdadır və bizi himayə edir. Sən birdəfəlik bil ki, kafir, ya da dinsiz deyiləm. Əksinə, dindaram, möminəm, qəzəllərimdə də dini, Allahın qüdrətini tərənnüm edirəm. Odur ki, sən, mən oldum-olmadım, heç kimdən qorxma.

Onlar qəbiristanlıqdan çıxıb, giriş qapısının (gi-

riş qapısı həm də çıxış qapısı idi, yəni, qəbiristanlığın bir qapısı vardı) ağzında dayandılar. Adamlar, ikibir, üçbir  gəlib yanlarından keçirdilər. Aralarında tanışlar da vardı – bəziləri salam verir, bəziləri isə etinasız keçirdi...

Şahxəndan dedi:

– Dadaş, mən sənə görə qorxuram, özümə görə yox... Əslində mənimlə heç işi olan da yoxdur. Məhəllə uşaqlarıdı, hərdən sataşırlar, onları da dayı oğlunun adı ilə qorxudub qaçırdıram. Mənim bütün narahatlığım sənə görədir. Çünki məni yox, mən kiməm ki,  səni kafir hesab edirlər. Mən bilirəm sən kafir deyilsən, camaat isə bilmir. Nə vaxtsa, kimsə orda-burda ağzından qaçırıb ki, sən kafirsən, odur-budur düşmüsən ağızlara. Qəzəllərin, qəsidələrin də o qədər qəliz, fikirlərin o qədər qarmaqarışıqdı ki, avam camaat oxuyub heç nə başa düşmür. Başa düşməyəndə də deyir ki, bu elə kafirdi ki, kafir!

Onlar astadan söhbət eləyə-eləyə evlərinin yolunu tutmuşdular. Şairlər şairi gülümsəyib dedi:

– Balası, sən lap böyük adamlar kimi danışırsan.

Şahxəndan güldü.

– Məni sənin yazdıqların, bir də dönə-dönə üzünü köçürtdüyüm Qurani-Kərim belə vaxtımdan əvvəl böyütdü.

Seyid Əli söhbətin uzandıqca uzanacağını hiss edib dedi:

– Gedək bazara, baxaq bir nə var-nə yox. Yəqin Gülnaz xala artıq gəlib, günortaya bir şey bişirər, yeyərik. Axşamda ki, sarayda qonaqlıq, görək şahın aşpazları nə hazırlayıblar...

Şahxəndan dedi:

– Dadaş, doğrudan məni də aparacaqsan ziyafətə?

– Əlbəttə, axı, sən elə-belə adi adam deyilsən, mirzəsən, mirzə! Mirzə Şahxəndan!

Hər ikisi ucadan qəhqəhə çəkib güldü.

– Onlar pitixanaların, dəmirçixanaların, dərzi, papaqçı, misgər, dulusçu dükanlarının önündən keçirdilər. Seyid Əli qabağına çıxanların hamısına salam verirdi – alan da olurdu, almayan da. Papaqçı dükanlardan birinin qabağında birdən-birə uzunboğaz, xırdabaş bir kişi çölə çıxdı və şairlər şairini qucaqladı. Bu, çoxdanışan usta Sucəddin idi:

– Xoş gəlmisən, xoş gəlmisən, – dedi. – Eşitdim ki, Misirə getmisən, sən Allah, de görüm Səlahəddin şah səlibçiləri müqəddəs yerlərdən tamam qovub çıxara bildi, ya yox?

Seyid Əli başını bulayıb güldü.

– Ay usta, bu ki, çoxdanın söhbətidir. Bir də,

belə şeylər nəyinə lazımdı? Sən de görüm, mənim bu qardaşım üçün neçə günə yaxşı, əmiri bir papaq tikə bilərsən?

Usta Sucəddin Şahxəndana baxdı, sonra onun əlindən tutub, arxasınca dükana sarı dartdı.

Seyid Əli soruşdu:

– Uşağı hara aparırsan?

– Başının ölçüsünü götürüm də...

Usta Şahxəndanı kətilin üstündə oturtdu, iplə başının ölçüsünü götürdü, sonra üç barmağını yuxarı qaldırdı – yəni, bu gün yox, sabah da yox, o biri gün papaq hazır olacaq, gəlib apara bilərsən.

Şahxəndan qardaşının yanına qayıtdı. Birlikdə bazara girdilər. Seyid Əli yağ, bal, qaymaq, halva, düyü, zəfəran, sarıkok, darçın alıb, zənbilə yığdı. Şahxəndan dedi:

– Bu qədər şeyi neyləyəcəksən? Səhər də almısan.

– Eybi yoxdu, gəlib-gedən olar... Qoy süfrəmiz boş görünməsin...

Şahxəndan kənardan göz qoyurdu ki, kim qardaşına necə baxır. Birdən onun nəzərlərini çiynində ox və sadaxlı, iri gözlərinin bəbəkləri həddindən artıq böyük olan və dəli kimi ora-bura baxan birisi cəlb etdi. Fikirləşdi ki, maraqlıdır, bu, qardaşına niyə

belə baxır, qeyri-ixtiyari onu izləməyə başladı. Nə qədər ki, camaatın arasında idilər, qorxmağa ehtiyac yox idi, amma təklənsəydilər...

Seyid Əli baş verənlərdən xəbərsiz halda satıcılarla söhbət edir, deyib-gülür, zarafatlaşırdı...

Bazar səs-küylü idi. Qəsidə oxuyan dərvişlərin səsi bütün səsləri batırırdı. Onlar uzun piştaxtaların arası ilə gəzir, pullu və məşhur adam görəndə, qabağını kəsir və oxuya-oxuya pul tələb edirdilər...

Seyid Əli ağzına qədər dolu olan zənbilə baxıb dedi:

– Görəsən, bir şey yaddan çıxmayıb ki?

Şahxəndan güldü.

– Əlbəttə, çıxıb. Qulağını bəri tut deyim. Oxlu-kamanlı bir adam səni izləyir, şübhəsiz, pis niyyəti var, bura adamına oxşamır, yəqin, kimsə göndərib, ehtiyatlı ol. – Sonra əlavə etdi: – Dadaş, gör nə deyirəm: sən ipək dükanının ön qapısından girib, arxa qapısından çıxarsan və gedərsən evimizə, mən də gələcəyəm, qoy hərif səni nə qədər gözləyir, gözləsin...

Seyid Əli Hacı Muxtarın böyük ipək dükanının arxa – xəlvəti qapısından çıxarkən, qeyri-ixtiyari düşündü: deməli, məsələ çox ciddidir. Məni artıq təqib edirlər. Burada olmadığım iki-üç ildə mollalar camaatı qızışdırıb yoldan çıxarıblar. Axşam qonaq-

lıqda məsələni gərək İbrahim şaha deyəm, başqa çarə yoxdur. Yaxşı ki, bu vaxta qədər Şahxəndana dəyib-dolaşmayıblar. Belə də avam camaat olar?

Seyid Əli dodağının altında vərə-vurd eləyə-eləyə, axır ki, gəlib evlərinə çatdı. Şahxəndan artıq onu qapının ağzında gözləyirdi. Birlikdə həyətə girdilər. Gülnaz xala ev-eşiyi silib-süpürmüş, səliqə-səhmana salmışdı. Yemək də qazanda buğlanırdı.

Seyid Əli Şahxəndana dedi:

– Görən bu köpəkoğlu kim idi?

– Bilmirəm. Mən yolüstü hakimə xəbər verdim. Axtarıb, kim olduğunu müəyyən edəcəklər. Bəlkə də şübhələndiyimizi bilib, aradan çıxıb. Dadaş, deyəsən, qorxdun ha... Düz eləyirsən, üzünə su vurursan.

Hər ikisi güldü.

Şir biləkli, gənc və sağlam Seyid Əli təmiz, ağappaq məhrəba ilə əl-üzünü qurulayandan sonra dedi:

– Qardaşın bu uzun illərdə tozlu yollarda o qədər caniyə rast gəlib, o qədər ölümün gözünün içinə baxıb ki, indi bir sərsəri nədir ki, ondan qorxsun. Sadəcə, Şamaxıda, qohum-əqrəba, dost-tanış qabağında ölmək rüsvayçılıqdır. Bir də səndən ötrü qorxuram.

Əlli-əlli beş yaşlarında olan Gülnaz xala onu qucaqlayıb, üz-gözündən öpdü.

– Mənim pəhləvan balam xoş gəlib! Mənim sultan balam xoş gəlib!

Şahxəndan onun sözünü kəsdi:

– Xala, pəhləvanı başa düşdüm, bəs sultan nə deməkdir?

Gülnaz xala əllərini belinə vurub dedi:

– Bəs necə?! Mənim balam şeirin sultanıdır! Bütün Şirvanda ondan ad-sanlı, şöhrətli şair yoxdur! Elə bilirsən xalan savadsız arvaddır, heç nə qanmır? Sən şeirlərin üzünü köçürəndə, bərkdən oxuyursan, elə bilirsən eşitmirəm? Hələ ordan-burdan yadımda da qalır:

*Ta üzün gördüm, nigara, qəmdən azad olmuşam,*
*Qulluğunda, padişahım, hüsnünə şad olmuşam.*

Amma mənasını başa düşmədiyim sözlər də olur. Məsələn: “Ta camalın müzhəfindən oxuram səbüsməsan...” Səbüsməsan nədir, oğlum? Təmiz türkcə yazsana?

Seyid Əli güldü. Şahxəndan başını buladı:

– Nəyə gülürsən? Gülnaz xala düz deyir də.

Seyid Əli əlinin arxası ilə gözünün yaşını sildi:

– Elə düz dediyinə görə gülürəm də.

Gülnaz xala daha söhbəti uzatmayıb dedi:

– Yaxşı, gedim görüm xörək nə oldu. Yəqin acmısınız.

Seyid Əli nahardan sonra eyvanda – taxta çarpayıda uzanıb xəyallara daldı. Fikirləşdi ki, bugünkü hadisəyə necə əncam çəksin. O, həmişəlik gözəl vətəninə – Şirvana qayıdıb evlənəcəyinə və ömrünün qalanını dost-aşna arasında keçirəcəyinə, yazıb-yaradacağına qərar vermişdi. Fəqət şirvanlıların, lap elə bakılıların da onun əleyhinə olduqlarını – düşməninə çevrildiklərini görüb sarsılmışdı. Sadəcə, qardaşı qorxmasın deyə özünü saymazlığa vurmuşdu – guya ki, onlar fikir verməli şey deyilmiş. Əslində isə, məsələ çətin və qəliz idi. Zarafat deyil, birdən-birə sənə “kafir” damğası vururlar, deməli, burada, qala bilməzsən. Qara camaatın fikrini dəyişmək isə elə də asan deyil. Ən azı, müfti və ya qazı fitva verib, günahsız olduğunu xalqın çox yığıldığı yerlərdə bəyan etməli – car çəkməlidir. Amma məsələ bununla da bitmir. Kim zəmanət verə bilər ki, yol gedərkən hansısa bir dəli qəfildən ona hücum etməyəcək?

Yay günü uzun olur. Şahxəndan öz işi ilə məşğul idi – divan üzü köçürürdü. Gülnaz xala aşağıda qab-qacaq yuyurdu. Qaçalan başını qollarının üstünə qoyub mürgüləyirdi.

Seyid Əli gün əyiləndə yuxudan ayıldı. Həyətə düşüb yuyundu və Şahxəndana dedi:

– Yatıb qalmışam. Hazırlaş, gedək.

Onlar əyri-üyrü küçələrdən, müxtəlif peşə sahiblərinin adları ilə çağrılan məhəllələrdən keçib, nəhayət, Şirvanşahlar sarayının qırmızı kərpicdən hörülmüş hündür və əzəmətli hasarına yaxınlaşdılar. Hər tində quraşdırılmış gözətçi qülləsində iki sərbaz keşik çəkirdi. Seyid Əli Şahxəndanın əlindən tutub, sarayın darvazasına sarı gedirdi. Bunu görən bir gənc sərbaz çığırırdı:

– Ey, dayan! Hara belə?

Seyid Əli barmağı ilə göstərib dedi:

– Saraya!

– Gənc sərbaz əlini qılıncına atıb, onların qabağını kəsmək istəyirdi ki, darvaza gözətçisi – sərbazbaşı Lətifi ona acıqlandı:

– Burax gəlsinlər! Deyəsən, sən şairlər şairi Seyid Əli İmadəddin Nəsimini tanımadın!

Gənc sərbaz bunu eşidən kimi geri çəkildi. Seyid Əli ilə Şahxəndan içəri keçdilər. Həyət müxtəlif

geyimli adamlarla dolu idi. Onlar astadan danışır, bir-birlərinə göstəriş verir, nəsə aparıb-gətirirdilər. Pilləkənlərin altında dayanmış saray əyanı Əbdülsaleh Dərbəndi şairi görən kimi qabağına yeridi:

– Ey böyük insan, haralardasan? Nə vaxt soruşuruq, deyirlər Qahirədəsən, nə bilim, Şamdasan, Hələbdəsən, Bağdaddasan. Bəs Şirvanda nə vaxt olacaqsan? Vallah, gözlərimə inanmıram. Adın əlahəzrətin dilindən düşmür, amma özün yoxsan, bütün pərvanələr işığa gəlir. Bizim pərvanə işıqdan qaçır.

Seyid Əli nəsə demək istəyərkən, Əbdülsaleh Dərbəndi onu danışmağa qoymayıb dedi:

– Xülasə, xoş gəlmisən, buyur yuxarı, məclis əhli, şəxsən əlahəzrət özü səni gözləyir.

Seyid Əli və Şahxəndan ayaqqabılarını çıxarıb, içəri keçdilər. Məclis ahəstə idi. Lap yuxarıda ləl-cəvahiratla bəzədilmiş şiş papağı şamların işığında bərq vuran orta boylu, enli bədənli bir adam əyilib yanındakı mavi paltarlı bir şəxsin dediklərinə qulaq asırdı. O, qapının ağzında dayanmış Seyid Əli İmadəddin Nəsimini görüb, əli ilə yanındakına susmağı işarə etdi və dedi:

– Seyid Əli, bura buyur!

Bütün məclisdəkilər bayaqdan bəri heç kimin əhəmiyyət vermədiyi Seyid Əli ilə Şahxəndana baxdılar.

Şahxəndan əlini qardaşının əlindən çəkib, yerində qalmaq istədi. Bunu hiss edən İbrahim şah dedi:

– Qardaşını da özünlə gətir! Belə gözəl xətti olan gənc gərək yuxarı başda əyləşsin.

Tər basmış Şahxəndan qardaşının əlini buraxmadan ayaqları bir-birinə dolaşa-dolaşa qalın kilimin üstü ilə yeridi. Şairlər şairi onun bu həyəcanını hiss edib, əlini yüngülcə sıxdı və astadan pıçıldadı:

– Sakitləş, şah bizim dostumuzdur.

Onlar yuxarı başa çatanda, İbrahim şah ayağa qalxdı, bunu görən bütün məclis əhli müntəzir oldu. İbrahim şah əvvəlcə Seyid Əli İmadəddin Nəsimi, sonra da Şahxəndanla görüşüb, hər ikisini yüngülcə qucaqladı və üzünü şairlər şairinə tutub dedi:

– Əzizim, sən vətənə qarşı nədən bu qədər etinasızsan? İlin on bir ayını yad ellərdə olanda, heç olmasa, bir ayını da Şirvanda ol.

Seyid Əli şahın ondan cavab gözlədiyini görüb dedi:

– Əlahəzrət izin versə, burada az olmağımın səbəbini deyərəm.

İbrahim Şah əvvəlcə üzünü məclis əhlinə tutub:

– Əyləşin, – dedi. Sonra Seyid Əli ilə Şahxəndana yanında yer göstərərək, özü də əyləşdi:

– Əvvəla, de görüm neçə gündür gəlmisən, niyə bizə bir baş çəkmirsən? Özünü də heç cür tapmaq olmur.

Seyid Əli yüngülcə gülümsündü:

– Əlahəzrət, əgər bəndəniz dünən qürub çağı Şamaxıya varid olubsa, bu ziyarət ilk təşrif kimi zati-alilərinizə olan böyük hörmətimizə sübut deyilmi?

– Xeyir, xeyir! – deyə vəcdə gələn əlahəzrət qəhqəhə çəkdi:

– Aşna, məni azdıra bilməzsən; sən bu səhər birinci köhnə qəbiristanlığı, sonra da Şamaxı bazarını ziyarət etmisən. Seyid Əli İbrahim şahın hər şeydən bu cür xəbərdar olmasına təəccüb etdi və fürsəti fövtə verməmək qərarına gəldi:

– Xoşbəxtlikdən bu gün səhər köhnə qəbiristanlığa gedib valideynlərimin qəbrini ziyarət etməyim, sonra da bazarlığa çıxmağım artıq sizə məlumdur. Onda belə çıxır ki, addımbaşı təqib olunmağımdan, hətta gecələr evimizin daşa basılmağından da xəbərdarsınız.

– Xeyr, xeyr! Şair nə deyir? – deyə İbrahim Şah iri gözlərini yanında əyləşmiş müsəllimə, sonra da qazı həzrətlərinə ağartdı. Müsəllim Müqtədir Oğuz belə bir sualı gözləyirmiş kimi dərhal cavab verdi:

– Bəli, əlahəzrət, şair doğru deyir. Kimlərsə nə

vaxtsa avam camaatın arasında söz yayıb ki, bəs, guya, Seyid Əli İmadəddin Nəsimi kafirdir. Nə deyim, müsəlman paxıllığı... gözügötürməzlik...

Qazı Fəzli Fəridzadə papağını çıxarıb, əlindəki dəsmalla təmiz qırxılmış başının tərini sildi və İbrahim şahın ondan da cavab gözlədiyini görüb dedi:

– Bəli, elədir, əlahəzrət. Yəqin ki, Qaim Şirvani, Əhməd Kəsirəddin, Bəhluli...

İbrahim Şah onun sözünü kəsdi:

– Bəhluli kimdi?

– Şah sağ olsun, Şirvan şairlə doludur. Birdir, ikidir, ondur məgər? Kim ki, bir cüt qafiyə düzüb-qoşur, özünü şair hesab edir. Bu Bəhluli də onlardan biridir.

– Hə, sonra?

– Sonra da bu adamlar orda-burda, toyda-yasda hədyan danışırlar.

– Axı, nəyə əsasən?

– Eh, şahım, hər hansı bir şairin qəliz, ikibaşlı müəmmalı fikirlərini tərsinə yozmağa nə var ki...

– Yaxşı, – İbrahim şah dedi, – bəs indi buna bir əncam çəkmək üçün nə etmək lazımdır?

Müsəllim Müqtədir Oğuz cavab verdi:

– Əlbəttə, şairə xüsusi məmlük ayırmaq fay-

dasız olar. Çünki camaat bir az da şübhәlәnәr ki, ey dadi– bidad, gör şair nә ağır günah işlәyib ki, hökumәt ona bu cür mühafizә tәşkil edib. Әn yaxşısı, xalq arasında hәmin ağ yalanları ifşa etmәk, puça çıxarmaq, bunun üçün dә, onun Allahımızın, dinimizin, peyğәmbәr әleyhissalamın qüdrәtini vәsf edәn şeirlәrini oxumaq lazımdır.

İbrahim şah kinayә ilә dedi:

– Axı, biz mәclislәrә gedib, şeir oxumaqla camaatın fikrini dәyişәnә qәdәr bir yaramaz pusqu qurub, şairә xәtәr yetirә bilәr? İbrahim şah bunu deyib, qazı Fәzli Fәridzadәnin üzünә baxdı. O da:

– Ya әlahәzrәt, bu cür işlәr Müqtәdir Oğuzun sәlahiyyәtinә aiddir.

Müsәllim Müqtәdir Oğuz, İbrahim şaha yüngülcә baş әyib, әlini qara qıvrım saçına çәkdi:

– Şah sag olsun, belә olduğu tәqdirdә, mәnә bir-iki gün vaxt verin. Şairin әleyhinә tәbliğat aparanları vә hәtta ona cismani xәtәr yetirmәk istәyәnlәri müәyyәn edib, hüzurunuza çıxarım.

İbrahim şah özündәn razı halda bığlarının ucunu burdu:

– Bu, başqa mәsәlә.

Sonra o, üzünü Seyid Әli İmadәddin Nәsimiyә tәrәf çevirdi – yәni ki, narahat olma, hәr şey qayda-

sındadır və əlini qabağındakı uzun şüşə dayaqları olan iri nimçəyə uzadıb bir ovuç qara kişmiş götürdü və qapıda müntəzir dayanmış Fərruxa işarə verdi. Heç iki dəqiqə keçmədi ki, qırmızı və mavi rəngdə ipək çaxçux geyinmiş bir oğlan, bir qız əllərində ud, kanon içəri girdilər və yastı balıncların üstündə əyləşib, gözlərini İbrahim şaha zillədilər.

İbrahim şahın baş barmağının işarəsi ilə əvvəlcə oğlan udu həzin-həzin dilləndirdi, sonra da qız kanonu... Məclisdəkilərin feyziyab olduğunu görən İbrahim şah üzünü Seyid Əliyə tutdu:

– Hə, indi növbə sənindir, – dedi. – Baxaq görək, Şamaxının ortabab şairlərini nə ilə özüvə düşmən etmisən.

Seyid Əli gözlərini yumdu.

Bu xoş və ləzzətli bir an idi. O, bir qədər susduqdan sonra udla kanonun səsinə uyğun bir ahənglə dedi:

*Bahar olduvü, açıldı üzündən pərdə gülzarın,*
*İrişdi qönçənin dövrü, zamanı qalmadı xarın.*

*Fərəhdən qönçənin gülügün yanğı güldü, açıldı*
*Ki mənzuri yenə güldür çəməndə bülbülü-zarın.*

*Çiçəklər müxtəlif əlvan, nə mənimdir, ani bilkim,*
*Boyaqçısı bir imiş, çün bu əşcarın, bu əzharın.*

*Əbirindən çəmən göz kim nə tib afaqa göndərmiş,*
*Kim olmuş buyi-ətrindən məşami tazə əttarın.*

*Bu gün bazar edən gülşən, çəməndən, laləvü-güldən*
*Qənimət gör ki beş günlükdür tamaşası bu bazarın.*

*Əgərçi sünbülü nərgis bəyani-küntükənz eylər,*
*Qaçan bəlhüməzəl bilsin işaratın bu əsrarın.*

*Nəsiminin sözü gərçi dəmi – İsadır, ey münkir,*
*Sənə kar eyləməz niçin ki, yoxdur həqqə iqrarın.*

Seyid Əli qəzəli oxuyub bitirdi, onun irəliyə uzanmış boynu birdən-birə süstləşdi, başı ağır-ağır köksünə sarı endi.

İbrahim şah qəfildən dedi:

– Bəh-bəh-bəh!

*Bu gün bazar edən gülşən, çəməndən, laləvü-güldən*
*Qənimət gör ki, beş günlükdür tamaşası bu bazarın.*


ARIH



Və astadan, ağır-ağır bir neçə dəfə əl çalıb, əlavə etdi:

– Bu yazıq Qaim Şirvani, Əhməd Kəsirəddin, Bəhluli, bəs, səni öldürməsin, neyləsin? Axı, sən onları məhv edirsən.

İbrahim şahın bu sözünə məclis əhli əl çaldı. Bu dəm saray əyanlarından biri – karvanbaşı Yarəhməd dedi:

– Ya əlahəzrət, bəzi beytlərin mənası bizə aydın olmadı. Müsaidə etsəydiniz, şair onlara şərh verərdi.

Seyid Əli soruşdu:

– Deyə bilərsinizmi hansı beytlər?

– Məsələn, son beyt.

Seyid Əli İbrahim şaha baxdı:

– Əlahəzrət müsaidə edərsə...

– Buyur, buyur...

Seyid Əli həmin beyti bir daha əzbərdən dedi:

*Nəsiminin sözü gərçi dəmi – İsadır, ey münkir,*
*Sənə kar eyləməz niçin ki, yoxdur həqqə iqrarın.*

Bu misraları eşidəndə bütün məclis əhli güldü. Seyid Əli dedi:

– Burda qəliz heç nə yoxdur. Yəni, Nəsiminin sözü, ey münkir, ey inkarbaz, İsanın nəfəsidir. Ancaq sənə təsir etməz. Çünki həqqə iqrarın yoxdur. Yəni, həqqi təsdiq etməyə qüdrətin çatmır.

Məclis əhli yenə güldü. İbrahim şah üzünü karvanbaşı Yarəhmədə tutub dedi:

– Sənin başının ölçüsü çox balacadır, amma yaxşı işləyir.

Məclis əhli yenə güldü. İbrahim şah da özünü uğunmaqdan güclə saxlayıb dedi:

– Şair, bir qəzəl də oxu!

Seyid Əli əlini gözünün üstə qoyub, musiqiçiləri gözlədi. Onlar "Şüştər"i elə ustalıqla çaldılar ki, şairlər şairi qeyri-ixtiyari özünü unudub, muğamın irişilməz, əlçatmaz, ünyetməz aləminə qərq oldu. Udçalan oğlanın ona işarə etdiyini görüb, dodaqlarını astadan tərpətdi:

*Qanı bir əhdü peymanı bütün yar,*
*Qanı bir qövlü gercək, doğru dildar?*

*Qanı dövranda bir qəlbi dəğəlsiz,*
*Qanı aləmdə bir aricə dinar?*

*Qanı sol incuyi ari sədə kim,*
*Bulunsun onda bir lölöi şəhvar?*

*Qanı gerçəkləyin bir həqqə aşiq,*
*Qanı görmüş həqqi bir əhli-didar?*

*Qanı qəflət şərabından bir ayıq,*
*Qanı əsrüklərin cəmində huşyar?*

*Qanı əhdində bir sabitqədəm kim*
*Qoyam adın onun doğru vəfadar?*

*Qanı dünyada, yarəb, şol əmin kim,*
*Kim onda gizlənə min dürlü əsrar?*

*Qanı sadiqlərin razinə məhrəm,*
*Qanı aşiqlərin rəncinə timar?*

*Yar ilə çünki yar oldun, Nəsimi,*
*Nə qəm, gər xəlqi-aləm olsa əğyar?*

Məclisə sükut çökdü. İbrahim şahın qaşları ilan quyruğu kimi qıvrılmışdı. O, handan-hana özünə gəlib dedi:

– Şair, sənin ruhun məhz bu qəzəldə aşikar olur,

üsyankarlığın tuğyan edir. Özü də bu qəzəli lap "Şüştər"ə uyğun seçdin. Zəmanəni, dövranı vəfasızlıqda, hiyləgərlikdə qamçıladın. Əmma buna haqqın var. Çünki üsyankar olmayan şair kimə və nəyə lazımdır?

*Qanı dövranda bir qəlbi dəğəlsiz...*

"Dəğəlsiz" sözü ilə fikrini ört-basdır edirsən. Əmma buna hacət yoxdur. Ona görə rica edirəm, bu misranı belə yazasan:

– Qanı dövranda bir qəlbi hiyləsiz?

Seyid Əli təəccüblə İbrahim şahın üzünə baxdı.

İbrahim şah dedi:

– Belə olarmı, şeirin ahəngi pozulmur ki?

Şairlər şairi gülümsündü:

– Xeyr, pozulmur.

Məclis əhli əl çalıb, İbrahim şahı alqışladı. O isə öz növbəsində dedi:

– Yəqin ki, bu alqış böyük şairə aiddir.

Sonra İbrahim şah üzünü qapının ağzında dizi üstə oturmuş, başı araqçınlı eşikağasına tərəf tutdu:

– Ya Mahmud Qarakurt, şairə və qardaşına xələt!

Mahmud Qarakurt dərhal yerindən sıçradı və

qapının arxasında gözdən itdi. Məclis isə öz ahəngində davam edirdi...

Bu zaman Şamaxının tamamilə ucqar bir dağ kəndində ağaclarla əhatələnmiş hündür, tənəbili evlərdən birində də bir məclis vardı və bu məclis dövlətli dul arvad Rəbiyyə xatuna məxsus idi.

On iki müxtəlif yaşlı, müxtəlif qiyafəli adam bir süfrə arxasında əyləşib, şərab və şərbət içirdilər. Onların beş-altısı şair, qalanları da molla, falçı, dəllək və lotu idi.

Gözləri həmişə qıpqırmızı olan girdəsifət Bəhlulinin təklifi ilə Rəbiyyə xatun Qurani-Kərimi gətirib ortalığa qoydu və əlini kitaba basıb dedi:

– Bu Qurani-Kərimə and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafərin ya sürgün, ya da qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Rəbiyyə xatundan sonra şair Bəhluli, şair Qulaməli, şair Qaim Şirvani, şair Əhməd Kəsirəddin, şair Tacəddin Şirvani, şair Mail Fədai, molla Ruxnəddin Xəlili, molla Seyid Məhəmməd, dəllək Nəsrəddin Zəbani, falçı Yusif Səbayi, lotu İsfəndiyar Qutluq növbə ilə bir-bir əllərini Qurani-Kərimə basıb, onun

dediklərini təkrar etdilər. Növbə lotu Kamal Mərufa çatanda, o birdən ağlamağa başladı.

– Nə oldu sənə? – deyə hamıdan yaşlı Qaim Şirvani soruşdu.

– Qaim əmi, mən qorxuram, Qurani-Kərimə əl basıb, and içə bilmərəm!

Onun necə cani-dildən ağlamağını görən məclis əhli təəccüblə bir-birlərinin üzünə baxdılar. Topasaqqal molla Seyid Məhəmməd ona müraciətlə:

– Yaxşı, yaxşı, ağlama, qoy fikirləşək, görək neyləyərik?

Ancaq lotu Kamal Mərufun daha bərkdən ağlamağını görən molla Seyid Məhəmməd məclisin təşəbbüskarı, təşkilatçısı və rəhbəri Qaim Şirvaniyə baxdı. Təcrübəli, üzü üzlər görmüş, üstəlik, uzun illər boyu toylarda zurna üfləmiş Qaim Şirvani mehriban bir səslə dedi:

– Oğlum, Kamal, özünü ələ al, sakitləş. Burada qorxulu heç nə yoxdur. Qurani-Kərim müqəddəs kitabdır, haqq və nizam rəmzidir. Lotu da kafirdən çəkinər? Qorxma, gəl, əlini bas və mənim dediklərimi de, vəssalam.

Kamal Məruf təzədən şivən qopardı. Rəbiyyə xatun dözə bilməyib dedi:

– Yaxşı, bu tifili ağlatmayın, başqa bir şey fikirləşib tapın.

– Yaxşı, oğlum, – Qaim Şirvani əlini onun çiyninə qoydu, – Qurani-Kərimə əl basma, elə-belə and iç və bizim dediklərimiz sözləri təkrar et.

– Baş üstə!

Kamal Məruf diz üstə çöküb, əlinin arxası ilə gözlərinin yaşını silib, tez-tez dedi:

– Atamın goruna and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafirin ya sürgün, ya da qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Kamal Mərufun sözləri belə tez-tez söyləyib, and içməsinə məclis əhli güldü. Hiyləgərlikdə tayı-bərabəri olmayan Qaim Şirvani uzun barmaqları ilə ona hədə gələrək, gözlərini ağardıb dedi:

– Sən indiyə qədər atanın goruna and içib verdiyin sözlərin heç birinə əməl etməmisən. Amma bu xına o xınadan deyil. Bax, əgər bir yerdə ağzını açıb, bizim bu məclisimiz barədə bir söz desən, səni bu əllərimlə it kimi gəbərdərəm.

– Bu nə sözdü, Qaim əmi, məni tanımırsan?

– Tanıyıram, tanıyıram, elə tanıdığım üçün deyirəm...

Sonra Qaim Şirvani sakitləşib əyləşdi. Qarşısın-

dakı qədəhə şərab süzüb başına çəkdi və islanmış bığlarını əli ilə silib dedi:

– Nə qədər ki, bu köksüz və budaqsız məlun Şamaxıdadır, özü də sağdır, bizə ağ gün və şah məclisi qismət olmayacaq. İmadəddin Nəsimi ya ölməli, ya sürgün olunmalıdır!

Otaqdakı on iki kişi onun dediklərini vahiməli bir səslə təkrar etdi:

– İmadəddin Nəsimi ya ölməli, ya sürgün olmalıdır!

Əgər bu kişilərin qorxunc bağırtılarını çöl-biyabanda kimsə eşitsəydi, vahimələnərdi və dabanına tüpürüb var gücü ilə hara gəldi qaçardı.

Qaim Şirvani dedi:

– Mənim babamın da, atamın da çörəyi sözdən çıxıb. İndi bu köksüz və budaqsız məlun kafir bərəkətimizi qaçırıb, qafiyələrilə öz batil fikirlərini ört-basdır edərək, nəinki Şirvan əhlini və hökmdarını, hətta bütün məşriq əyan və əmirlərini barmağına dolayıb. Ona görə də deyirəm: İmadəddin Nəsimi ya ölməli, ya sürgün olunmalıdır!

Otaqdakı on iki kişi yenə onun dediklərini vahiməli bir səslə təkrar etdi:

– İmadəddin Nəsimi ya ölməli, ya sürgün olmalıdır!

Sonra Qaim Şirvani sallaqbığ falçı, şirvanlılar arasında daha çox "Cindar" təxəllüsü ilə tanınan Yusif Səbaiyə üzünü tutub dedi:

– İlk tədbirimiz nə vaxt olacaq?

Yusif Səbai qədəhinə şərab süzüb, gözüyumulu halda axıracan başına çəkdi və qədəhin altından öpüb, süfrəyə qoydu.

– İlk tədbirimiz yaxın gecələrin birində olacaq. İmadəddin Nəsiminin həyət qapısına bir ox sancacağıq.

Qaim Şirvani üzünü süfrədə oturanlara tutdu:

– Xub, indi bu oxu hansımız sancacağıq?

Heç kimin gözləmədiyi bir halda Kamal Məruf ayağa qalxıb, əlini sinəsinə vuraraq çığırdı:

– Onu mən sancacağam!

Qaim Şirvani dedi:

– Bərəkallah!

Və bu sözdən sonra bayaq ağlayıb, Qurani-Kərimə əl basmaqdan imtina edən lotu Kamal Mərufa qarşı məclis əhlinin qəlbində cücərən şübhə toxumları məhv oldu.

Qaim Şirvani yenə üzünü süfrə ətrafındakılara tutdu:

– Yaxşı, bəs sonra? Birdən İmadəddin Nəsimi buna əhəmiyyət verməsə, neyləyəcəyik?

Bu zaman Əhməd Kəsirəddin dedi:

– Hələlik mürşidimiz bizə bunu tapşırıb. İşi kim görsə, xələti hazırdır, gələn yığıncağımızda alacaq.

– Bəli, – deyə Qaim Şirvani onun sözünü təsdiq etdi. Mürşid özü bu sözləri şəxsən sizə çatdırmağı mənə tapşırıb.

– Qaim əmi, – Kamal Məruf qalxıb yığıncaq sədrinin əlini tutmaq istədi, – bəs mürşidin üzünü nə vaxt görəcəyik? Bəs mürtəd, – o səsini alçaldıb, – İbrahim şaha nə vaxt qəsd edəcəyik?

– Susss... – Qaim Şirvani gözünü ağartdı, – otur, vaxtından əvvəl banlayan xoruzun başını bədənindən üzərlər. Əvvəla, heç vaxt heç bir mürşidin üzünü görüb, kimliyini bilməyəcəyik, ta ki...

– Ta ki, nə? – Kamal Məruf boynunu irəli uzatdı.

– Ta ki, rəncbər taxt-tacdan uzaq edilincəyə qədər...

Bazar divarına bitişik tək iri, təkotaqlı evin cəmi-cümlətanı bir qapısı vardı və bu qapı öz rəngində olan, güclə sezilən düymə ilə açılırdı, arxadan birbaşa küçəyə. Otaqda üz-üzə iki nəfər oturmuşdu;

biri qəzəbli vaxtı üzünə baxmağa adamdan hünər istəyən və gözləri müsahibinin düz gözlərinin içinə sancılan, daşsifət müsəllim Müqtədir Oğuz, biri də lotu Kamal Məruf.

– Hə, Kamal Məruf, danış görüm neyləmisən? Onların qəsdi nədi?

Dünən Rəbiyyə xatunun evində uşaq kimi ağlayıb, özünü bir az da ağıldan kəm kimi göstərən Kamal Məruf tamamilə başqa bir qiyafədə, tamamilə başqa bir səslə dedi:

– Hər şey bizim istədiyimiz kimi oldu. Bu axşam Seyid Əli İmadəddin Nəsiminin qapısına bir ox sancacağam.

– Niyə?

– Həm xəbərdarlıq etmək, həm də qorxutmaq üçün.

– Məqsədləri elə budur?

– Ya Şamaxıdan didərgin salmaq, ya da fürsət düşərsə, qətlə yetirmək. Bütün Şirvan şairlərinin arzusu budur. Mürşidin məramı isə tamam başqadır.

Kamal Məruf susub, müsəllim Müqtədir Oğuzun heç bir şey ifadə etməyən daş kimi sifətinə baxdı.

Müsəllim Müqtədir Oğuz soruşdu:

– Başqa, yəni nə?

– Mürşidin məramı rəncbəri taxtdan salmaqdır.

– Aha, – müsəllim çənəsini tutub, gözlərini qıydı, – mürşidin kimliyi barədə məlumatı olan varmı?

– Bir nəfərin – şair Qaim Şirvaninin. Danışığından belə çıxdı.

– Biz tələsmədən, ehtiyatla onları bir-bir dənləməliyik. De görüm, uşaq vaxtı ananın hövsərdə düyü arıtlamağını görmüsənmi?

Kamal Mərufun gözləri parıldadı:

– Bəli, çox görmüşəm.

– O neyləyərdi?

– Düyünü hövsərin bir qırağına töküb, sonra daş-kəsəyini – sulufunu hissə-hissə arıtlayardı.

– Yəni, düyünü gərəksiz şeylərdən təmizləyərdi. Biz də elə etməliyik. Sən bu gecə get, şairin qapısına oxunu sanc. Qorxma, onu xəbərdar edəcəyik. Bizim adamlar sizin məclis üzvlərini güdürlər. Kimlərlə görüşürlər... nə danışırlar. Elə ki, böyük balığın kimliyini müəyyən etdik, bir gecədə hamısını dama basacağıq, içində də sən olmaqla.

Kamal Məfurun gözləri böyüdü. Bunu görən müsəllim Müqtədir Oğuz dedi:

– Qorxma, şərait yaradacaqlar ki, sən qaçıb aradan çıxasan. İndi get, oxunu sanc.

Axşam Seyid Əlinin qapısı döyüldü. Şahxəndan soruşdu:

– Kimdir?

Bir uşaq səsi gəldi.

– Aç qapını.

– Kimsən axı?

– Miriş.

– Miriş kimdir? – deyib, Şahxəndan qapını açdı.

Başında araqçın, belində qırmızı mahuddan kəmər, on üç-on dörd yaşlarında gülməli bir oğlan idi bu. Şahxəndan təəccüblə:

– Nə istəyirsən? – dedi.

Oğlan pıçıltıyla:

– Məni müsəllim göndərib, – dedi.

– Müsəllim?

– Bəli, müsəllim Müqtədir Oğuz.

Söhbəti eşidən Seyid Əli onlara yaxınlaşdı:

– Hə, qocaq, nə olub?

Oğlan o yan-bu yana baxıb, astadan dedi:

– Bu gecə sizin qapınızı oxa tutacaqlar. Məni göndərdilər deyim ki, narahat olmayasınız.

Oğlan sözünü qurtarar-qurtarmaz bir göz qırpımında yox oldu.

Seyid Əli Şahxəndana dedi:

– Hə, balası, vəziyyət qəlizdir. Deməli, müsəllim də, nəzmiyyə rəisi də hər şeyi bilirlər, amma nəyə görəsə əsaslı tədbir görməyə tələsmirlər. Biz gərək çox ehtiyatlı olaq. Ancaq bütün günü evdə də otura bilmərik. Kücə-bazara çıxmalıyıq. Üstəlik, mən dünən müsəllimə demişəm ki, məscidə – cümə namazına gedəcəyəm.

Şahxəndan çaşan kimi oldu:

– Bəs, qorxmursan?

– Yox, çünki məni güdənləri güdürlər...

Sübh tezdən Seyid Əligilin qapısına xeyli adam toplaşmışdı. Onlar qapıya sancılmış oxa təəccüb və heyrətlə baxırdılar.

Kimsə dedi:

– Seyid Əli,  bilirsiniz bunun mənası nədir?

Seyid Əli əsnəyərək:

– Qonşu uşaqlarının işidir. Yəqin Şahxəndanla zarafatlaşırlar.

Adamlar ev yiyəsinin laqeydliyini görüb dağılışdılar.

Şahxəndan dedi:

– Dadaş, bu həngamədən sonra sən məscidə gedəcəksən?

– Əlbəttə.

– Onda mən də gedəcəyəm.

– Gedək.

İçəri keçib, həyət qapısını örtdülər. Qaçalan damın yanında başını əllərinin üstünə qoyub uzanmışdı.

Seyid Əli dedı:

– Eh, Qaçalan, Qaçalan... Gecələr adamı yatmağa qoymursan. Yaman çox hürürsən ha...

Comərd iki dəfə hürməklə sanki onun dediklərini təsdiqlədi.

Şahxəndan güldü:

– Deyir, düz deyirsən. İş vaxtım gecələrdir. İşimin də adı hürməkdir.

Seyid Əli təəccüblə Şahxəndanın üzünə baxdı:

– O bu qədər sözü elə iki dəfə hürməklə dedi?

– Bəs necə?! İt bir dəfə hürəndə bir necə cümlə deyir.

– Bunu özündən uydurursan, yoxsa kimdənsə eşitmisən?

– Əlbəttə, özümdən uydururam.

Şairlər şairi başını buladı:

– Vallah, sənin ağlına daha heç bir sözüm yoxdur.

Günortadan sonra böyük qardaşla kiçik qardaş evdən çıxıb, Sarıtorpaq məhəlləsindəki məscidə yollandılar. Cümə günü olduğundan, adam çox idi. Seyid Əli köhnə dostu Qara Qaplan Səkmən oğlunu görüb, ona tərəf getdi. Qucaqlaşdılar. Elə bu vaxt imam Zahir ibn Saleh adamların arası ilə yuxarı başa keçib, kiçik xalça üstə möhür-canamazı səliqəyə salaraq dönüb camaata baxdı, – yəni ki, hazır olun, başlayaq.

Seyid Əlinin sağında Qara Qaplan Səkmən oğlu, solunda isə Şahxəndan dayanmışdı. Onlar "La İlahə İlləl-lah" söyləyib, imamın sözlərini pıçıltıyla təkrar edərək, namaza başladılar. Aradan heç on dəqiqə keçməmişdi ki, qəfildən iki cavan yerindən qalxdı, bir an sonra eynilə başqa yerdən iki cavan daha ayağa qalxıb, onların qabağını almaq istədilər. Xəncərlər havada parıldadı və səs-küy, qışqırıq aləmi başına götürdü.

Hücum edənlərdən biri artıq irəli gedə bilmədiklərini görüb, əlindəki ikitiyəli xəncəri ildırım sürətlə qabağında dikəlmiş Seyid Əli İmadəddin


ARIF



Nəsiminin kürəyinə tərəf fırıldatdı. Şairlər şairi aldığı yaradan səndələdi, amma yıxılmadı. Şahxəndan qışqırıb fəryad qopardı. Qəsdi törədənləri dərhal qamarlayıb tutdular. Camaat şairə tərəf gəldi. Qara Qaplan Səkmən oğlu məscidin mollasına dedi:

– Qorxulu bir şey yoxdur. Bir parça ağ gətir.

Sonra Şahxəndanın üzünə baxdı:

– Bu zalım bilirmiş ki, belə bir hadisə ola bilər və yaxud olacaq, odur ki, belinə keçə bağlayıb, boş şeydi – xəncər əti heç barmaq ucu qədər də deşməyib.

Şahxəndan ağlaya-ağlaya:

– Bəs, bu qan nədi? – dedi. – Sonra yerə düşmüş xəncəri götürüb baxdı: – Keçə olmasaydı, bəlkə də ürəyini zədələyəcəkdi.

Qəsdi törədənlərin əl-qollarını bağlayıb apardılar. Onlar gedərkən qışqırdılar:

– Ey kafir, bu dəfə canın qurtardı. Amma gələn dəfə qurtarmayacaq!

Şairlər şairi yarasının ağrımasına baxmayaraq, əlini qaldırıb onların arxasınca dedi:

*Ey aşiqə kafir deyən, imana gəl, utan!*
*Kafir demə aşiqlərə niçin ki yalandır!*

Sonra rəngi azacıq avazımış şair Qara Qaplan Səkmənə sarı dönüb, gülümsəməyə çalışdı və:

– Əlbəttə, bilirdim, – dedi. – Hara getsəm, sui-qəsdə qarşı hazırlıqlı gedirəm. Amma bu cür sərrast xəncər atacaqlarını gözləmirdim.

Qara Qaplan Səkmən yoldan keçən faytonlardan birini tutub, şairlə qardaşını evlərinə yola saldı. Məsciddə isə yarımçıq qalmış günorta namazı davam edirdi.

Yolda Seyid Əli qardaşına dedi:

– Müsəllim Müqtədir Oğuz mənə demişdi ki, belə şey ola bilər. Maraqlıdır, görəsən, o bunu hardan bilir?

– Keçə geyinməyi o məsləhət görmüşdü?

– Yox... özüm...

– Bəs istidə səni dalamırdı?

– Altından kətan köynək geyinmişəm.

– Bəs mənə niyə deməmişdin?

– Birincisi, bilmirdim ki, belə bir hadisə dəqiq mütləq olacaq. İkincisi də, desəydim qorxardın.

– Yaxşı, bəs o mühafizəçiləri kim göndərib?

– Əlbəttə, müsəllim Müqtədir Oğuz.

– Birdən geciksəydilər?

– Qismət... Nə etməli?..

Fayton Şamaxının torpaq və daş küçələri ilə çaparaq gedir, toz qoparır, taraq-turuqdan qulaq tutulurdu. Ancaq Şahxəndanın bu ahəngdar nal səslərindən xoşu gəlirdi. O nəsə xatırlayıb soruşdu:

– Yaxşı, dadaş, xəncər necə oldu? Mən baxdım, neştərdən də iti idi.

– Hə, iti olmasaydı, keçəni dəlib keçməzdi.

– İncidir?

– Əlbəttə. Evdə gərək sarğını dəyişək, Gülnaz xala da yaranın üstünə məlhəmdən-zaddan qoysun.

Fayton evlərinə çatanda Seyid Əli ilə Şahxəndan gördü ki, hadisədən artıq xəbərdar olan qohum-qonşu həyət qapısının önünə yığışıblar...

Sui-qəsdçiləri qısa sorğu-sualdan sonra Qalaybuğurt tərəflərdəki zindana apardılar. Müsəllim Müqtədir Oğuz onlarla necə rəftar ediləcəyi barədə İbrahim şahın fikrini öyrənmək üçün dərhal atlanıb saraya getdi.

İbrahim şah günorta yeməyindən sonra istirahət edirdi. O, müsəllim Müqtədir Oğuzun vacib xəbərlə gəldiyini eşidəndə içəriyə – elə istirahət otağına girməsinə izn verdi.

Müsəllim Müqtədir Oğuz içəri girəndə İbrahim şah mütəkkəyə dirsəklənib qalın bir kitabın üstünə əyilmişdi. O, ayağa qalxmadan soruşdu:

– Nə xəbər var?

Müsəllim Müqtədir Oğuz əhvalatı ətraflı danışandan sonra:

– Bu iki cani ilə necə rəftar edilməsi barədə qənaətinizi öyrənməyə gəldim.

İbrahim şah bir qədər fikrə gedəndən sonra dedi:

– Vallah, bilmirəm hansı cəza daha münasibdir. Edam etsək, mollalar deyəcəklər ki, din yolunda şəhid oldular, zindanda saxlasaq, sağ qaldıqlarını görüb başqaları da şirnikəcəklər. Yaxşısı budur gedin şairlə də məsləhətləşin,  deyin görək hansı cəza ədalət naminə daha münasibdir.

Müsəllim Müqtədir Oğuz İbrahim şahın bu fikri ilə qəlbən razı olmasa da, etiraz etməyə cürəti çatmadı və baş əyib otaqdan çıxdı. Yolda belə qərara gəldi ki, nəzmiyələrdən birini göndərib Seyid Əlini məsələdən hali etsin. Çox götür-qoydan sonra sərbaz Xeyrəddini çağırıb dedi:

– Gərək ki, Seyid Əli İmadəddin Nəsimi sənin bacın oğlu olsun, elədirmi?

– Bəli, elədir, möhtərəm müsəllim. Hərçənd gec-gec görüşürük.

– Çox nahaq. Bu sənin tərəfindən təqdirəlayiq hərəkət deyil. Bilirsən ki, o, Şirvanın ən dəyərli şəxsiyyətlərindəndir: qəzəlləri, qəsidələri bütün türk ellərində dillər əzbəridir. Sən isə hələ utanmayıb deyirsən ki, az-az görüşürük. Yoxsa qara camaatdan qorxursan?

– Düz buyurursunuz, cənab müsəllim. Çalışıb səhvimi düzəldərəm.

– Al bu kağızı, bax, elə indi apar ver bacın oğluna. Cavabını elə bu kağızın altında yazıb mənə göndərsin. Gözləyirəm.

Xeyrəddin kağızı alıb eşiyə çıxdı və bir göz qırpımında atın belinə qalxdı. Yolboyu belə gec görünməsinin səbəbini izah etmək üçün sözlər axtardı. Doğrusu, vicdan əzabı çəkirdi...

Qapı səsinə Gülnaz xala gəldi:

– Kimdir?

– Mənəm, xala.

Gülnaz xala qapını açdı. Sərbaz Xeyrəddin atını çöldə bağlayıb içəri keçdi.

– Üzünü görək. Səndən nə əcəb?

– Bilirdim ki, elə belə deyəcəksən. Vallah, başım o qədər qarışıqdır ki, xala.

Səsə Şahxəndan çıxdı. Dayısını görüb təəccüb etdi və tələsik həyətə düşdü.

Sərbaz Xeyrəddin bacısı oğlunu qeyri-adi bir şəfqətlə qucaqlayıb öpdü:

– Bacıoğlu, bir dəfə gəlib qapımı açmırsan ki, görüm dayım ölüb, qalıb?

– Ay dayı, Cəmaləddini hər dəfə görəndə soruşuram. Gəlib evdə demir?

– Deyir, deyir... Sağ ol... Seyid Əli necədir? Eşitdim gəlib. Niyə dayısını axtarmır? Mənim başım oğrulara, cibgirlərə qarışıb. Ona nə olub?

Seyid Əli səs eşidib eşiyə çıxdı və dayısının onları qabaqlamaq istədiyini hiss edib gülümsündü:

– Dayı, biz balaca adamlarıq. Gərək sən bizi axtarasan.

Sərbaz Xeyrəddin ona tərəf getdi:

– Mən kiməm ki... Maşallah, sənin adın məğriblə məşriği bürüyüb.

Şahxəndan içəridən kətil gətirdi. Seyid Əli dedi:

– Dayı, sözlü adama oxşayırsan, vallah, səndə nəsə var.

– Var, bala, var, düz deyirsən.

O, əlini döş cibinə salıb, dörd bükülmüş kağızı çıxartdı:

– Müsəllim Müqtədir Oğuz ağa göndərib, elə bu dəqiqə də cavab gözləyir.

Şairlər şairi məktubu açıb oxudu, saqqalını sığallaya-sığallaya bir xeyli fikirləşdi, nəhayət:

– Bu saat yazım, gətirim, – dedi. Və beş dəqiqə sonra həmin kağızı gətirib dayısına uzatdı.

Şairlər şairindən cavab alan kimi müsəllim Müqtədir Oğuz zindana getdi, əlindəki yazıya əsasən sui-qəsdçilərdən peşimançılıq ərizəsi aldı. Bundan sonra azad olan canilər etirafda bulundular ki, Seyid Əli ilə heç bir şəxsi-qərəzçilikləri yoxdur və bu işə üzünü görmədikləri, tanımadıqları mürşidin tapşırığı ilə qol qoyublar. Bəs bu mürşid kim idi – onu müsəllim Müqtədir Oğuzdan başqa bir kimsə bilmirdi!..

Rəbiyyə xatunun evində Şirvan şairləri və sui-qəsdçilərin növbəti yığıncağı keçirilirdi. Qaim Şirvani başda olmaqla təşkilat üzvləri son hadisələrdən həddən artıq rəncidə idilər. Əvvəla ona görə ki, Seyid Əli İmadəddin Nəsimi hələ də Şamaxıda, özü də sağ-salamat idi, hətta şah məclislərində olur, Əhməd Kəsirəddinin dediyi kimi, öz mürtəd şeirlərinə görə, üstəlik, xələt də alırdı.

Qaim Şirvani dedi:

– Ağa Kəsirəddin, bütün bunların səbəbi odur ki, bu adamı, sadəcə, təsadüf xilas edir. Təsəvvürünüzə gətirin: müsəllim Müqtədir Oğuzun mühafizəçilərinin gözü qabağında bunun kürəyinə xəncər sancılır, di gəl ki, sağ qalır. Deyirlər, guya, əbasının altından keçə geyinibmiş. Yoxsa, xəncər onu cəhənnəmlik edəcəkmiş.

– Bu istidə ha, keçə geyinib? – deyə "ağıldan kəm" Kamal Məruf güldü.

Qaim Şirvani qırmızı damarlı gözlərini ona ağartdı və Kamal Məruf səsini xırp kəsib, əli ilə ağzını yumdu.

Əyninə uzun paltar geyinmiş sivri çənəli Rəbiyyə xatun süfrəyə şərab və ayran gətirib, əlini Kamal Mərufun araqçınlı başına qoyub, Qaim Şirvaninin üzünə baxdı:

– Oğlumun xətirinə dəyirsən ha!

Əlbəttə, onun Kamal Mərufa oğul deyib, mehribanlıq göstərməsinin səbəbi vardı. Qaim Şirvani üstünü vurmayıb, söhbətin yönünü dəyişdi:

– Yaxşı, gəlin indi müzakirə edib görək bu məlunu bu dəfə hansı vasitə ilə aradan götürəcəyik.

Dərviş kimi uzun saç və saqqal saxlayan Quləməli bir fincan şərbət içib dedi:

– Ya Qaim, iki cəngavər fədaimizi, Qurani-Kə-

rimə and olsun, içdirib sıramızdan ayırdılar. Bilmirəm indi nə tədbir görəcəyik və tapşırıq olsa, kim yerinə yetirəcək?

– Qulaməli, sən adama görə narahat olma. Bu iş üçün hazır olan islam fədailəri çoxdur. Amma görün mənim ağlıma nə gəlir. Deyirəm, bəlkə bir dəfə də onu aradan götürmək təşəbbüsündə bulunaq? Kim razıdırsa, əlini qaldırsın. Baş tutmasa, ehtiyat tədbirlərimiz itinə tök qədər...

Çox adam bu qərara razı oldu. Belə olduqda, Qaim Şirvani heyva kimi sarı və girdəbaş bərbər Kərim Zəbaniyə baxdı:

– Bu dəfə növbə sənindir, ey ülgüc pərgarı!

Bərbər Kərim Zəbani udqunub, Qaim Şirvaninin ətli sifətinə baxdı:

– Mən neyləyə bilərəm, ya Qaim? Əlimdən nə gələ bilər? Fəqir adamam...

– Əgər fəqirsənsə, burda nə işin var? Bir də sənin ülgücünün qüdrəti...

Bərbər Kərim Zəbani Qaim Şirvaninin nə demək istədiyini anladı və rəngi qaçdı, istər-istəməz, başını bulayıb etiraz etdi:

– Bu çox qorxulu işdir, ya Qaim. Camaat eşidib məni daşqalaq edər.

– Qorxma, səni vaxtında aradan çıxaracaqlar.

– Bəs sonra? – bərbər Kərim Zəbani dirəşdi. – Mən bir də Şamaxıya qayıda bilərəmmi?

– Şamaxıya qayıda bilməsən, Bakiyə gedərsən.

– Bəs mənim evim, arvad-uşağım?

Şair Tacəddin Şirvani gözlənilmədən söhbətə qarışdı:

– Bu, baş tutan iş deyil. Məgər siz bilmirsiniz ki, Seyid Əli İmadəddin Nəsiminin üzünü həmişə qardaşı təraş edir? Mürşidin bu işdən xəbəri varmı?

Qaim Şirvani etiraf etdi:

– Xeyr. Bu mənim təşəbbüsümdür. Bir də siz bəyənsəniz də tədbir, əlbəttə, mürşidin razılığı olduğu təqdirdə həyata keçirilə bilər.

O qədəhinə şərab süzüb, başına çəkdi və iki qovrulmuş badam götürüb ağzına qoydu. Məclisə sükut çökdü. Hamı Qaim Şirvaninin nə deyəcəyini gözləyirdi. Nəhayət, o, ağzını dəsmalla silib dedi:

– Mən bir şeyə məəttəl qalmışam: elə bil, onu kimsə bizim tədbirlərimizdən xəbərdar edir, – o susub, yəqin ki, şərabın təsirilə daha da qızaran gözlərini bir-bir məclis üzvlərinin üzündə gəzdirdi, sonra tərəddüd içində əlavə etdi:

– Deyirəm, bəlkə su quyularına zəhər tökək? Ancaq bundan bu kafirin qardaşı – günahsız və böyük savab işlər görmüş Şahxəndan da ziyan çəkə

bilər. Mürşid də bilmirəm razı olar, olmaz... Deyin görüm sizin təklifiniz nədir?

Müzakirə gecədən xeyli keçənə qədər uzandı və məclis əhli qəti bir qərara gəlmədən evlərinə dağılışdılar, bu şərtlə ki, iki gündən sonra yenidən toplaşsınlar...

Həyətdə – ağac kölgəsindəki oturacaqda "Cavidannamə"ni oxuyan Seyid Əli hər beytdən sonra gözlərini yumub fikrə gedirdi. Eyvanda divan üzü köçürən Şahxəndan qardaşının bu hərəkətinə gah başını bulayır, gah gülümsəyir və düşünürdü: "Yəqin ustadın qəliz fikirlərini anlamaq üçün belə eləyir".

Şahxəndanın Nəiminin bu əsərindən xoşu gəlmirdi, bəlkə ona görə ki, hələ təfəkkürü ordakı mətləbləri çözməyə hazır deyildi. Qardaşı – şairlər şairi isə bu kitabdan ötrü lap dəli-divanə idi, hara getsə, onu qurşağının altında aparırdı, hətta dəvə belində – səhra ilə yol gedəndə də oxuyurdu.

Birdən Şahxəndan Seyid Əlinin səsini eşitdi:

– Hüsniyyədən nə xəbər?

– Birdən-birə Hüsniyyə hardan yadına düşdü?

– Gecə yuxuda görmüşəm. Görəsən, onu necə tapa bilərik?

– Deyilənə görə, hər cümə axşamı qəbiristanlığa gedir.

Elə bu vaxt Gülnaz xala tənəbidən səsləndi:

– Əlinizi yuyun, gəlin. Yemək vaxtıdır.

Günorta idi. Bağda cırcıramalar səs-səsə vermişdi. Külək əsəndə tək-tük saralmış lətənzi armudlarının qurd dəymişləri qopub yerə düşürdü. Qonşu – kirpibığ Cəbrayıl yenə "Bayatı-kürd" oxuyurdu. Qaçalan damın ağzında ləzzətlə sümük gəmirirdi. Dəvə tənbəl-tənbəl, elə bil, saqqız çeynəyirdi. Qonşu Bənövşə xala yenə "Mahmudəli, Mahmudəli" – deyə var səsi ilə qışqırırdı. Və Şamaxının bütün evlərində adamlar nahar yeməyi üçün süfrə başına yığışmışdılar. Seyid Əli ilə Şahxəndan əllərini yuyub, eyvana qalxdılar.

Ertəsi gün günortaya yaxın qəbiristanlığa gələn Seyid Əli ilə Şahxəndan iki çadralı qadın gördülər. Onlardan biri Hüsniyyə, digəri Səlminaz idi.

Gələnlərə göz qoyan Səlminaz Hüsniyyəyə dedi:

– Ay qız, gör kim gəlir?

Bir əli ilə çadrasını belinə yığıb, bir əli ilə uşaqlarının qəbrinin üstündə bitən təzə otları qoparıb

atan Hüsniyyə dönüb Seyid Əliyə baxdı. Xeyli aralı olsa da, baxışları uzun müddət bir-birinə ilişib qaldı.

Səlminaz dedi:

– Ay qız, keçmiş sevgilin heç qocalmayıb. Vallah, mənə elə gəlir ki, o sənə görə hələ də evlənməyib. Buy, ay qız, gör necə qızardın?

– Yaxşı, sən Allah, boynuma qoyma.

– Vallah, düz sözümdür.

Hüsniyyə bilmirdi ki, mürşidin adamları Səlminazla görüşmüş, ona bir sıra tapşırıqlar vermişdilər. Bu tapşırıqlara əsasən, Səlminaz Hüsniyyənin qəlbində şairlər şairinə qarşı olan eşqi alovlandırmalı idi. Əslində, buna heç ehtiyac yox idi, çünki bu eşq, onsuz da hər iki aşiqin qəlbində sönməyən şam kimi neçə illərdi ki, şölələnirdi.

Şairlər şairi keçmiş sevgilisinin baxışlarından həyəcana gəlib dedi:

– Balası, mən batdım.

– Niyə batırsan, dadaş? Sən ona baxdığın kimi, o da sənə baxır. Sizə bir elçidən başqa heç nə lazım deyil.

– Balası, mən daha Yasin oxuyacaq halda deyiləm, sən bir molla Ramazanı gör, ona de.

– Baş üstə!..

Elə bu vaxt Səlminaz Hüsniyyəyə dedi:

– Ay qız, vallah, bu səndən ötrü ölür. Bilmirəm, nəyi gözləyirsən?

– Aaaa... zorla gedib kişinin evinə girəcəyəm?

Səlminaz özünü gülməkdən zorla saxlayıb pıçıldadı:

– Ay qız, o sənə elçi göndərməyə ürək eləmir. Ona necə çatdıraq ki, qorxmasın...

Sonra birdən ağlına nə gəldisə, az qaldı qışqırsın:

– Aaaa, tapdım! – dedi. Gülnaz xala! – O, çıxış yolu tapmış adam kimi sevindi və rəfiqəsinin üzünə rəğbətlə baxdı: – Deməli, bu illər ərzində onu ürəyində saxlamısan, ərin, uşaqların ola-ola...

Hüsniyyənin sifəti od tutub yanırdı. Günahkar kimi:

– Vallah, heç özüm də bilmirəm, – dedi.

Səlminaz pul kisəsindən gümüş dirhəm çıxarıb, Yasin oxuyan mollanın ovcuna basdı və üzünü Hüsniyyəyə tutub dedi:

– Ay qız, sizin bir-birinizdən ayrı yaşamağınız Allaha xoş getməz.

– Aaaa... – Hüsniyyə bir gözü Seyid Əlidə dedi, – deyirsən, neyləyim? Gedib zorla kişinin evinə girim?

– Mən ölmüşəm məgər?! Elə düzüb-qoşum ki, heç ruhunuz da incimәsin.

– Yox, sən Allah, lazım deyil...

– Ay qız, dəlisən-nəsən? Heç bilirsən neçə yaşın var? Sən mənə baxma. Məni istəyənlər dövlətimə görə istəyirlər. Səni isə ürəkdən sevən var, özü də bir gör kimdi. Narahat olma, bacın hər şeyi qaydasına salacaq. Yavaş-yavaş gedək.

Hüsniyyə çiyni ilə uzun hörüklərini arxasına atıb, çadrasına büründü və yola düzəldi.

Ötüb keçən sevgilisindən gözünü ayıra bilməyən şairlər şairi dodaqaltı pıçıldadı:

*Həmdülillah, yarımın gördüm üzün,*
*Dilruba dildarımın gördüm üzün.*
*Türrəsi-tərrarımın gördüm üzün,*
*Gözdən məkkarımın gördüm üzün.*

Şahxəndan bu bəndi yaddaşına həkk etməmiş şairlər şairi ikinci bəndi söylədi:

*Ey mənim əhdə vəfasız dilbərim,*
*Mübtəlasına ətasız dilbərim.*
*Dərdməndinə dəvasız dilbərim,*
*Eşqinə mərhələsiz dilbərim.*

Şahxəndan şairlər şairinin nisgil dolu sözlərinə cavab olaraq, onun əbasının ətəyini yüngülcə dartıb dedi:

– Dəvasız niyə olur e... İstəsən, qaça-qaça gələr...

– Nə danışırsan, balası?

– Düz deyirəm də. Görmədin sənə necə baxırdı? Sən dərdini Gülnaz xalaya de!

Seyid Əli ilə Şahxəndan beləcə söhbət edə-edə evə gəldilər. Ancaq Gülnaz xala gözə dəymədi. Taxçanın üst gözündə bir məktub vardı, görünür, qonşu uşaqlarından birinə yazdırmışdı: "Oğlum xəstələnib, mən getdim. Hər şey hazırdır".

Seyid Əli kağızı taxtın üstünə atdı:

– Gördün? Sənə demədim düzələn deyil? Yer də, göy də mənə qarşıdır!

– Yaxşı, sən də o dəqiqə qarışqadan fil düzəltmə. Gedib, sabah gələcək də.

Lakin Gülnaz xala ertəsi gün də, o biri gün də gəlmədi...

Həmin gün Rəbiyyə xatunun evində yenə yığıncaq vardı. Məsələ bunda idi ki, Seyid Əlinin eşq əhvalatı artıq bütün şəhərdə olduğu kimi, burada da gərgin mübahisəyə çevrilmişdi. Hərə bir söz de-


ARIf



yirdi. Əksəriyyət, xüsusilə şairlər bu eşqi pozmağın tərəfdarı idi.

Yaşı qırxı adlamasa da, saç-saqqalı dümağ olan bakili şair Abdulla Kamil belini qırmızı ipək balışa söykəyib dedi:

– Bizim firavanlığımızı pozan bir dinsiz kafirin sevdiyi məxluqa qovuşub şad-xürrəm yaşamasına əsla razı olmamalıyıq.

– Biz mürşidin göstərişindən kənara çıxa bilmərik, – deyə lotu İsfəndiyar Qutluq elə sərt etiraz etdi ki, əlində tutduğu bir fincan şərab süfrəyə dağıldı.

Bakili şair etiraz etdi.

– Biz yekdilliklə qərara gəlsək, mürşid etiraz etməz.

– Yaxşı, ay Abdulla Kamil, bu adamın şəxsən sənə nə pisliyi dəyib?

Abdulla Kamil təəccüblə məclis üzvlərinə baxdı:

– Bu nə danışır, əə... Bir adam ki, hər misrasında "Ənəlhəqq" deyə, bir adam ki, ağzını açanda küfrlə aça, bir adam ki:

*Rövzeyi-rizvan üzündür, vəssalam,*
*Surəti-rəhman üzündür, vəssalam,*
*Ərşi həqq, ey can, üzündür, vəssalam,*
*Rövh ilə Quran üzündür, vəssalam*

– yaza, nə yuvanın quşu olduğu bilinməyən bir qadının üzünü Qurandan uca hesab edə, – hamımızın düşmənidir.

– Abdulla Kamil ağa, – bu dəfə Molla Seyid Məhəmməd dilə gəldi, – məgər sizin əşarlarınızda gözəlliyi vəsf edən, məzhəblə üst-üstə düşməyən heç bir sətir də yoxdur?

– Əstafürüllah! – Abdulla Kamil əlini qaldırıb, dizinə elə çırpdı ki, falçı Yusif Babalının şərbət fincanı əlindən yerə düşdü və məclisə sükut çökdü.

Nəhayət, Qaim Şirvani hökm verdi:

– Mürşid hələlik bizə hər üç məxluqa – Seyid Əli İmadəddin Nəsimiyə, Hüsniyyə xanıma, qulluqçu Gülnaz arvada xətər yetirmək barədə tapşırıq verməyib. Təkrar edirəm: burada heç kim mürtəd İmadəddin Nəsimiyə mənim qədər nifrət etmir. Hərçənd, onun əşarı, dillərə düşən qəzəl, qəsidə, məsnəvi, tuyuğları hamımızın çörəyinə bais olub və burda da ən çox itirən mən olmuşam. Çünki ondan qabaq sarayın baş şairi mən idim. Buna baxmayaraq, ilk növbədə məqsəd onu Şirvandan didərgin salmaqdır, özü də ömürlük. Gülnaz arvada da hədə-qorxu gəlmək lazımdır ki, İmadəddin Nəsimi ilə Hüsniyyəni qovuşdurmasın.

– Yaxşı, deyək ki, Gülnaz arvadı təcrid etdik,

lap gizlətdik, bəs oğlu necə olacaq? – lotu Kamal Məruf soruşdu.

– Onunla məhz sən məşğul olacaqsan.

– Necə?

– Aparıb bir-iki gün evində saxlayarsan.

– Bəs deməz ki, anam hanı?

– Deyərsən ki, İmadəddin Nəsimi vacib bir iş üçün Bakiyə göndərib.

Bayaqdan bəri qaşqabaqlı halda söhbətə qulaq asan Abdulla Kamil dedi:

– Yaxşı, İmadəddin Nəsimi ilə Hüsniyyənin görüşü baş tutmadı, sonra?

– Sonrasını mən bilmirəm, ancaq güman edirəm ki, mürşidin İmadəddin Nəsimiyə vacib təklifi olacaq. Hər şey də onda bilinəcək.

– Təklifi mürşid özü ona çatdıracaq?

– Yox, bərbər Kərim Zəbani, təbii ki, onun adından. Həzərat, bu günlük bu qədər.

Abdulla Kamil:

– Bilmirəm, mürşid bu mürtədin nazı ilə niyə bu qədər oynayır, – dedi və bir qədəh şərab içib, ayağa qalxdı.

Rəbiyyə xatun onun arxasınca dedi:

– Bu kimdir gəlib belə yekə-yekə danışır?

Qaim Şirvani dəftərini qoltuğuna vurub, qapıya tərəf gedərkən dedi:

–  O? O, Baki əhlinin məclisimizə xüsusi səlahiyyətlə göndərilmiş nümayəndəsidir.

Seyid Əli və Şahxəndan axşama kimi Gülnaz xalanı gözlədilər. Toran çalanda qonşulardan kimsə xəbər gətirdi ki, yazıq arvad oğlu ilə birlikdə yoxa çıxıb.

Seyid Əli ümidsizlik içində yırğalana-yırğalana pilləkənə çökdü.

Şahxəndan dedi:

– Yaxşı, özünü üzmə.

– Bunu necə bilək?

– Nəyi necə bilək?

– Hüsniyyəyə toxunub-toxunmadıqlarını...

– Sübh tezdən gedib hər şeyi öyrənərəm.

Gecə hava bürkü idi. Azacıq da olsa meh əsmirdi. Seyid Əli ilə Şahxəndan eyvanda – yerlərinin içində uzansalar da, gözlərinə yuxu getmirdi. Xüsusilə şairlər şairi hey ufuldayır, o böyrü-bu böyrü üstə çevrilirdi. Fikirləşirdi ki, İbrahim şah olmasaydı, onu

da qətlə yetirər, ya da qovub didərgin salardılar. Bəs birdən İbrahim şahın başına bir iş gəlsə, ya da o, bir neçə günlüyə harasa getsə, vəziyyətləri necə olacaq? Budur, qulluqçu arvadı oğurlayıblar. Görəsən öldürməyiblər ki? Sabah necə olsa, bir səs çıxacaq. Çıxmasa, müsəllim Müqtədir Oğuzun yanına gedib demək lazımdır. Səhər də bir açılır ki...

Yalnız gecə gecədən keçəndən sonra onları yuxu tutdu...

Səhər Şahxəndandan fərqli olaraq, şairlər şairi çox gec oyandı. Yerindən dik qalxdı və çığırdı:

– Şahxəndan!

Həyətdən səs gəldi:

– Eşidirəm.

– Günorta olub. Məni niyə oyatmamısan?

– Evdə yox idim. İndi gəlmişəm.

Şairlər şairi təəccüblə soruşdu:

– Hara getmişdin?

Şahxəndan mənalı-mənalı güldü:

– Gecə sənə söz verdim axı. Hüsniyyəgilə getmişdim.

Şairlər şairi yerindəcə quruyub qaldı:

– Nə danışırsan? Elə şey olar?

– Vallah.

– Hüsniyyəni görə bildin?

– Əlbəttə.

– Danışdın?

– Əlbəttə.

Şairlər şairi tələsik geyinib həyətə düşdü.

– Sən nə dedin, o nə dedi?

Şahxəndan alnını ovuşdura-ovuşdura:

– Dedim ki, qardaşım dərdindən dəli-divanə olub. Gecələr də yata bilmir. Gülüb dedi ki, "mən də onu sevirəm, evlənməyə də razıyam, ancaq bir şərtim var".

Şairlər şairi az qaldı ki, durduğu yerdəcə yıxılsın. Özünü güclə toparlayıb:

– Nə şərti var? – dedi.

– Deyir ki, evlənəndən sonra Şamaxını bir də tərk etməyəcək.

– Bəs sən nə dedin?

– Dedim ki, razıyıq.

– Mənim rəyimi öyrənmədən?

– Dadaş, sən rəyini gəldiyin gün bildirdin, dedin ki, evlənəcəksən. Bir də sənin üçün Hələb müridləri əzizdir, yoxsa Hüsniyyə?

Seyid Əli indi birdən-birə gördü ki, qardaşı başına örpək örtüb, odur ki, təəccüblə soruşdu:

– Bu nədir?

– Bəs Səlminaz xanımın qəsrinə xəlvəti necə gedib-gələ bilərdim?

Şairlər şairi ufuldadı:

– Daha sənə sözüm yoxdur. İndi əhvalat necə olubsa, danış.

– Deməli, səhər-səhər bir qız uşağı – məlumun olsun ki, bu qız uşağı mənəm – Səlminaz xanımın qəsrinin qapısını döyür. Qapını yekəpər nökər açıb təəccüblə soruşur:

– Ay qız, nə var? Kim lazımdır?

– Hüsniyyə xanım üzük sifariş vermişdi, onu gətirmişəm.

– Hanı, ver görüm.

– Verə bilmərəm. Tapşırıblar ki, ancaq özünə ver.

Nökər "qızın" üzünə, üst-başına baxır. Sonra:

– Yaxşı, burda gözlə, – deyib gedir.

Hüsniyyə xanım otağında saçlarını darayırmış. Qapı döyüləndə:

– Kimsən, gəl, – deyir.

Nökər:

– Xanım, bir qız uşağı sizin sifariş verdiyiniz üzüyü gətirib, – deyir.

Hüsniyyə əvvəlcə:

– Üzük? Nə üzük? – desə də, sonradan məsələnin nə yerdə olduğunu başa düşüb deyir: – Hə, hə, yadıma düşdü, de ki, gəlsin.

Nökər – adı Balamirzə imiş – gedir, bir az sonra qapı açılır, "qız" içəri girir.

Şahxəndan birdən-birə söhbətin üslubunu dəyişdi:

– Hüsniyyə o dəqiqə mənim oğlan olduğumu hiss etdi və gülə-gülə dedi: – Səni tanıdım, Seyid Əlinin yanında olan oğlansan. Bəlkə qardaşısan, hə?

– Bəli, xanım, – dedim. – Sizə aşiq olan Seyid Əli İmadəddin Nəsiminin qardaşı Şahxəndan hüzurunuzdadır.

Hüsniyyə xanım qəşş edib güldü.

– O Şahxəndan ki, – dedim, – qardaşının sizə həsr etdiyi qəzəllərin üzünü köçürməkdən barmaqları qabar olub.

Hüsniyyə xanım yenə qəşş eləyib güldü. Dedim:

– Xanım, yaxşı bilirsiniz ki, qardaşım hələ mədrəsədə oxuyarkən sizi sevib. Hələbdən də Şa-

maxıya yalnız sizi görmək arzusu ilə gəlib. Dünən qəbiristanlıqda sizi görəndən sonra halbahal oldu. Düşünürəm ki, görüşsəniz, pis olmaz. Doğrudur, hər ikiniz cavansınız, buna baxmayaraq, Leyli-Məcnun olmaq dövrünüz keçib. Ümid edirəm ki, ağıl yardımçınız olacaq. Nə vaxt, harada görüşməyi bir məktubla çatdıra bilərsiniz...

Sonra ayağa qalxıb, örpəyimi bağladım, qapıdan çıxanda Səlminaz xanımla üz-üzə gəldim.

– Boy, bu qız kimdir? – Səlminaz xanım təəccübləndi.

Mən səsimi incəldib dedim:

– Salam və xudahafiz.

Cəld həyətə düşdüm. Qapıdan çıxanda nökər arxamca bir xeyli baxdı, dönüb ona da əl elədim.

– Hə, – deyə şairlər şairi başını yırğaladı. Hiss olunurdu ki, gərgindir. Birdən soruşdu: – Bəs Gülnaz xaladan nə xəbər?

– Yəqin, indilərdə gələr.

Axşama kimi Gülnaz xaladan yenə səs-soraq çıxmadı. Axırda Şahxəndan əlacsız qalıb onlara getdi. Aradan bir az keçmişdi ki, balaca bir qız uşağı həyət qapısını açıb içəri girdi. Qaçalan hürdü. Seyid Əli itə acıqlanıb qıza sarı gəldi:

– Bala, kimsən, nə istəyirsən?

Qız soruşdu:

– Əmi, siz Seyid Əlisiniz?

– Bəli.

Qız qoynundan bir kağız çıxartdı:

– Alın. Hüsniyyə xanım göndərib.

Nəsiminin boğazı qurudu. Kağızı alıb:

– Sağ ol, – dedi və evə tərəf gedə-gedə dönüb geri baxanda qızın uzaqlaşdığını gördü. Kağızı açdı. İri hərflərlə yazılmışdı: "Sabah, yəni, çərşənbə axşamı qaranlıq düşəndə Hacı Veysəlin arvad hamamının arxasındakı qırmızı kərpicli evin qapısını taqqıldadarsan". Vəssalam. Cəmi-cümlətanı bir cümlə, heç bir imza da yox...

Şamaxıya axşam düşürdü. Hacı Əzimin azan səsi yenə məhəlləni başına götürmüşdü və şairlər şairinə elə gəldi ki, göydə axışan qırmızı bulud karvanı deyil, Hüsniyyənin təxti-rəvanıdır. Budur, o, yəni, Yer üzünün qənirsiz gözəli təxti-rəvandan düşüb ona sarı gəlir, pilləkənlər isə qurtarmaq bilmir ki, bilmir. Nəhayət, günəş batdı və qızıl donlu xəyal əriyib yox oldu...

Bəlkə bütün bunlar Suriya səhralarında dəvə

belində gördüyü yuxulardan biridir? Yox, kağız parçası – məktub əlində idi və o, qeyri-ixtiyari pıçıldadı:

*Zərquriyadan oldu yoxsul əgər Nəsimi,*
*Yarın məhəbbətindən gör kim nə möhtəşəmdir.*

Bu vaxt qapı açıldı və Şahxəndan tövşüyə-tövşüyə içəri girdi. Nəsimi xəyaldan ayrıldı:

– Nə oldu, Gülnaz xalanı görə bildin?

– Hə, oğlu ilə şam edirdi.

– Allaha çox şükür! Neçə gündür harda imiş?

– Sabah özü gəlib danışacaq.

– Vəssəlam?

– Ta nə olasıdı ki?

Şahxəndan qardaşının əlindəki kağızı görüb dedi:

– O nədir?

Şairlər şairi gülümsədi. Şahxəndan yenə soruşdu:

– Hüsniyyədən məktub gəlib? Ver baxım...

Şairlər şairi əlindəki məktubu Şahxəndana verdi.

Şahxəndan məktubu oxuyub güldü:

– Gördün? Elçiliyi də bacarır. Amma bilmirəm Şirvan şairləri bunu necə həzm edəcəklər. Nə qədər gizlətsək də, əvvəl-axır biləcəklər.

– İş-işdən keçəndən sonra qorxusu yoxdur.

– Yox, dadaş, paxıllıq heç vaxt ölmür. Ölür e... ancaq sahibi ilə bir yerdə.

– Mənim paxıllıq çəkənlərim şairlərdilər, çoxdular... Təsəvvür et: Şamaxıda hər üç pinəçidən, hər üç dəlləkdən, hər üç kisəçidən biri şairdir.

– Dadaş, sənin hürufiliyin mənim də heç xoşuma gəlmir.

– Niyə? Birinci dəfədir səndən belə söz eşidirəm.

– Vallah, tamam mənasız şeydir. Mən Qurani-Kərimin üzünü o qədər köçürmüşəm ki, az qala, bütün ayətlərini əzbər bilirəm. Orda heç bir yerdə yazılmayıb ki, insanın üzündə Allahın adı nəqş olunub.

Şairlər şairi hirsindən qızardı.

Şahxəndan davam etdi:

– Yazırsan ki, guya, insanın üzündə yeddi xətt var: iki qaş, dörd kirpik, bir saç. Hə, nə olsun? Sonra bığ, saqqal, çənə, dodaq... Vallah, gülməlidir.

Şairlər şairi gülümsündü və pıçıltıya bənzər bir səslə dedi:

– Balası, yazılanlar yazılıb və məğribdən məşriqə yayılıb...

Elə bu vaxt qapı açıldı və Gülnaz xala içəri girdi. Şahxəndan qaçıb kətil gətirdi:

– Xala, əyləş, bir əməlli-başlı danış görək neçə gündür hardasan?

Gülnaz xala nəfəsini dərib dedi:

– Məni də, yetim balamı da gözübağlı vəziyyətdə faytona mindirdilər. Hara aparıldığımızı bilmədik. Aparanlar kimlərdi, yenə bilmədik. Üzü niqablı adamlar idi.

Şahxəndan həyəcanlandı:

– Bəs niyə qışqırıb hay-küy salmadınız?

– Xəncəri böyrümə dirədilər, özü də dedilər ki, cınqırını çıxarsan, səni də, oğlunu da öldürəcəyik. Amma dediyimizə əməl eləsən, heç nə olmamış kimi qayıdacaqsan evinə.

– Yaxşı, səndən tələbləri nə idi ki? – Şahxəndan bir də soruşdu.

– Seyid Əliyə çatdırım ki, əgər Hüsniyyə ilə evlənmək fikrinə düşsə, öldürüləcək.

Şahxəndan təəccüblə:

– Elə bu? – dedi.

– Hə, başına dönüm.

– Evdə də deyə bilərdilər bunu.

Şairlər şairi fikirdən ayıldı:

– Yox, istəyiblər ki, həm Gülnaz xalanı, həm də bizi qorxutsunlar, güclərini göstərsinlər... Mən bu məsələni ya müsəllim Müqtədir Oğuza, ya da İbrahim şahın özünə çatdırmalıyam ki, tədbir görsünlər. Çünki bu, yaxşı şeyə oxşamır.

Səhəri gün Seyid Əli bir fayton tutub saraya yollandı. O, yol boyu elə hey öz-özünə deyinirdi: "Sabah elə Hüsniyyəni də bu cür tutub apararlar..."

Faytonçu şairlər şairinin öz-özünə danışdığını eşidib, arabir çönüb arxaya baxırdı, amma, təbii ki, heç nə demirdi...

Seyid Əli saray darvazasının qabağında faytondan düşdü. Gözətçilər onu görən kimi:

– Şair gəldi, şair gəldi! – deyə bir-birlərinə xəbər verdilər.

Nəhayət, içəridəki baş nəzarətçinin işarəsi ilə darvaza açıldı, müşavir Dərbəndinin uzunsov başı göründü. O, həqiqətən də, gələnin Seyid Əli olduğu-

nu görəndən sonra yanında hazır dayanmış sərbaza işarə etdi.

Seyid Əli içəri girib, mərmər pilləkənlərlə üzüyuxarı qalxmağa başladı. Müşavir Dərbəndi bir kəlmə belə kəsmədən onu qəbul otağının məsul nəzarətçisi Məlik Qızılbaşa təhvil verdi. O, qonaqdan gözləməyi xahiş edib içəri girdi.

Başdan-başa Şirvan xalıları döşənmiş böyük otaqda İbrahim şah kiçik nərdivanla çıxıb rəfdəki kitablara baxırdı. O, qapının aralandığını görüb nərdivandan endi:

– Məlik Qızılbaş, gəl görüm nə olub? – dedi.

– Şah sağ olsun, İmadəddin Nəsimi gəlib.

– Nə əcəb belə tezdən?

– Deyir, təcili deyiləsi sözü var.

– Yaxşı, qoy gəlsin.

Məlik Qızılbaş İmadəddin Nəsimiyə dedi:

– Buyur keç, İbrahim şah həzrətləri səni gözləyir.

İmadəddin içəri girən kimi İbrahim şah soruşdu:

– Xeyirdimi, şair?

Seyid Əli yüngülcə təzim edib dedi:

– Əlahəzrət, vallah, mən bilmirəm neyləyim.

– De görüm axı nə olub?

– Dünən qulluqçumuzu oğurlayıblar...

– Nə? Nə?

– Oğlunu da oğurlayıblar... Gözlərini də bağlayıblar ki, hara aparıldıqlarını bilməsinlər...

– Bəs sonra?

– Sonra qulluqçunu da, oğlunu da buraxıblar.

– Məqsədləri nə imiş?

– Mənim Şamaxını tərk etməyimi tələb ediblər.

– Deməli, belə...

İbrahim şah bunu deyib acıqlı halda üzünü qapıya tərəf tutub çığırdı:

– Məlik, bu dəqiqə müsəllim Müqtədir Oğuzu hüzuruma çağır!

Qapının ağzında dayanmış Məlik Qızılbaş:

– Baş üstə! – deyib getdi.

İbrahim şahın sifəti birdən-birə mehribanlaşdı, Seyid Əli İmadəddin Nəsiminin qoluna girib, onu kitab rəflərinə sarı apardı:

– Bir az əvvəl, yəni, sən gəlməmişdən suriyalı Əbül Fərəcin kitabını axtarırdım. Çox ağıllı və hazırcavab mütəfəkkirdir. Bilmirəm, bələdliyin var, ya yox?


ARif



– Var. Hətta Hələbdə onun xələflərindən biri ilə görüşmüşəm də.

İbrahim şah heyrət içində dedi:

– Eləmi? Xoşbəxt adamsan! Yəqin ki, böyük sələfi kimi, o da çox müdrik və hazırcavab adamdı, hə?

– Bəli, çox hazırcavab adamdı.

İbrahim şahla Seyid Əli Hələb və Şam mütəfəkkirləri barədə söhbət edə-edə yavaş-yavaş çölə açılan qapıya tərəf getdilər və yarımdairəvi, üstüörtülü bir eyvana çıxdılar. İbrahim şah dedi:

– Yaxşı gəlmisən. Birlikdə təam edərik. Süfrə hazırdır.

– Şah sağ olsun, mən elə indicə qəlyanaltı etmişəm...

– Belə tez? Özü də subay oğlan... – Sonra amiranə tərzdə: – Əyləş! – dedi.

Seyid Əli əyləşdi. Elə "Bismillah" deyib əllərini süfrəyə uzatmışdılar ki, qapı açıldı və Məlik Qızılbaş göründü:

– Əlahəzrət, müsəllim Müqtədir Oğuz qulluğunuzda müntəzirdir.

– Qoy gəlsin.

İbrahim şah bunu deyib üstünə yağ-bal sürt-

düyü çörək tikəsini ağzına aparanda şairlər şairi keçmiş əkinçinin əlində hələ də qabar izinin qaldığını görüb təəccübləndi. Çünki bu neçə ildə o bu qabarın əriyib getməsinə asanlıqla nail ola bilərdi. Deməli, o, keçmişdə rəncbər olmasından qətiyyən utanmırdı...

İbrahim şah ağzındakı tikəni çeynəyə-çeynəyə tələsmədən dedi:

– Mənim Əbül Fərəcin çox lətifəsindən xoşum gəlir. Birini xüsusilə tez-tez yadıma salıb gülürəm.

Şairlər şairi onun hansı lətifəni nəzərdə tutduğunu bilsə də – O hansı lətifədir? – deyə maraq içində soruşdu.

Bu vaxt müsəllim Müqtədir Oğuz içəri girdi. İbrahim şahın üzündəki təbəssüm bir anda yox oldu. O, qəzəbindən kükrədi:

– Heç bilirsən şəhərində nələr baş verir?

Müsəllim Müqtədir Oğuz çox sakit bir tərzdə:

– Əlbəttə, şahım, – dedi.

– Eləmi? Onda de görüm...

– İmadəddin Nəsimiyə qarşı sui-qəsd təşkilatı yaranıb.

İbrahim şah kinayə ilə:

– Sən də durub qıraqdan seyr edirsən, hə?

Gözləyirsən ki, bir gün sənin özünü də oğurlayıb aparsınlar?

– Xeyr. Onları bir qədər qabağa buraxdım ki, kim olduqlarını öyrənim.

– Öyrəndinmi?

– Öyrəndim.

– Kimlərdir?

– Şair Bəhluli, Rouşan Yaqbu, Qulaməli, Qaim Şirvani, Tacəddin Şirvani, Əhməd Kəsirəddin, Molla Xəlil, dəllək Zəbani, falçı Yusif Səbai, lotu İsfəndiyar Qutluk, iki gündür Bakidən gəlib onlara qoşulan şair Abdulla Kamil.

– Aha, – deyə İbrahim şah əsəbi halda dilləndi. – Əgər bu gün bu adamlar Şirvanın ən böyük şairinə qarşı belə fitnə-fəsad törədirlərsə, kim zəmanət verə bilər ki, sabah daha pis işlər görməyəcəklər? Sən bunları niyə həbs edib zindana atmırsan?

Bu yerdə, deyəsən, müsəllim Müqtədir Oğuzun səbri tükəndi, amma o, bunu rənginin qızarmağından başqa heç nə ilə büruzə verməyib, sakit tərzdə dedi:

– Əlahəzrət, onların arasında mənim casuslarım var. Niyyətlərindən dərhal xəbər tuturam.

– Çox gözəl. Onda de görüm növbəti niyyətləri nədi?

– Onların, hələlik, əsas niyyətləri şairin sevdiyi xanımla evlənməsinə imkan verməmək və şəhəri tərk etməsinə nail olmaqdır. Bunu xüsusilə Baki şairləri adından Abdulla Kamil tələb edir.

İbrahim şah bu sözdən sonra Seyid Əli İmaddin Nəsimiyə tərəf dönüb gülümsəyə-gülümsəyə dedi:

– Deməli, evlənməyə hazırlaşırsan? Xeyirli olsun. Bəri başdan deyim ki, ağıllı iş görürsən.

Şairlər şairi yüngülcə qızardı. İbrahim şah gözünü ondan çəkmədən:

– Çox yaxşı, çox gözəl! – dedi. Sonra təzədən müsəllim Müqtədir Oğuza tərəf dönüb, yenə sərt bir şəkildə dedi: – Elə bu gün şairə sui-qəsd hazırlayanların hamısını zindana atırsan. Ayaqlarını da kündələyirsən, heç kimi də yanlarına buraxmırsan.

Müsəllim Müqtədir Oğuz təzim etdi:

– Baş üstə! Bu gecə hamısı həbs olunacaq.

– Gecə niyə? Gündüz həbs etmək olmaz ki?

– Şah sağ olsun, indi onların hərəsi bir yerdədi, axtarmaq, tapmaq, qovmaq, tutmaq... camaat rəncidə olar... Gecə isə səssiz-səmirsiz...

– Yaxşı, əməliyyat qurtaran kimi mənə xəbər ver.

– Baş üstə!

– Gedə bilərsən, – sonra üzünü Seyid Əliyə tutdu: – Şair, səncə, bu Qara Yusiflə Miranşahın davası hələ çox çəkər?

– Yəqin ki...

– Vay... Vay... Vay... xəzinədə pul qalmır ey... Yaxşı, əcnəbi elçilərlə görüşüm olmasaydı, oturub doyunca söhbət edərdik. Amma bizi toya dəvət etməyi unutma.

Şairlər şairi güldü:

– Şah sağ olsun, bu yaşda nə toy?

– Bax da...

Seyid Əli axşam qaranlığında Hüsniyyənin nişan verdiyi evin qapısını tıqqıldadanda canından xoş bir gizilti keçdi və içəridən tanış səs gəldi:

– Kimsən?

– Mənəm – Seyid Əli.

Qapı azca aralandı.

Onlar lap gənc sevgililər kimi görüşdülər. Şam işığında kölgəsi güclə seçilən masanın ətrafında üzbəüz əyləşdilər. Beləcə, dinib-danışmadan bir-birlərinə baxdılar. Şairlər şairi başını göyə qaldırıb nəsə dedi. Hüsniyyə soruşdu:

– Öz-özünə nə danışırsan?

– Allaha şükür edirəm ki, illər boyu gördüyüm yuxu, axır ki, çin oldu. Və bir də Allaha şükür edirəm ki, səni hələ bu qədər gənc və gözəl ikən mənə qismət elədi.

– Hə, deməli, qoca olsaydım, sevməyəcəkdin?

– Lap yüz yaşında olsaydın da, sevəcəkdim. Sadəcə:

*Sən mənə, dilbər, yetərsən, özgələr yar olmasın,*

*Bir olur yar, iki olmaz, zinhar olmasın.*

*Bağrımı doğrar fərağın xari, ey cənnət gülü,*

*Novbahar olsun, gül olsun, arada xar olmasın.*

– Sonra? – Hüsniyyə xoşbəxt-xoşbəxt gülümsədi.

*Mənə ol dəm naz ilə baxdı gözün,*
*Hicr oduna canımı yaxdı gözün,*
*Adımı məlamətə taxdı gözün,*
*Razimi aləmlərə çaxdı gözün.*

– Sonra?

*Könlümü yağmaladı şol alı çox,*
*Şol qızılgül rəngi gülgün, alı çox,*
*Zülfünün  sirri uzundur, halı çox,*
*Şol şəkər sözlu dodağın balı çox.*

– Sonra? – Hüsniyyə uşaq kimi inad etdi.

*Ey təbibi-haziqü nazik mizac,*
*Sən bilirsən xəstə könlümə əlac.*
*Mən könül ilə sənə qul olmuşam,*
*Şivə ilə nazinə nə ehtiyac?*

– Elə bu? – deyə Hüsniyyə qəhqəhə çəkdi.

*Ol camalın afitabi-layəzal,*
*Ey dodağın çeşmeyi-abi-zülal.*
*Bərəkallah, ey həbibi-xoşvüsal,*
*Yolunda canım fəda, qanım halal.*

– Yaxşı, ey qoca aşiq, de görüm, indi nə edəcəyik? Bütün Şirvanı özünə düşmən eləmisən. Harda bir yurd qurub, bir ocaq qalaya bilərik?

– Şahın əmri ilə bu gecə bütün düşmənlərimi zindana salacaqlar.

– Bütün düşmənlərini? Heç bilirsən onlar nə qədərdi? Qorxuram ki, zindanlar onları tutmasın. Səlminazın əlaltıları hər gün məscidlərdə, hüzr yerlərində, alış-veriş meydanlarında gedən söhbətləri bizə çatdırırlar.

Seyid Əli gözünü şam ətrafında fırlanan və yanıb külə dönən pərvanələrdən ayırıb dedi:

– Eybi yoxdur. Bir şey fikirləşərik. Kəbinimizi kəsdirək...

– Nə vaxt?

– Elə bu gün.

Hüsniyyə tərəddüd etdi:

– Bilmirəm necə olacaq? Yaman qorxuram. Bəlkə, – o, zənn ilə şairin qaranlıqda da həyəcanı hiss olunan üzünə baxdı, – Dərbəndə gedək? Orda bizim qohumlarımız olurlar. Ev-eşik də var.

– Dərbənd, Şamaxı, Baki... Nə fərqi var?.. Mən qorxuram ki, daha uzaq yerlərə getməli olaq... Amma hələ tələsməyək, görək İbrahim şah neyləyir...

O, Hüsniyyənin üzünə baxdı və əlavə etdi:

– Məgər sən də mənim kimi düşünmürsən? Bir yerdə olsaq, hara olur-olsun, vətən deyilmi?

– Yaxşı, razılaşdıq. Mənim şahidim var, sən də sabah bu vaxt şahidin və molla ilə gəl...


ARIF



Şair Qaim Şirvani yarımdairəvi şəkildə əyləşmiş məclis üzvlərini gözdən keçirib, əyləşmək üçün elə "bismillah" demək istəyirdi ki, həyətdə it bərkdən hürməyə başladı. Hamı qulağını şəklədi. İt nəinki kiridi, əksinə, get-gedə səsini daha da qaldırdı. Qaim Şirvani dəhlizə tərəf getdi və qapını azca araladı – içəriyə Rəbiyyə xatunla qalın səsli bir adamın danışığı gəldi. Bir an sonra Qaim Şirvani ilə həmin qalın səsli adamın höcətləşdiyi hiss edildi və qəfildən otağa dolan sərbazlar içəridəkilərin əl-qollarını arxadan bağladılar. Səs-küy və etiraz sədalarını müsəllim Müqtədir Oğuzun amiranə səsi pozdu:

– Hamınız dövlətə qarşı fəaliyyət göstərən gizli ittifaq üzvləri kimi həbs olunursunuz!

– Biz bura dövlət əleyhinə iş görmək üçün yığılmamışıq, – yer-yerdən etiraz səsləri yüksəldi.

– Bəlkə deyəsiniz ki, namaz qılmağa yığışmısınız, hə?

Müsəllim Müqtədir Oğuzun dəhşət saçan gözləri, az qala, hədəqəsindən çıxacaqdı:

– Abdulla Kamil, bəlkə Bakidən bura qəzəl oxumağa gəlmisən, xəbərimiz yoxdu?

Rəngi ağappaq ağarmış bakili şair Abdulla Ka-

mil yerindən tərpənmədiyinə görə sərbaz arxadan onu itələdi. O:

– Bəli, elədir, biz şeir məclisinə yığışmışıq.

– Şeir məclisinə? – müsəllim Müqtədir Oğuz az qaldı ki, uzun barmaqlarını onun gözlərinə soxsun. – Bəri gəl! Əlini əbanın altındakı cibinə sal, görüm orda nə var?

– Baş üstə... qəpik-quruş... başqa heç nə...

– Bəs o kağız? Ver görüm...

– Mən bu kağızı birinci dəfədir görürəm.

– Bəlkə gecə arvadın qoyub cibinə, yuxulu olmusan, bilməmisən.

Müsəllim Müqtədir Oğuz yanında dayanmış burnuəzik yekəpər sərbaza tərəf dönüb dedi:

– Bəkir!

– Eşidirəm.

– O birilərini zindana, bunu isə dar ağacına!

Abdulla Kamil bağırdı:

– Vallah, mənim o kağızdan xəbərim yoxdur! – Və hönkür-hönkür ağlamağa başladı.

Müsəllim Müqtədir Oğuz bakili şairi aparan sərbaza tərəf dedi:

– Dayan! – Sonra Abdulla Kamilə yaxınlaşdı. – De görüm Şamaxıya niyə gəlmisən?

– Doğrudur, mən bura bir niyyətlə gəlmişəm. Amma Qurana and olsun ki, dövlətlə heç bir işim yoxdur.

– İndicə dedin ki, bir niyyətlə...

– Hə, hamı hansı niyyətlə gəlibsə, mən də...

– Nədi o niyyət?

– Kafir İmadəddin Nəsimini didərgin salmaq, ya da qətlə yetirmək...

Müsəllim Müqtədir Oğuz Abdulla Kamilin üzünə karlı bir şillə vurdu:

– Ə, düdük, sən kimsən ki, çölə atılan bir dırnağı belə ola bilmədiyin adam – şairlər şairi haqqında ölüm hökmü çıxarasan? – Sonra üzünü sərbaza tərəf tutdu: – Bunu da aparın zindana!

Seyid Əliyə sui-qəsd təşkil etmək istəyənlər əli-qolu bağlı halda küçəyə çıxarılanda, üstüörtülü arabalara mindiriləndə məlum oldu ki, lotu Kamal Məruf sivişib aradan çıxıb.

– Necə sivişib aradan çıxıb? – müsəllim Müqtədir Oğuz elə bağırdı ki, qorxusundan sərbazın nitqi qurudu. – Bu dəqiqə hər yeri axtarın! O, içəridə bizə çox lazım olacaq!..

Ertəsi gün axşam Səlminaz xanımın Hacı Veysəlin arvad hamamının yaxınlığındakı mənzilinin qabağında bir fayton dayandı. Faytondan üç nəfər düşdü. Bunlardan biri Şamaxı qazısı Əbdülvahab, biri məşhur tacir və oxatan Qara Qaplan Səkmən, biri də şairlər şairi Seyid Əli İmadəddin Nəsimi idi. İçəridə iri şam işığında gözləri və çöhrələri parıldayan iki qadın oturmuşdu: biri şəhərin dövlətli xanımlarından Səlminaz xatun, o biri isə həm gözəlliyi ilə, həm ailəsinin başına gələn acı fəlakətə görə tanınan Hüsniyyə xatun idi.

Qonaqlar salam verib içəri girəndə xanımlar ayağa qalxdılar.

Qazı Əbdülvahab:

– Əhsən əl-xaliqüllah! – deyib, şam işığında güclə sezilən bir təbəssümlə gülümsündü. Hüsniyyə qırmızı atlas yaylığı ilə yaşmaq vurdu. Qara Qaplan Səkmən nədənsə gözlərini qırpmadan Səlminaz xatuna baxırdı, axırda Seyid Əli İmadəddin Nəsimi məcbur olub onu dümsüklədi.

Masanın üstünə Qurani-Kərim, iri bir sərnic şərbət və beş büllur qədəh qoyulmuşdu.

Nəhayət, Qara Qaplan Səkmən dilləndi:

– Qazı həzrətləri, buyurun!

Qazı Əbdülvahab masanın üstündən kağız-lələk götürdü, "Bismilləhir-rahmənir-rahim" deyib, əvvəlcə Hüsniyyəni, sonra da Seyid Əlini sorğu-suala tutdu və nəsə yazmağa başladı. Otaq elə səssiz idi ki, kağız üstə hərəkət edən lələyin xışıltısından və adamların nəfəsindən başqa heç nə eşidilmirdi.

Qazı Əbdülvahab sual-cavab əsasında vərəqi doldurdu, masanın ətrafında əyləşənlərin hamısına bir-bir qol çəkdirdi və üstünə də üzüyündəki möhürü basdı, bununla da Hüsniyyə ilə İmadəddin Nəsimini ər-arvad elan etdi.

Qara Qaplan Səkmən "Mübarək olsun!" deyib, qədəhlərə şərbət süzdü. Hamı növbə ilə bəylə gəlinə xoşbəxtlik və uzun ömür arzuladı. Sonra Seyid Əli ilə Hüsniyyə əl-ələ tutub qapıdan çıxdılar, küçədə dayanmış digər bir faytonda yan-yana əyləşdilər. Yerdə qalanlar əl edə-edə fayton gözdən itənə qədər onların arxasınca baxdılar. Sonra qazı Əbdülvahab ilə Qara Qaplan Səkmən Səlminaz xatunla xudahafizləşib, gəldikləri faytona mindilər və tamamilə başqa bir istiqamətə üz tutdular.

Səlminaz xatun qapını kilidləyib bir az aralıda kölgə kimi dayanmış nökəri çağırdı və onunla bir yerdə evlərinə sarı getdi.

Və həmin bürkülü yay gecəsində Şamaxının balaca evləri bir-birinə qısılıb yatırdı. İtlərin hürüşməsindən, əlində məşəl küçədən keçən tək-tük

adamların səsindən savayı bu qədim, böyük şəhərdə heç nə eşidilmirdi...

Şamaxı narahat və həyəcanlı günlər yaşayırdı. Artıq neçə vaxt idi ki, Şamaxı və Baki şairlərinin müraciətinə əsasən buraya Təbrizdən, Ərdəbildən, Zəncandan dəstə-dəstə adamlar gəlirdi. Həmin müraciətdə yazırdılar:

*"Əziz bəradərlərimiz, böyük yurdumuzun şair, qəzəlxan, mərsiyəxan və meyxanaçıları. Neçə illərdi ki, Şamaxıda üzdəniraq bir şair peyda olub, öz kafir əşarı ilə nəinki müqəddəs dinimizə, hətta Allah və peyğəmbərimizə hədyanlar yazıb hər yerdə xalqın ruhuna rəxnə salır. Bu yaramaz şairlərimizin müqəddəs ənənələrinə arxa çevirib, fars dilində deyil, gəda və hambalların dili olan türk ləhcəsində yazır. Bu məlun İbrahim şahın rəğbətindən istifadə edib küfr dolu şeirlərini ölkəmizdə yayaraq, hər yerdə mədrəsə əhli olan şagird və tariblərin dilini və əxlaqını pozur. Buna son qoymaq üçün harada olsanız da, təcili başınızı orada isladıb, Şamaxıda qırxdırın. Aman günüdür, özünüzü bizə çatdırın. Zülhiccə ayının düşənbə günündə bu məlunun evinə yürüş edib onu Şirvan, Baki və Gəncə mahalını tərk etməyə məcbur edək.*

*İmza: bütün Şirvan şairləri".*

Məktub çaparlar vasitəsilə Azərbaycanın bütün mahallarına yayıldı və çox keçmədi ki, hər yerdən qafiyəpərdazlar dəstə-dəstə Şamaxıya axışmağa başladılar.

Bədbəxtlikdən İbrahim şah bu zaman həcc ziyarətinə getmişdi. Əlbəttə, saray əyanları nə baş verdiyindən xəbərdar idilər. Amma müsəllim Müqtədir Oğuz heç bir tədbir görməyib, bu işə barmaqarası baxırdı...

Seyid Əlinin Hüsniyyəni evə gətirməsindən iki həftə keçmişdi ki, axşam qapı bərkdən döyüldü.

Şahxəndan:

– Kimdir? – deyə qapıya tərəf getdi.

– Mənəm – Qara Qaplan Səkmən.

Şahxəndan qapını açdı və Qara Qaplan Səkmən yüyənindən darta-darta atını həyətə saldı. Salam-kalamdan sonra:

– Seyid Əli hardadı? – dedi.

– Evdədir.

– Çağır gəlsin.

Şahxəndan evə girdi və bir neçə dəqiqədən sonra qardaşı ilə qayıtdı.

Qara Qaplan Səkmən başını bulaya-bulaya:

– Pis xəbər var.

Seyid Əli soruşdu:

– Nə olub?

– Bakinin, Şirvanın, Gəncənin, Qarabağın, Göyçənin bütün şairləri Şamaxıya gəliblər. Sarıtorpağın bütün həyətləri, evləri adamla dolub. Tərs kimi, İbrahim şah da həcc səfərindədir... Qorxuram ki, o gələnə kimi...

Seyid Əli çarəsiz halda Qara Qaplan Səkmənin üzünə baxdı:

– Səncə, mən nə etməliyəm? Müsəllim Müqtədir Oğuz nə deyir?

– Deyir, bu qədər adamın qabağını alsaq, qan su yerinə axar. Həm də İbrahim şahın izni olmadan hərəkət etmək istəmir...

Şairlər şairi fikrə gedib dodaqaltı pıçıldadı:

*Çün bu yalançı dünyanın aqibəti fəna imiş,*
*Qaç hamıdan, ey Nəsimi, baxma onun səfasına.*

Su ilə dolu sərnic Şahxəndanın əlindən yerə düşdü. Qara Qaplan Səkmən dedi:

– Heyif... Suyu niyə yerə dağıtdın?.. Əl-üzümüzü yuyardıq, içərdik... Yanıram...

Şairlər şairi dedi:

– Belə çıxır ki, paxıllar ordusu qalib gəldi, hə?

– Hə! Amma həmişəlik yox. Müvəqqəti.

Şairlər şairi birdən Şahxəndanın üzünə baxdı:

– Balası, – dedi, – bəlkə sən də bizimlə gedəsən?

– Yox, dadaş, yox!

Qara Qaplan Səkmən Şahxəndanı qucaqladı:

– Buna görə narahat olma. Mən yanındayam... Bir dəvəniz var, bir dəvə də mən gətirdim, çöldə otlayır... Amma sənin dəvən gözümə bikef dəydi. Deyəsən, qocadı.

– Yox, cavandı. Yəqin, Hələbin xiffətini eləyir. Nə vaxt çıxırıq?

– Elə bu gecə, səhərə yaxın, cümlə-aləm yuxuda ikən...

Şahxəndan kövrəldi:

– Gec-tez belə olacağını bilirdim. Özün də şeirlərində neçə dəfə yazmısan – paxıllar məğlubedilməzdir! Bir də, düzünə qalsa, daim təhlükə və hədə altında yaşamaq da bir şey deyil. Bir an yaşa – azad yaşa!

– Balası, qəm yemə, həmişə belə olmayacaq ki, fürsət düşən kimi gələcəyəm...

Seyid Əli evə qalxanda Hüsniyyə dedi:

– Bu nə dəvədi?

– Heç, Qara Qaplan Səkmən mənə hədiyyə gətirib.

– Elə bilirsən başa düşmürəm? Bizi Şirvandan qovurlar!

Seyid Əli naəlac qalıb dedi:

– Hə, qovurlar. Neyləyə bilərik?

– Bəs İbrahim şah harda ölüb? Bəs müsəllim Müqtədir Oğuz harda itib-batıb?

– Əsəbiləşmə. Olan işdir. İbrahim şah burda yoxdur. Lap olsa da, bizi nə vaxtacan qoruyacaq? Bir deyil, yüz deyil, min deyil, ölkənin bütün cahilləri yığışıb gəlib, sabah evimizə hücum edəcəklər...

Hüsniyyə hıçqırdı. Nəsimi onun saçını tumarlayıb dedi:

– Mən, onsuz da, bir yerdə qala bilmirəm. Bura da səni, Şahxəndanı görmək üçün gəlmişdim. İnan ki, Şirvandan da elə-belə – Allah ümidinə çıxıb getmirik. Anadolunun hər yerində, Şamda, Hələbdə,

lap Misirdə çoxlu dostlarım var – qapıları həmişə üzümüzə açıqdır! Sultanlar gəlişimizə şad olacaqlar. Elə bilmə ki, mən səni dilə tuturam. Əsla! İndi gəl yerimizi sal, yataq. Sübh tezdən yola düşməliyik...

1409-cu ilin avqust ayının onunda sübh çağı, o vaxt ki hələ yol-iz aydın görünmür və yalnız məşriq səmasında üfüqün kiçik bir hissəsini ağ bir halə bürüyür, Şamaxının Seyidlər məhəlləsindən uzanan yolda iki dəvə kölgə kimi ağır-ağır uzaqlaşırdı.

Dəvələrin belində gedənlər XV əsr Şərqinin ən qüdrətli şairi Seyid Əli İmadəddin Nəsimi və onun zövcəsi Şamaxı gözəli Hüsniyyə idi.

Qapıda dayanıb hönkür-hönkür ağlayan on beş yaşlı yeniyetmə isə şairlər şairinin yeganə qardaşı, Şamaxıda qalan nəslinin son yadigarı Şahxəndan idi.

Əslində, Seyid Əli İmadəddin Nəsimi Şamaxıdan qalib kimi ayrılırdı. Çünki cahillər onun Hüsniyyə ilə evlənib xoşbəxt olmasına mane ola bilməmişdilər və bu səfərdən xəbərsiz idilər.

Şahxəndan isə, ondan ötrü ağlayırdı ki, qardaşının üzünü bir daha görməyəcəyi ürəyinə dammışdı. Bu səfər – son səfər idi!..

Seyid Əli İmadəddin Nəsimi bu qədər dərdi, nisgili olmasına rəğmən xoşbəxt idi. Çünki ata oca-

ğından, qardaşından ayrı düşsə də, xoşbəxtliyi insana bəxş edən dörd ünsürün dördü də onunla bir yerdə idi: sevgi, şöhrət, hörmət və nəhayət, Vətən!

Bəli, doğma Azərbaycan dilinin timsalında Vətən daim onunla idi...

***Oktyabr 2018 – yanvar 2019-cu il***

**Hüseynbala Fazil oğlu Mirələmov**

# Son səfər

Bakı – "**APOSTROF-A**" – 2019

İllüstrasiyaların müəllifi
**Arif HÜSEYNOV,**
*Xalq rəssamı*

**Naşir**
Akif Dənzizadə

**Bədii redaktor**
Sevinc Mürvətqızı

Çapa imzalanıb 29.04.2019
Formatı 60x90 1/16
Kağız ofset №1
Fiz. çap. vər. 10
Sayı 1000

Kitab **“APOSTROF-A”** nəşriyyatında
ofset üsulu ilə çap edilib.
*Bakı, H.Zərdabi 71 A*
*E-mail: apostrof0706@gmail.com*
*Tel.: +99412 432 51 04 / +99450 313 07 06*